# ELM və HƏYAT

Azərbaycan
Milli Elmlər
Akademiyası

Elmi-populyar jurnal

ISSN: 2710-0944

№ 4 (470), 2020

*Jurnal 1961-ci ildən nəşr olunur*

# REDAKSİYA HEYƏTİ

**BAŞ REDAKTOR**

**Ramiz Mehdiyev** - AMEA-nın prezidenti, akademik

**BAŞ REDAKTORUN MÜAVİNİ**

**İsa Həbibbəyli** - AMEA-nın birinci vitse-prezidenti, akademik

**MƏSUL REDAKTOR**

**Ağahüseyn Şükürov** - AMEA Rəyasət Heyəti Aparatının Mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru

**ÜZVLƏR**

**Anar Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı
**Tahir Salahov** - Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, akademik
**İbrahim Quliyev** - AMEA-nın birinci vitse-prezidenti, akademik
**Ömər Eldarov** -Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik
**Rasim Əliquliyev** - AMEA-nın vitse-prezidenti, akademik
**Dilqəm Tağıyev** - AMEA-nın vitse-prezidenti, akademik
**İradə Hüseynova** - AMEA-nın vitse-prezidenti, akademik
**Nərgiz Paşayeva** - AMEA-nın vitse-prezidenti, akademik
**Tofiq Nağıyev** - AMEA-nın vitse-prezidenti, akademik
**Cəmil Əliyev** - Akademik
**Əhliman Əmiraslanov** - Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik
**İsmayıl Hacıyev** - AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik
**Fuad Əliyev** - AMEA-nın Gəncə Bölməsinin sədri, akademik
**Firəngiz Əlizadə** - Azərbaycan Bəstəkarlar İttifaqının sədri
**Adil Qəribov** - AMEA-nın akademik-katibi, akademik
**Gövhər Bvxşəliyeva** - Akademik

**BEYNƏLXALQ HEYƏT**

**Se Fuçjan** - Çin İctimai Elmlər Akademiyasının prezidenti, akademik
**Müzəffər Şəkər** - Türkiyə Elmlər Akademiyasının prezidenti, professor, doktor
**Darxan Kıdırəli** - Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik
**Behzad Yuldaşev** - Özbəkistan Elmlər Akademiyasının prezidenti, akademik
**Taliya Xabriyeva** - Rusiya Elmlər Akademiyası prezidentinin müavini, akademik
**Boris Nikolov** - Bolqarıstan Elmlər Akademiyasının vitse-prezidenti, akademik

**MƏSUL KATİB**

**Sərvan Kərimov** - AMEA Rəyasət Heyəti Aparatının Mətbuat və informasiya şöbəsinin Mətbuat sektorunun baş mütəxəssisi

# BƏLƏDÇİ

AMEA Rəyasət Heyətinin təbriki ....................................................................................4

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin Ümummilli lider
Heydər Əliyevə həsr olunmuş müsahibəsi........................................................................5

**İsa Həbibbəyli** - Folklorda sələfi olmayan "Dədə Qorqud" obrazları ...............................10

**İbrahim Quliyev, Tariyel Hüseynov -**
Mingəçevir şəhəri ətrafında mövcud texnogen gərginlik
təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir ..........................................................13

**İradə Hüseynova** - AMEA pandemiya ilə mübarizədə......................................................18

**İsmayıl Hacıyev** - Dünənin və bu günün qardaşlıq cəbhəsi ...............................................22

**Eldar Əmirov, Ələddin Məlikov** - Rəhbər və başçı: fərq nədir?............................................25

**Ulduz Həşimova** - Azərbaycanda herontoloji tədqiqatlara dair ............................................32

**Qasım Hacıyev** - Ermənistan Cənubi Qafqazda separatçı və terrorçu dövlətdir ...................35

**Назмин Джафарова** - Религиозная толерантность в Азербайджане, или ответ на
претензии политических и общественных деятелей ряда стран мира .......................37

**Şəms İmrani, Nigar Rəfiyeva** - Dağlıq Qarabağ və ətraf rayonlarının turizm potensialı...........42

**Ульвия Гаджиева** - Албанский монастырь Кяльбаджара - Дадиванк / Худаванк...........45

**Zaur Əliyev** - Erməni vandalizminin qurbanı Ağdam məscidi ..................................................48

**Ramil Ağayev** - Xudafərin körpüləri və Azərbaycan tarixində onların rolu ............................50

**Галия Алиева** - Исследуя недра Земли.....................................................................................53

**Anar Ağalarzadə** - Qarabağ və Zəngəzurun epiqrafik abidələri ..............................................57

**Эльнур Гасанов** - Архитектурное наследие
Гянджи как пример мультикультурализма...........................................................................60

**Pərvanə Qaraxanlı** - Şuşanın simvolu - Xarıbülbül gülü..........................................................63

**Kamal Gülmalıyev** - "Xəmsə"də Naxçıvan izləri ......................................................................64

**Məmməd Həşimov** - Beyin-kompüter interfeysi.......................................................................68

**Kəmalə Cəfərova** - Memuar ədəbiyyatında repressiyanın əksi...............................................71

**Раджиб Сулейманов** - Особенности культуры
Республики Дагестан на современном этапе ........................................................................74

**Könül Tapdıqova, Adil Əliyev** - Hirudoterapiya ........................................................................78

# AMEA Rəyasət Heyətinin təbriki

Əziz və hörmətli həmkarlar!

Artıq 2020-ci il sona çatır. Yola saldığımız 2020-ci il bütün bəşəriyyət üçün qlobal miqyasda bir sıra mühüm hadisələrlə, xüsusən qlobal pandemiya ilə yadda qaldı. Bu xəstəlik özü ilə bir sıra yeni sosial-iqtisadi, mənəvi-psixoloji, geosiyasi reallıqlar yaratdı. Bütün bəşəriyyət ciddi sınaqla üz-üzə qaldı.

Lakin pandemiyanın doğurduğu problemlərə, iqtisadi çətinliklərə, siyasi gərginliklərə baxmayaraq, əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də respublikamız öz sosial-iqtisadi və mədəni-mənəvi inkişafını uğurla davam etdirdi. Dövlət tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində pandemiyanın doğura biləcəyi problemlərin qarşısı mümkün qədər alındı. Ölkədə sabitlik qorunub saxlanıldı. Bütün sahələr üzrə inkişaf tempinin aşağı düşməsinə imkan verilmədi.

2020-ci il Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılan şanlı Qələbəmizlə daxil oldu. 27 sentyabrdan başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycan ordusu işğal olunmuş Qarabağ ərazisində əks-hücum əməliyyatları həyata keçirməyə başladı. Müzəffər Azərbaycan ordusunun böyük şücaət və xüsusi peşəkarlıqla apardığı döyüş əməliyyatları nəticəsində qısa müddətdə Qarabağ düşmən tapdağından azad edildi. Şuşa şəhərinin azad edildiyi 8 noyabr Azərbaycan tarixinə şanlı Zəfər günü kimi daxil oldu.

Vətən müharibəsi bütün dünyaya Azərbaycan xalqının həmrəyliyini, sarsılmaz birliyini nümayiş etdirdi. Yaşından, etnik və dini mənsubiyyətindən, sosial mənşəyindən, siyasi baxışından asılı olmayaraq bütün respublika vətəndaşları, hətta dünyanın müxtəlif ölkələrində yaşayan çoxsaylı azərbaycanlılar Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşdi.

Hazırda ərazi bütövlüyünü tam təmin etmiş, regionda və dünyada böyük nüfuz qazanmış Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur.

Yola saldığımız 2020-ci ili Azərbaycan elmi üçün də uğurlu il hesab etmək olar. Bu il hər şeydən əvvəl Azərbaycan Milli Elmlər Akademiyası üçün islahatlarla müşayiət olunan yeni mərhələ kimi yadda qaldı. 2019-cu ilin sonunda AMEA-nın Ümumi yığıncağı tərəfindən qəbul edilmiş "AMEA-da 2020-2025-ci illər üzrə elmin inkişaf proqramı"nın tələblərinə uyğun olaraq kompleks tədbirlər həyata keçirildi. Düzdür, pandemiya fəaliyyətimizə müəyyən qədər mane olsa da, biz bir sıra mühüm tədbirləri həyata keçirməyə nail olduq. AMEA-nın intellektual potensialının inkişafı, onun daha geniş miqyasda elmi və elmi-təşkilati fəaliyyətə cəlb edilməsi istiqamətində kompleks tədbirlər reallaşdırıldı. Xüsusən elmi potensialın ölkənin sosial-iqtisadi inkişaf məsələlərinə daha yaxından cəlb edilməsi, elm və iqtisadiyyat arasında inteqrasiyanın gücləndirilməsi, elmi idarəetmənin optimallaşdırılması, yüksəkixtisaslı kadrlardan daha səmərəli istifadə edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Lakin qarşıda duran vəzifələrimiz çoxdur. Akademiyada islahatların yeni dalğasına start verilir. Bu işdə bütün Akademiya əməkdaşlarını həmrəy olmağa çağırırıq.

Yeni ildə hamınıza uğurlar arzulayırıq!

# AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin Ümummilli lider Heydər Əliyevə həsr olunmuş müsahibəsi



**Sual:** ***Hörmətli Ramiz müəllim, Sizə ilk növbədə pandemiya dövrünün çətin iş rejiminə baxmayaraq bizimlə növbəti müsahibəyə razılıq verdiyiniz və vaxt ayırdığınız üçün AMEA Rəyasət Heyətinin Mətbuat və informasiya şöbəsinin bütün kollektivi adından öz minnətdarlığımızı bildiririk. Heç şübhəsiz ki, Sizin bütün müsahibələriniz kimi, bu gün də səsləndirəcəyiniz fikirlər cəmiyyət tərəfindən maraqla qarşılanacaq, təhlil ediləcək və müzakirələr doğuracaq. Xüsusilə müsahibənin əsas mövzusunun Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin şəxsiyyəti və fəaliyyətilə bağlı olduğunu nəzərə alsaq, onun təkcə sıravi vətəndaşların deyil, siyasi təhlilçilərin, tarixçilərin, tədqiqatçıların diqqətini əhəmiyyətli dərəcədə cəlb edəcəyini demək, fikrimizcə, artıq olardı. Bu da tam təbiidir. Çünki, uzun illər Heydər Əliyevlə çiyin-çiyinə çalışmış, onun Azəbaycana rəhbərlik etdiyi hər iki dövrdə yüksək etimad göstərdiyi bir silahdaş kimi Siz Ümummilli lider haqqında danışmağa mənəvi haqqı çatan azsaylı müasirlərimizdən birisiniz. Siz Azərbaycanın müasir tarixinin bir sıra taleyüklü hadisələrinin bilavasitə iştirakçısı və şahidi olmuş insansınız. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözlərilə ifadə etsək, Siz müstəqil Azərbaycanın uğurlarına böyük töhfələr vermiş, zəngin idarəçilik təcrübəsi olan dövlət xadimisiniz. Xalqımızın Ümummilli liderinin tarixi səciyyəsini, dövlətçilik salnaməmizdəki yerini və rolunu Sizin dilinizdən eşitmək maraqlı olardı.***

**R.M.:** Mənim fəaliyyətimə və dövlətimiz qarşısındakı xidmətlərimə verdiyiniz yüksək dəyərə görə öz minnətdarlığımı bildirirəm. Çox sağ olun! Ümummilli lider Heydər Əliyevin anım günü ərəfəsində müsahibə xahişi ilə mənə müraciət etməyinizlə, əslində, bu unudulmaz böyük şəxsiyyəti bir daha yad etmək, onun xidmətlərini xatırlamaq və xatırlatmaq üçün fürsət yaratmış oldunuz. Heydər Əliyev haqqında həm onun sağlığında, həm də vəfatından sonra çox deyilib və çox yazılıb. Mənim də xalqımızın Ümummilli liderinin siyasi irsinin təhlilinə həsr olunmuş kifayət qədər əsərlərim var.

Yazılan əsərlərin hamısı Heydər Əliyevin şəxsiyyətini və dövlətçilik fəlsəfəsini tam mənada əhatə edə bilibmi? Təbii ki, yox! Heydər Əliyev irsi hələ uzun illər tarixşünaslığımızın, ictimai-siyasi fikrimizin ən tükənməz mövzularından biri olaraq qalacaq və tədqiqatçıları özünə cəlb etməyə davam edəcək. Mən Heydər Əliyev şəxsiyyətini araşdıran və bu mövzuda yazan bütün yerli və əcnəbi müəlliflərin əməyinə hörmətlə yanaşıram, lakin eyni zamanda, belə düşünürəm ki, bu böyük dövlət xadiminin tariximizdəki yerini tam miqyası ilə təsvir edən şah əsər hələ də yazılmayıb.

Bir müdavim və silahdaş kimi isə mən Heydər Əliyevi böyük bir idarəçilik məktəbini, yolunu yaratmış unikal dövlət xadimi olaraq görürəm. Həmişə özümü Heydər Əliyevin idarəçilik məktəbinin məzunu hesab etmişəm və bununla da qürur duymuşam. Çəkinmədən qeyd edirəm ki, müasir Azərbaycanın qazandığı bütün uğurların təməlində məhz bu məktəbin prinsip və ideyaları dayanır. Heydər Əliyevin vəfatından sonra Azərbaycanı inamla zirvələrə və qələbələrə aparan Prezident İlham Əliyev də bu məktəbin məzunu və davamçısıdır. Əgər siz diqqət yetirdinizsə, mən məktəb sözünü bir neçə dəfə vurğuladım. Bu isə təsadüfi deyil. Çünki, tarixdə çox nadir siyasətçilər, dövlət xadimləri məktəb yaratmağa, layiqli davamçı və etibarlı silahdaş yetişdirməyə nail olurlar. Məktəb yaratmaq,



işlək idarəçilik sistemi qurmaq, dövlətçilik mədəniyyəti formalaşdırmaq hər siyasətçiyə müyəssər olmur. Heydər Əliyev isə bunu bacarmışdı.

Onun qurduğu sistem, meydana qoyduğu dövlətçilik təfəkkürü, idarəçilik modeli Azərbaycanı onun müasir tarixinin ən təlatümlü mərhələsindən minimum itkilərlə çıxardı, ölkəni yeni inkişaf yoluna istiqamətləndirdi, sabitliyi, tərəqqini təmin etdi, gələcəyin hədəflərini dəqiqliklə müəyyənləşdirməyə nail oldu. İndi də Azərbaycan öz inkişafını Heydər Əliyev siyasətinin inersiyası ilə davam etdirməkdədir. Bu gün bizi həmin keşməkeşli dövrdən illər ayırır və 1993-cü ildə dünyaya göz açan nəsil artıq yeni Azərbaycanın vətəndaşları kimi formalaşdı. Onlar 90-cı illərin hərc-mərcliyindən, yoxsulluğundan, ümidsizliyindən bixəbər idilər. Bu nəsil müstəqil və sabit Azərbaycanın, Heydər Əliyevin qurduğu Azərbaycanın vətəndaşları idilər. Qeyd etdiyim detallar siyasi tarix baxımından olduqca vacib detallardır.

Bilirsiniz, müasir dövrdə bəzən Heydər Əliyevin dövlətçilik fəaliyyətinə dair subyektiv yanaşmaların şahidi oluruq. Mən onları şərh etmək, qiymətləndirmək istəməzdim. Həmin şəxslərə tövsiyəm odur ki, mümkün olduğu təqdirdə siyasi prosesi öz məhdud dünyagörüşlərinin pəncərəsindən yox, onun reallıqları, incəlikləri nöqteyi-nəzərindən qavramağa çalışsınlar. Qoy həmin şəxslər Azərbaycanın ötən əsrin 90-cı illərində düşdüyü faciəvi vəziyyətin miqyasını dərindən anlamağa cəhd etsinlər. Bir anlıq Azəbaycanın yerləşdiyi regionun xüsusiyyətlərini göz önünə gətirsinlər. Ölkəmizdə hansı qlobal maraqların kəsişdiyi haqqında düşünsünlər. Bəlkə bütün bunlardan sonra onların Heydər Əliyevin siyasi irsinə verəcəkləri qiymət müəyyən qədər obyektiv ola bilər. Siyasi cəhətdən yetkin olmayan, siyasi təfəkkürü dayaz olan, Azəbaycanı və azərbaycanlıları dərindən tanımayan, ölkəmizin yerləşdiyi regionun xüsusiyyətlərini başa düşməyən şəxslərin Heydər Əliyevin fəaliyyətinə ədalətli qiymət verməsi qeyri-mümkündür.

**Sual:** ***Az əvvəl Siz Ümummilli liderin siyasi irsini səciyyələndirərkən özünüzü Heydər Əliyev məktəbinin yetirməsi adlandırdınız. Bu məktəb Sizdə hansı keyfiyyətləri formalaşdırıb? Bu məktəbin dərslərindən kifayət qədər bəhrələnə bildiyinizi düşünürsünüzmü? Heydər Əliyevin təsirilə formalaşdırdığınız xüsusiyyətlər və bacarıqlar dadınıza yetibmi?***

**R.M.:** Bəli, mən Heydər Əliyev məktəbinin yetirməsiyəm, bununla həmişə fəxr etmişəm və hər zaman da fəxr edəcəyəm. Heydər Əliyevin idarəçilik fəlsəfəsinin təməlini təşkil edən xüsusiyyətlər prinsipiallıq, qətiyyət, təvazökarlıq, dövlətçilik, öz xalqına, dövlətin həyati maraqlarına sədaqətlə bağlılıq, real problemləri duymaq qabiliyyəti, yüksək təşkilatçılıq bacarığı, yaxşı düşünülmüş kadr seçimi və praqmatizmdir. Heydər Əliyevin rəhbərliyi altında uzun illər çalışmış hər kəs mənim sadaladıqlarımı təsdiqləyə bilər. Mən Heydər Əliyevdən hər zaman idarəçiliyin sirlərini öyrənməyə, dövlət quruculuğu prosesinin qanunauyğunluqlarını əxz etməyə çalışmışam. Ümummilli liderdən öyrəndiklərim hər zaman, xüsusilə də ən çətin məqamlarda mənim köməyimə çatıb, - desəm, əsla yanılmaram. Heydər Əliyevdən öyrəndiklərimi, onun rəhbərliyi altında topladığım təcrübəmi Azərbaycan dövlətinin inkişafı və möhkəmlənməsi üçün sərf etmişəm.

Qeyd etməliyəm ki, Heydər Əliyevin vəfatından sonrakı illərdə Azərbaycan dövlətçiliyi müəyyən

təhdidlərlə, xüsusilə də siyasi sabitliyin pozulması təhlükəsilə üzləşmişdi. Söhbət 2003-2005-ci illərdən gedir. Həmin vaxt MDB məkanında bir-birinin ardınca baş verən rəngli inqilablar Azərbaycandakı bəzi qüvvələri sözün əsil mənasında iştaha gətirmişdi. Açıq deyirəm, cənab Prezidentin qətiyyəti, onun Heydər Əliyev məktəbini keçmiş, həqiqi, sadiq silahdaşlarının dövlətçiliyə sonsuz bağlılığı olmasa idi, hadisələrin hansı məcraya yönələcəyini demək çətin olacaqdı. Əgər o dövrdə dövlətçiliyimizə qarşı hazırlanmış dağıdıcı planların qarşısı qətiyyətlə alınmasaydı, Azəbaycanın hal-hazırda hansı vəziyyətdə olacağını düşünmək belə istəməzdim. Heydər Əliyev gələcəyi görən, müdrik dövlət xadimi idi və təbii ki, o, özündən sonra siyasi varisi, davamçısı olan İlham Əliyevə dayaq ola biləcək sadiq silahdaşlar komandası qoyub getmişdi. Məhz bu komandanın təcrübəsi İlham Əliyevin siyasi bacarığı və iradəsi ilə vəhdət yaradaraq Heydər Əliyev ideallarının təntənəsini təmin edə bildi.

Sadiq silahdaş, etibarlı komanda yaratmaq bacarığı siyasətçi, lider, strateq adına iddia edən hər bir kəs üçün olduqca vacib keyfiyyətdir. Belə bir komandanın formalaşdırılması liderin həm sağlığında, həm də vəfatından sonra onun kursunun uğurla həyata keçirilməsinin başlıca təminatçısı hesab olunur. Silahdaşlar və əqidədaşlar öz rəhbərlərinə hər hansı maddi nemətlərə sahib olmaq naminə bağlı deyillər. Belə bağlılığın sonu adətən uğursuzluqla nəticələnir. Rəhbəri öz silahdaşları ilə bır sıra mühüm mənəvi bağlar birləşdirməlidir. Ən başlıcası, onların ümumi amalları, məqsədləri olmalıdır. Lider öz silahdaşları, silahdaşlar isə öz rəhbərləri üçün fədakarlıq göstərməyi bacarmalıdırlar. Sadiq silahdaşı heç nə və heç kəs xəyanətə təhrik etməyə, sürükləməyə nail olmamalıdır. Vəzifə hərisliyi və maddi nemətlərlə olan düşkünlük xüsusilə təhlükəlidir. Təcrübə göstərir ki, bir çox hallarda xəyanətə, satqınlığa yol açan amillər məhz bunlardır. Doğrudur, insan təbiəti naqisdir və onun qəlbi, ruhu qapalı qutudur. Ancaq gercək rəhbərlər, müdrik siyasətçilər bütün bunlara baxmayaraq, sadiq silahdaşların yetişdirilməsinə, sınanmış tərəfdarların, əqidə yoldaşlarının formalaşdırılmasına daim xüsusi həssaslıqla yanaşmışlar. Böyük, gələcəyi düşünmək iqtidarında olan liderlər yaxşı başa düşürdülər ki, belə bir komandaya sahib olmayan rəhbər ancaq iflasa məhkumdur.



Düzü, mən Heydər Əliyev məktəbinin dərslərindən neçə qiymət aldığımı deməyə çətinlik çəkirəm. Bunu ancaq tarix göstərəcək. Ancaq cənab Prezidentin 23 oktyabr 2019-cu il tarixində məni ölkəmizin ən ali mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif edərkən dedikləri məndə bu qiymətin kifayət qədər yüksək olduğu təəssüratını yaratdı. Mən Prezident İlham Əliyevə minnətdaram. Müəllimim, rəhbərim hesab etdiyim böyük və təkrarolunmaz şəxsin adını daşıyan ordenə layiq görülməyimi isə həyatımın ən yaddaqalan və əlamətdar hadisələrindən biri kimi hər zaman xatırlayacağam.

**Sual:** ***Ramiz müəllim, Siz dövlət idarəçiliyi sahəsində uzun müddət fəaliyyət göstərmisiniz və heç kim üçün sirr deyil ki, kadr məsələlərində sizin tövsiyələriniz, mövqeyiniz dövlət başçısı tərəfindən nəzərə alınıb. Necə düşünürsünüz, kadr seçimində***

***əsas meyar nə olmalıdır? Ölkəmizdə kadr hazırlığı sahəsində vəziyyəti qənaətbəxş saymaq olarmı?***

**R.M.:** Kadr seçimi idarəçilik prosesinin ən mürəkkəb və həlledici aspektidir. Məşhur fikirdə deyildiyi kimi, kadrlar hər şeyi həll edir. Dövlət idarəçiliyində topladığım təcrübədən, üzləşdiyim müxtəlif vəziyyətlərdən, qarşılaşdığım çoxsaylı insanlarla təmasdan çıxış edib deyə bilərəm ki, kadr seçimi zamanı ilk növbədə fərdin yetkin şəxsiyyət kimi formalaşıb formalaşmamasına diqqət yetirmək lazımdır. Çünki, şəxsiyyət amili mənəvi keyfiyyətlərlə birbaşa bağlıdır. Bəli, bəzən belə fikirlər səslənir ki, əsas meyar qismində kadrın intellektual hazırlığı, onun bilik-bacarığı çıxış etməlidir. Təbii, sadalanan keyfiyyətlər mühümdür, ancaq onlar yetkin, mənəvi cəhətdən bütöv şəxsiyyət amili ilə birləşmədikdə çox zaman meydana ciddi problemlər çıxır. Dövlət idarəçiliyinin xüsusiyyətləri vəzifə tutan şəxsdən səbr, təmkin, insanlarla sağlam ünsiyyət qurmaq və vəziyyəti hərtərəfli təhlil etmək bacarığı tələb edir. Şəxsiyyəti yetkin olmayan, yersiz iddialarla yaşayan, insanlarla dil tapmaqda çətinlik çəkən şəxslər dövlət idarəçiliyi prosesində faydadan çox ziyan gətirirlər.

Kadr hazırlığı məsələlərinə gəlincə, mən bu sahədəki vəziyyəti qənaətbəxş hesab etmirəm. Mən bunu hər zaman qeyd etmişəm. Prezident Administrasiyasına rəhbərlik etdiyim dövrdə də ölkə hər zaman keyfiyyətli kadr qıtlığından əziyyət çəkirdi. İndi də bu problemin həll edildiyini demək çətindir. Kadr hazırlığının keyfiyyətinə təsir edən çox amillər var və onların arasında ölkədə təhsil sisteminin səviyyəsi birinci yer tutur. Doğrudur, son illərdə müxtəlif dövlət proqramları çərçivəsində gənclərimiz xarici ölkələrdə təhsil almış, müasir tələblərə uyğun biliklər qazanmışlar. Ancaq görünən odur ki, bu da kifayət deyil. İdarəçilik və siyasi proses spesifik sahələrdir. Onlar dərin biliklərlə yanaşı, müəyyən mənada fitri istedad, mövcud reallıqlara uyğunlaşmaq, öz üzərində daim işləmək vərdişinin olmasını tələb edir. Öz təcrübəmdə mən belə hallarla rastlaşmışam. Elə vəziyyətlər olub ki, xaricdə mükəmməl təhsil almış kadr öz ölkəsinin reallıqlarını, cəmiyyətin xüsusiyyətlərini nəzərə almadan fəaliyyət göstərməyə çalışıb. Hesab edib ki, xaricdə aldığı nəzəri bilikləri eynilə ölkəmizdə tətbiq edə bilər. Ancaq son nəticədə onun bütün təşəbbüsləri iflasa uğrayıb. Çünki, yerli xüsusiyyətləri dərindən bilmədən, ölkənin və xalqın problemlərinin həqiqi səbəblərini təhlil etmədən, mövcud reallıqlara uyğun həll yolları işləyib hazırlamadan idarəçilik sahəsində heç bir ciddi uğur qazanmaq olmaz.

Bəzi insanlara mənim indi deyəcəyim fikir qəribə görünə bilər, ancaq şəxsən mən siyasəti, idarəçiliyi elm sahəsindən daha çox incəsənət sahəsi hesab edirəm. Çünki, bu sahə idarəçiliyin digər sahələri kimi fitri istedadın, bacarığın olmasını tələb edir. Dərin biliklərə, hərtərəfli savada malik şəxslərin bir çox hallarda siyasətdə uğur qazana bilməməsi bunun ən bariz sübutudur. İdarəçilik tariximiz belə nümunələrlə zəngindir. Sistemli savad almamış, lakin öz istedadı, bacarığı hesabına tarixə parlaq rəhbər kimi düşmüş şəxsiyyətlər kifayət qədər olub. Məhəmməd peyğəmbər (s), Atilla, Çingiz xan, Atabəy Şəmsəddin Eldəgiz, Nadir şah və başqaları. Düşünürəm ki, oxucularımız məni düzgün anlayacaqlar. Mən savadın, biliyin idarəçilik sistemində lazım olmadığını demək istəmirəm. Əksinə, bilik və intellekt hər bir siyasətçinin, rəhbərin ən mühüm məsləhətçisidir. Müdrik rəhbərlər daim öz ətrafında savadlı, geniş dünyagörüşü və dərin təfəkkürü olan şəxsləri toplamağa çalışırlar. Demək istədiyim odur ki, siyasət və idarəçilik sənətində bilik, savad mütləq fitri istedadla, daxili bacarıqla ahəng təşkil etməli, tamamlanmalıdır. Əks halda, siyasət meydanına atılmış şəxsin uğur qazanması mümkün deyil. Xarici dil bilikləri, adlı-sanlı universitetlərdə təhsil almaq, dəblə geyinmək kimi xüsusiyyətlər siyasətdə uğur formulunun əsası deyil. Bu, tələb olunan keyfiyyətlə yanaşı istedad, bacarıq və səriştə işidir.

**Sual:** ***Ramiz müəllim, məlum olduğu kimi, son bir neçə ildə ölkəmizdə bütün sahələr üzrə ciddi islahatlar aparılır, yenilənmə prosesi gedir. Ümumiyyətlə, Sizin üçün islahatlar nə deməkdir və yenilənmə prosesilə Heydər Əliyev irsinin başlıca prinsipləri arasındakı vəhdət nöqtələri hansılardır? Yenilənmə ilə varisliyin ahəngdarlığını təmin etmək üçün hansı addımlar atılmalıdır?***

**R.M.:** Sualınızın ikinci hissəsindən başlayaq. Mən bu ahəngin təmin ediləcəyindən arxayınam. Çünki, məsələ birbaşa cənab Prezident İlham Əliyevin nəzarətindədir. O, orta xətti çox gözəl görür və Heydər Əliyev irsinin bütün fəlsəfəsi, ana prinsipləri ona yaxşı məlumdur. Cənab Prezident müasir düşüncəli, dövlətçilik əzmi güclü olan, novator və eyni za-

manda, sözün ən müsbət mənasında mühafizəkar siyasətçidir. Heydər Əliyev əbəs yerə demirdi ki, mən ona, yəni İlham Əliyevə özüm kimi inanıram. Mənim də ona inamım, etibarım sonsuzdur. O ki qaldı irslə müasirliyin vəhdət nöqtəsinə, bu nöqtə dövlət maraqlarının şəxsi maraqlar üzərindəki üstünlüyündən keçir. Heydər Əliyev Azərbaycan dövlətini güclü, müasir və xarici təhdidlərə qarşı dayanıqlı görmək niyyətində idi. Bütün islahatlar məhz bu xətt əsasında aparılmalıdır. Şəxsi və qrup maraqlarını dövlət maraqlarından üstün tutan şəxslərin dövlət idarəçiliyinə cəlb edilməsi Heydər Əliyev xəttinə xəyanət olardı. Suayrıcı, qırmızı xətt məhz bu prinsipdir.

İslahat anlayışının fəlsəfəsinə və mahiyyətinə gəlincə, mənim fikrimcə insanların çoxu onu doğru qavramır. İslahat sözünün kökü islah anlayışı ilə, yəni qüsurların, xətaların aradan qaldırılması ilə bağlıdır. Yaşlı kadrların gənclərlə, bir qrupa aid olanların başqa bir qrupun mənsubu ilə əvəzlənməsi hələ islahat demək deyil. Əgər yeni gələn əvvəlki səhvləri təkrar edirsə, hətta əvvəlkindən də ciddi xətalara yol verib, vəziyyəti bir qədər də pisləşdirirsə, burada heç bir islahatdan söhbət gedə bilməz. İslahat prinsiplərin, işə yanaşma fəlsəfəsinin, məqsədlərin dəyişməsi deməkdir. Bu amillərin olmadığı yerdə heç bir islahatdan danışmaq mümkün deyil.

Mən həmişə qeyd etmişəm ki, islahatlar və yenilənmə qaçılmazdır. Bu, təbii prosesdir, ancaq onun uğurla icrası üçün bütün zəruri amillər nəzərə alınmalıdır. Tez-tələsik, düşünülməmiş addımların atılması islahatlara ancaq ziyan verə bilər. Cənab Prezident idarəçilik sahəsində kifayət qədər təcrübə və səriştə sahibidir. Əminəm ki, o, atdığı addımların hər birində deyilən meyarları nəzərə alır. Başqa cür mümkün deyil!

Azərbaycan olduqca mürəkkəb regionda, çox ciddi maraqların kəsişdiyi nöqtədə yerləşir. İndiki həssas dövrdə isə ümumiyyətlə diqqətli olmaq, prosesləri dəqiqliklə proqnozlaşdırmaq lazımdır. Yeni şəraitdə ölkəmizin qarşısında tamamilə yeni vəzifələr dayanır. Onları həll etmək iqtidarında olan kadrlar tapılmalı və irəli çəkilməlidir. Bunu hər şeydən öncə, dövlət maraqları tələb edir.

**Sual:** ***Düşünürük ki, Sizə ünvanlayacağımız son sual hər kəs üçün maraqlıdır. Memuarlarınızı yazmağı düşünürsünüzmü? Sizin xatirələriniz müasir Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsi, bir çox proseslərin həqiqi mahiyyətinin öyrənilməsi baxımından çox faydalı olardı.***

**R.M.:** Bu barədə hələ yekun qərara gəlməmişəm. Memuarlarla bağlı mənə çox təkliflər edilib və mən başa düşürəm ki, cəmiyyətimiz mənim xatirələrimi maraqla qarşılayacaq. Görünür ki, bu haqda bir daha düşünməliyəm. Ancaq ümumilikdə demək istəyirəm ki, mənim irsim mənim fəaliyyətimdir, yazdığım əsərlərdir, səsləndirdiyim fikirlərdir. Mən siyasi və elmi mirasımın tamamilə qüsursuz olduğunu iddia etmirəm. Xəta insan üçün səciyyəvi olan başlıca cəhətdir. Lakin düşünürəm ki, bu irsdə dövlətçiliyimizin keçmişi və gələcəyi üçün faydalı olacaq xeyli məqamlar var. Bir daha bəyan etmək istəyirəm ki, mən öz irsimə həmişə sahib çıxmışam, atdığım addımların hər birinin altından bu gün də eyni əminliklə qol çəkməyə hazıram. Mənim fəaliyyətimin və ömrümün 49 illik dövrü Ümummilli lider Heydər Əliyevlə və Prezident İlham Əliyevlə sıx bağlıdır. Mən bu tarixlə qürur duyuram.

Bir məsələnin üzərində dayanmaq istərdim: müasir Azərbaycan dövlətinin qurucusu, memarı unudulmaz Heydər Əliyevdir. Son 17 ildə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edərək qüdrətli dövlətə çevrilib. Bu gün Azərbaycan dünya birliyində şərəfli bir mövqe tutub. Xalq - Prezident birliyi bu uğurun əsasını təşkil edən başlıca amildir. Müasir Azərbaycan dövləti müstəqil bir dövlətdir. Bu günədək mən dərin inamla bu dövlətə xidmət etmişəm və həyatımın sonuna qədər də Heydər Əliyevin dövlətçilik fəlsəfəsinə xidmət edəcəyəm.

***- Ramiz müəllim, Sizə maraqlı müsahibə üçün bir daha minnətdarlığımızı bildiririk. Çox sağ olun.***

**R.M.:** Sağ olun.

*Müsahibəni hazırladılar:*

**Ağahüseyn ŞÜKÜROV**,
*Mətbuat və informasiya şöbəsinin müdiri*

**Gülnar HACIYEVA,**
*Mətbuat və informasiya şöbəsinin müdir müavini*

**Aynurə ƏSGƏROVA,**
*Mətbuat və informasiya şöbəsinin sektor müdiri*



**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın birinci vitse-prezidenti, akademik*

# Folklorda sələfi olmayan "Dədə Qorqud" obrazları

**"Kitabi-Dədə Qorqud" dastanlarında yazılı ədəbiyyata aid xüsusiyyətlərin olması ilk növbədə bu ədəbi abidənin özündə aşağıdakı kimi bəyan edilmişdi: "Dədəm Qorqud gəldi, şadlıq çaldı, boy boyladı, soy soyladı, bu oğuznaməni düzdü, qoşdu, getdi." Bundan başqa, görkəmli qorqudşünas alimlər də "Kitabi-Dədə Qorqud"u dastan poetikası əsasında tədqiq və təhlil etsələr də, bu oğuznamədə yazılı ədəbiyyata məxsus keyfiyyətləri mövcudluğunu da nəzərə çarpdırmışlar.**

Akademik Həmid Araslının fikrincə bu dastanlar "Azərbaycan şifahi xalq ədəbiyyatının dəyərli nümunələri olduğu kimi, Azərbaycan yazılı ədəbiyyatının da qədim nümunəsi kimi böyük əhəmiyyətə malikdir".[1] Digər bir görkəmli folklrşünas professor Məhəmməd Hüseyn Təhmasibin fikrincə, "Kitabi-Dədə Qorqud" boylarının sonunda "boyun - dastanın kim tərəfindən yaradılmış olduğu barədə... müasir istilahla deyilsə, müəllifi barədə məlumat vardır".[2] Akademik Tofiq Hacıyev "Kitabi-Dədə Qorqud"dan ilk yazılı yaddaşımız[3] kimi söz açmışdır. AMEA-nın müxbir üzvü Əliyar Səfərli, professor Xəlil Yusifli və başqaları da "Kitabi-Dədə Qorqud"da yazılı ədəbiyyata dair xüsusiyyətlərin olduğunu görüb göstərmişlər. Xalq yazıçısı Anar qəti olaraq bu qənaətdədir ki, bu (yəni KDQ - İ.H.), adından da göründüyü kimi, yazılı ədəbiyyat abidəsi olan kitabdır".[4]

Bu mövzunu davam etdirərək, qeyd etmək istərdik ki, "Kitabi-Dədə Qorqud"da yazılı ədəbiyyata aid çoxsaylı xüsusiyyətlərdən biri də burada folklorda fəlsəfi olmayan və ilk dəfə Dədə Qorqud tərəfindən yaradılmış bədii obrazların olması ilə əlaqədardır.

Belə ki, Azərbaycan və türk dünyası folklorunda, habelə müxtəlif oğuznamələrdə "Kitabi-Dədə Qorqud" boylarının əsas iştirakçıları olan Bayandır xan, Qazan xan, Dədə Qorqud, Bükdüz Əmən, Alp Aruz, Beyrək, Basat və Təpəgöz haqqında çoxlu sayda süjetlər, motivlər vardır. Hətta "Dədə Qorqud"un bu məşhur qəhrəmanlarının hər birindən bəhs edilən şifahi xalq ədəbiyyatı nümunələrinin hərəsinin bir neçə variantları mövcuddur. "Dədə Qorqud" boylarının həmin aparıcı surətlərinin şifahi xalq ədəbiyyatının müxtəlif janrlarında: əfsanə və rəvayətlərdə, nağıllarda, xalq şeiri nümunələrində bənzər və ya bir qədər fərqli obrazları canlandırılmışdır. Daha doğrusu, yuxarıda adları çəkilən Dədə Qorqud qəhrəmanlarının şifahi xalq ədəbiyyatında sələflərinin olduğu məlumdur. Heç şübhəsiz, Oğuz Elinin böyük bilicisi Dədə Qorqud öz "Oğuznamə"sini yaradarkən o vaxta qədərki şifahi xalq ədəbiyyatın-

[1] Həmid Araslı. VII-VIII əsrlərdə Azərbaycan ədəbiyyatı. Bax: Azərbaycan ədəbiyyatı tarixi, 3 ciddə, I cild. Bakı, "Elm", 1960, səh.58
[2] M.H.Təhmasib. Azərbaycan xalq dastanları. Bakı, "Elm", 1972, səh.85
[3] Tofiq Hacıyev. "Dədə Qorqud" kitabı ilk yazılı yaddaşımızdır. Dədə Qorqud ensiklopediyası. Bakı, 2014, səh.4
[4] Anar. Söz dünyası. Bakı, "Şərq-Qərb", 2018, səh. 285

da olan motivlərdən, obrazlardan istifadə etmiş, onlardan yaradıcı şəkildə faydalanmışdır. Lakin Dədə Qorqud mövcud və məlum süjetləri özünün bədii dühasından, fantaziyasından keçirməklə yeni əlavələrlə zənginləşdirmiş, öz dəstxəttinə, fikir və düşüncələrinə, bədii məqsədinə uyğunlaşdırmış-dır. Ona görə də möhkəm folklor dayaqları olan bu möhtəşəm ədəbi abidə şifahi xalq ədəbiyyatından yaradıcı istifadə əsasında formalaşdırılmış orijinal bədii əsərdir.

Bununla belə, "Kitabi-Dədə Qorqud" boylarında şifahi xalq ədəbiyyatında və oğuznamələrdə adları çəkilməyən, haqqında söz açılmayan və ya ötəri yad edilən onlarla surətlər vardır. Fikrimizcə, həmin obrazlar ustad Ozan Dədə Qorqudun özünün qoşub-düzdüyü və boylara daxil etdiyi yaddaqalan, cəlbedici və əhəmiyyətli personajlardır. "Kitabi-Dədə Qorqud"un ayrı-ayrı boylarında iştirak edən, süjetin inkişaf etdirilməsində özlərinəməxsus funksiya daşıyan Qaragünə, Dəli Dondaz, Qarabudaq, Yegnək, Əgrək, Səgrək, Yalançı oğlu Yalıncıq, Qara Tükən, Qazılıq Qoca, Qanlı Qoca, Bunlu Qoca, Yapaqlı Qoca, Uşun Qoca, Bəkil oğlu İmran, Alp Rüstəm, Dönəbilməz, Tüləkvuran, Tərsuzamış, Arşın oğlu Dilək, Dabangücü, Dəmirgücü və sair kimi obrazlar ilk dəfə Qorqud Ata tərəfindən yaradılaraq bədii ədəbiyyata gətirilmişdir. "Kitabi-Dədə Qorqud"da az və ya çox yer tutmasından asılı olmayaraq, adları çəkilən bu obrazların boylarda özünəməxsus fərdi cizgiləri verilmiş, bir-birlərindən fərqli xarakterləri açılıb göstərilmişdir. Dədə Qorqudun bədii fantaziyası əsasında bu obrazlarla əlaqədar yaradılmış süjetlər "Kitab"da geniş yer tutur və onlardan hər biri əsərdə müəyyən bir funksiyanı həyata keçirirlər. İlk dəfə Dədə Qorqud tərəfindən yaradılmış və folklorda sələfləri olmayan, yaxud çox az, ötəri şəkildə adları çəkilən bu obrazları boyların mətnindən çıxarsaq, əsərin süjetini tam təsəvvür etmək mümkün olmaz. Bu obrazların bir çoxu: Yegnək, Əgrək, Səgrək, Qazılıq Qoca, Uşun Qoca, Bəkil oğlu İmran "Kitabi-Dədə Qorqud"dakı boyların əsas qəhrəmanlarıdırlar. Hətta bir neçə boy onların adları ilə adlandırılmışdır. "Qazılıq Qoca oğlu Yegnək boyu", "Bəkil oğlu İmran boyu" və "Uşun Qoca oğlu Səgrək boyu" folklor dayaqlarından çox, Dədə Qorqudun bədii dühası əsasında yaradılmış orijinal boylardır.



Buradan belə bir qənaətə də gəlmək mümkündür ki, bu obrazlarla əlaqədar olan boylar yalnız Dədə Qorquda məxsus olan, folklorla əlaqəsi olmayan və ya dolayısı ilə uzaqdan folklora bağlanan bənzərsiz süjetlər əsasında qurulmuşdur. Folklor sələfləri olan qəhrəmanlarla, məsələn: Dədə Qorqud, Qazan xan, Təpəgözlə səsləşən boylarla müqayisədə şifahi xalq ədəbiyyatı ilə bağlılığı olmayan və ya az əlaqəsi olan boylar bədii-sənətkarlıq cəhətdən qətiyyən zəif görünməyib, "Kitabi-Dədə Qorqud"un mətnini eyni səviyyədə tamamlamağa xidmət edən orijinal mətnlərdir.

Folklorla əlaqəsi olmayıb və ya az olub, ilk dəfə Dədə Qorqud tərəfindən yaradılıb ayrı-ayrı boylara əlavə edilmiş obrazlar və onlarla bağlı süjetlər "Kitabi-Dədə Qorqud"un yazılı ədəbiyyat abidəsi olduğunu müəyyən edən mühüm dəlillərdəndir.

Bir-birindən fərqli, bənzərsiz obrazlar yaratmaq baxımından Dədə Qorqud mahir sənətkardır. "Kitabi-Dədə Qorqud" boylarındakı böyüklü-kiçikli bütün obrazlar həm zahiri görünüşünə, həm də xarakterinə görə bir-birindən fərqli xüsusiyyətləri ilə təqdim olunmuşdur. "Dədə

Qorqud kitabı"ndakı çoxsaylı bədii obrazların hər birinin özünəməxsus sifəti və fərdi xarakter xüsusiyyətləri vardır. Obrazların böyük məharətlə fərdiləşdirilməsi baxımından Dədə Qorqud fitri istedada malik şair-yazıçı olmaqla bərabər, həm də qeyri-adi dərəcədə yaradıcılıq fantaziyası olan yazıçı-rəssamdır. "Kitabi-Dədə Qorqud"un Salur Qazanla əlaqədar boylarında mövzu ilə bağlı ən çətin məqamlarda Qalın Oğuz Elinin baş sərkərdəsinə kömək etmək üçün özünü yetirmiş oğuz bəylərindən hər birinin fərqli cizgilərilə təqdimatında öz əksini tapmış fərqli cizgilər Dədə Qorqudun nadir istedad sahibi olan böyük yazıçı-rəssam olduğunu təsdiq edir: "Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən, qara bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər-igidi, Qazan bəyin qardaşı Qaragünə;

…Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutumluq böyük nizəsinin ucunda igidləri böyürdən Qıyan Səlcuk oğlu Dəli Dondaz;

…Amidlə Mardin qalasını vurub-yıxan, dəmir yaylı Qıpçak Məlikə qan qusduran, gələ-rək Qazanın qızını mərdliklə alan, Oğuzun ağsaqqal qocaları görəndə o igidə "əhsən" deyən, ağ məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq;

…İcazəsiz Bayandır xanın düşmənini basan, altmış min kafirə qan qusduran, ağ-boz atının yalı üzərində qar yığılan Qəflət Qoca oğlu Şir Şəmsəddin;

…Parasaran Bayburd hasarından sıçrayıb aşan, al rəngli gəlin otağına qarşı gələn, yeddi qızın ümidi, Qalın Oğuzun müjdəçisi, Qazan bəyin silahdaşı, boz ayğırlı Beyrək;

…Çalım-çarpaz çalmalı, çal qaraquş ərdəmli, qurama qurşaqlı, qulağı qızıl küpəli, Qalın Oğuz bəylərini bir-bir atdan yıxan Qazılıq Qoca oğlu Yegnək bəy;

…Altmış təkə dərisindən olan kürkü topuqlarını örtməyən, altı erkək dərisindən papağı qulağını örtməyən dolu budu uzunca, baldızları incə Qazan bəyin dayısı, at ağızlı Aruz Qoca;

…Gedib peyğəmbərin üzünü görən, gələrək oğuzlar içində ona tərəfdar çıxan, bığı qanlı Bükdüz Əmən;

…Kafirləri it ardına qoşub alçaldan, evdən çıxıb Ayğırgözlü suyunda at üzdürən, əlli yeddi qalanın açarını alan, Ağ Məliyin Çeşmə qızına evlənən, Sufi Sandal Məlikə qan qusduran, qırx cübbə bürünüb, otuz yeddi qala bəyinin gözəl qızlarını oğurlayıb bir-bir boynunu qucan, üzündən-dodağından öpən İpək Qoca oğlu Alp Ərən çaparaq yetişdi: "Çal qılıncını, bəyim Qazan, çatdım" - dedi".[5]

Tərəddüd etmədən demək olar ki, dünya ədəbiyyatı və təsviri sənətində Dədə Qorqud səviyyəsində bu qədər ən incə cizgilərinə qədər fərqli obrazlar yaradan, bənzərsiz portretlər çəkən şair-yazıçı və ya rəssam göstərmək çətindir. Cəmi bir səhifəlik mətndə doqquz obrazın fərdi xüsusiyyətlərini tam fərqli şəkildə, qeyri-adi obrazlı vasitələrlə canlandırmaq Dədə Qorqudun parlaq istedadının təzahürüdür. Dədə Qorqud nadir istedada malik olan dahi yazıçı-rəssamdır.

"Salur Qazanın evinin yağmalandığı boy"da təsvir edilmiş Qaraca Çoban obrazı bədii söz vasitəsilə dahiyanə şəkildə işlənmiş bənzərsiz portretdir: "Çobanın sapandının daşlığı üçyaşar dana dərisindən, sapandının qolları isə üç keçi tükündən düzəlmişdi. Sapandın çatısı bir keçi tükündən idi. Hər atanda on iki batman daş atardı. Atdığı daş yerə düşməzdi. Yerə düşsə də toz kimi sovrular, kül kimi ovulardı. Üç ilədək daşının düşdüyü yerin otu bitməzdi. Bayırda kök qoyun da, arıq bağlı da qalsaydı sapandın qorxusundan qurd gəlib yeməzdi".[6]

Həyati müşahidələrinin incəliklərinə və obrazlı vasitələrlə təqdim olunmasına görə Dədə Qorqudun yaratdığı Qaraca Çoban obrazı dünya ədəbiyyatı və təsviri sənətinin şah əsərlərdən biri hesab oluna bilər.

Bədii obraz yaratmaq sənətkarlığı etibarilə "Kitabi-Dədə Qorqud" şifahi xalq ədəbiyyatından yaradıcı şəkildə istifadə etmək yolu ilə və şifahi şəkildə yaradılmış mükəmməl yazılı bədii ədəbiyyat nümunəsidir.

[5] Kitabi-Dədə Qorqud (çapa hazırlayanı və ön sözün müəllifi Samət Əlizadə). Bakı, XXI əsr UNE, s.263-264

[6] Yenə orada, səh.261



**İbrahim QULİYEV**
*AMEA-nın birinci vitse-prezidenti, akademik*



**Tariyel HÜSEYNOV**
*AMEA Geologiya və Geofizika İnstitutunun əməkdaşı*

# Mingəçevir şəhəri ətrafında mövcud texnogen gərginlik təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir

**Azərbaycan Respublikasının ərazisində su obyektlərinin etibarlı mühafizəsinin təmin edilməsi və texniki vəziyyətinə müntəzəm nəzarətin həyata keçirilməsi onların səmərəli istismar edilməsi və ölkə ərazisində su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi məqsədilə 24 iyul 2020 - ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında aidiyyatı qurumların rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmiş, AR Prezidentinin 27 iyul 2020- ci il tarixli sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020 - 2022 - ci illər üçün tədbirlər planı" təsdiq edilmişdir.**

Müşavirənin gedişində hidrotexniki qurğularda mövcud vəziyyət, baş verə biləcək texnogen təhlükələr barədə müzakirələr aparılmış, bununla bağlı təxirə salınmaz tədbirlərlə bağlı təkliflər verilmişdir.

Təhlükə potensiallı obyektlərin sırasına daxil olan, eyni zamanda strateji əhəmiyyətli dövlət obyektlərinin (Mingəçevir SES, AzDRES) yerləşdiyi Mingəçevir şəhəri ərazisi texnogen təhlükələrlə üzləşdiyi üçün burada narahatlıq doğuran faktları qeyd etmək istərdik.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, 1953 - cü ildə istismara verilmiş Mingəçevir su anbarında suyun səviyyəsinin qalxıb enməsi səbəbindən bəndin yuxarı yamacında beton plitələrin altındakı qum - çınqıl kütləsi yuyulmuş və betonaltı sahələrdə boşluqlar yaranmışdır. Torpaq bəndin dayanıqlığına və təhlükəsizliyinə daimi nəzarət etmək məqsədilə bəndin bətnindən sızan suların səviyyəsini ölçmək üçün istifadə olunan pyezometrlərin bir hissəsi yararsız vəziyyətdədir. Beton plitələrin altındakı torpaq bənddə qum - çınqıl kütləsinin intensiv yuyulması və iri həcmli boşluqların yaranması torpaq bəndin daxilində gizli aşınma proseslərinin getməsini göstərir ki, bu da bəndin hər hansı bir hissəsinin yuyularaq dağılmasına və qəza vəziyyətinin yaranmasına gətirib çıxara bilər.

Bundan əlavə, qeyd etmək lazımdır ki, Mingəçevir su anbarından yuxarıda kaskad şəkildə bir - biri ilə əlaqəli olan Şəmkir və Yenikənd su anbarlarının bəndlərində baş verə biləcək hər hansı hadisə Mingəçevir su anbarında güclü dalğanın yaranmasına səbəb ola bilər və onun bəndinin dayanıqlığına mənfi təsir göstərə bilər.

Hesab olunur ki, iri su anbarlarının mövcüdluğu onlar yerləşən lokal ərazilərdə baş verə biləcək zəlzələ təkanlarının gücünün əlavə olaraq 1 bal yüksəldir və onları gücləndirən faktorlardan biri kimi qiymətləndirilir.

Mingəçevir su anbarı SSRİ dövründə Azərbaycan Su Təsərrüfatı Nazirliyinin balansında ol-

muşdur. Nazirlik ləğv olunduqdan sonra mühüm dövlət əhəmiyyəti kəsb edən və təhlükə potensiallı bu obyekt hazırda heç bir təşkilatın balansına götürülməyib.

Su ehtiyatlarının etibarlı mühafizəsi və səmərəli istifadə olunması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 fevral 2011-ci il tarixli 50s nömrəli Sərəncamı ilə Mingəçevir, Şəmkir, Yenikənd, Varvara, Ceyranbatan su anbarları, onların mühafizə və sutənzimləyici hidrotexniki qurğuları, o cümlədən Yuxarı Qarabağ, Yuxarı Şirvan və Şəmkir Maşın-Kanal suvarma kanallarının baş suqəbuledici qurğuları, Ceyranbatan su təchizatı sisteminin su təchizatı qəbulu qurğusu ilə birlikdə Fövqəladə Hallar Nazirliyinin balansına verilmişdir.

Bununla əlaqədar olaraq, ölkənin su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 25 fevral 2011-ci il tarixli 389 nömrəli Fərmanı ilə Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi yaradılmışdır.

Nazirlər Kabinetinin 50 s nömrəli Sərəncamının 1-ci bəndində göstərilən hidrotexniki qurğuların təhvil-təslimi ilə əlaqədar aidiyyəti qurumlar arasında razılaşma əldə edilmədiyindən, qeyd edilən qurğuların Nazirliyin balansına götürülməsi başa çatdırılmamışdır.

Belə ki, nazirliyin balansına verilmiş su obyektlərində aparılan vizual baxış və araşdırmalar zamanı hidrotexniki qurğuların əksəriyyətinin vəziyyətinin qənaətbəxş olmadığı, bəzi qurğuların təhlükəli vəziyyətdə istismar olunduğu aşkar edilmişdir.

Şəmkir su anbarının qəza sutullayıcısının suaşıran qurğusunda 2003-cü ildə beton konstruksiyaların dağılması nəticəsində sızma prosesi baş vermiş, bu sızmanın qarşısının alınması məqsədilə "Azərenerji" ASC tərəfindən aparılmış təmir-bərpa işləri heç bir nəticə verməmiş və bu problem bu gün də davam etməkdədir. Belə ki, torpaq altında yerləşən qəza sutullayıcı qurğunun dib seksiyalarının aralanması nəticəsində tikişlərdə güclü sızmaların olması müşahidə olunur ki, bu da bəndin torpağının yuyulmasına, onun özülünün zəifləməsinə və nəticədə bəndin dağılmasına səbəb ola bilər (son məlumatlara görə hazırda burada təmir işləri aparılır).

Çoxsulu illərdə Şəmkir su anbarında daşqın sularını ötürmək üçün başqa qurğu mövcud deyildir. Hazırda istismara yararsız olan sutullayıcı qurğudan fəlakət daşqını zamanı istifadə olunması həm Şəmkir su anbarının bəndi üçün, həmdə Kür çayının aşağı axarında kaskad şəklində yerləşən Yenikənd, Mingəçevir və Varvara su anbarlarının torpaq bəndləri üçün böyük təhlükə yarada bilər ki, bu da ölkə səviyyəsində böyük fəlakətə səbəb ola bilər.

Yapon mütəxəssisləri Mingəçevir su qovşağının tərkibində tikinti dövrü üçün çay axınının kənarlaşdırılması məqsədilə inşa olunmuş dib sutullayıcı qurğunun torpaq bəndin altında yerləşən dib borularının, suqəbuledicinin sipərlərinin qaldırıcı avadanlığının texniki vəziyyəti barədə heç bir dəqiq məlumatın olmadığından, bu qurğularda müvafiq tədqiqatların və müayinələrin aparılmasının zəruri olmasını bildirmişlər. Belə ki, su anbarının hər hansı bir qəza və ya terror təhlükəsi zamanı tam boşaldılması üçün dib sutullayıcı qurğusunun normal işçi vəziyyətdə olması vacibdir.

Hazırda Mingəçevir su elektrik stansiyasının derevasiya qalereyasında güclü filtrasiya suları müşahidə olunması, qurğuda deformasiya tikişlərinin açılmasını təsdiqləyir. Sızmalar ilə bərabər bəndin qruntunun yuyulması, nəticədə derevasiya qalereyasında və bənddə qəzaların yaranmasına gətirib çıxara bilər.

Yuxarı Qarabağ kanalının suqəbuledicisi və tunelin başlıq hissəsi potensial sürüşmə sahəsində yerləşir. Sürüşmə zamanı suqəbuledicinin və bünövrənin deformasiyasının, tunelin üzlüyünün dağılması ehtimalı çox böyükdür. Tunelə daxil olan suyun miqdarının tənzimlənməsi üçün suqəbuledici işçi sipər ilə təmin olunmalıdır. Sipər və onu idarə edən avadanlıq işçi vəziyyətdə olmadığına görə suyun miqdarı tunelin sonunda yerləşən, su səviyyəsinin tənzimlənməsi işlərinin aparılmasında nəzərdə tutulmamış və hazırda təmir sipəri ilə idarə olunur. Açıq kanalda qəza yaranan halda axının kəsilməsi üçün sipər bağlanır. Təmir üçün nəzərdə tutulmuş və kiçik

basqıya hesablanmış sipər birdənbirə yüksək təzyiqə məruz qalır və bu halda sipərin dağılmasının ehtimalı çox yüksək olur.

Mingəçevir su anbarının kompleksinə daxil olan və Azərbaycan İstilik Elektrik Stansiyasını texniki su ilə təmin edən bu tuneldə bir sıra problemlər mövcuddur. Qurğunun istismarı Mingəçevir su anbarına və bəndinə ciddi təsir edir, orada baş verə biləcək nasazlıq böyük fəsadlarla nəticələnəcək qəzaların yaranmasına səbəb ola bilər. Məlumdur ki, 1988, 2006-cı illərdə bu tunelin başlıq hissəsində sürüşmə baş vermişdir. Sürüşmələrin təkrar baş verəcəyi təqdirdə bu tunelin su qəbuledicisinin deformasiyaya uğraması nəticəsində su anbarında qısa bir zamanda su səviyyəsinin enməsi bəndin yuxarı yamacının dağılması ilə nəticələnə bilər.




Varvara su anbarı layihədə nəzərdə tutulmuş normadan artıq lillənmə nəticəsində öz funksiyasını, demək olar ki, itirmişdir. Torpaq bəndlərdə filtrasiyanın artması və su sızmasının normadan dəfələrlə yüksək olması bəndin dağılmasına, sutullayıcının çıxışında yuyulma nəticəsində sudöyən qurğuda beton konstruksiyaların dağılmasına səbəb ola bilər və daşqınlar zamanı fəlakətli qəza baş verə bilər.

Mingəçevir və Varvara su anbarlarında bəndin yuxarı yamacında beton üzlüklərin dağılması iri həcmli boşluqların yaranmasına səbəb olmuş və bu proses davam etməkdədir.

Yuxarıda göstərilən problemlərin həlli məqsədilə kompleks araşdırmaların, o cümlədən, bəndlərin dayanıqlığının qiymətləndirilməsi, zəruri olan tədbirlər planının hazırlanması, hidrotexniki qurğuların vəziyyətinə nəzarət etmək məqsədilə nəzarət-ölçü cihazlarının quraşdırılması, seysmoloji müşahidə şəbəkəsinin qurulması və dalğalanmadan yaranan vibrasiyasının öyrənilməsi, texniki nəzarət üzrə yerli mütəxəssislər üçün təlimlərin keçirilməsi, müasir avadanlıqlardan istifadə edərək topogeodeziya, mühəndis-geoloji, hidroloji, geofiziki, batimetriya, aerofotoşəkil tədqiqatlarının, müxtəlif növ müayinələrin aparılması zəruridir.

Ərazidə sürüşmə proseslərini izləmək üçün epizodik olaraq süni və təbii reperlərin yerdəyişməsinin müşahidəsi aparılır. Bu tədbirlər olduqca yetərsizdir. Texnologiyaların inkişafının müasir səviyyəsi tamamilə başqa yanaşma tələb edir.

Belə ki, sürüşmə rayonlarının marşrut-vizual müayinəsi ilə yanaşı lazer və lidar çəkilişləri avadanlıqları ilə komplektləşdirilmiş orbital (kos-

mik) və hava (təyyarələr, vertolyotlar, dronlar və s.) daşıyıcılarından alınan Yerin məsafədən zondlama məlumatlarından istifadə etməklə sürüşmənin mümkün inkişafını proqnozlaşdırmaq və sürüşməyə qarşı tədbirlərin işlənib hazırlanması üçün sürüşmə prosesinin dinamikasının uzunmüddətli monitorinq tədqiqatları aparılmır.

Real vaxt rejimində xüsusi vericilərlə (ekstenzometrlər, inklinometrlər, pyezometrlər, geofonlar və s.) və sürüşmə təhlükəsi haqqında müvafiq erkən xəbərdaretmə qurğuları ilə təchiz edilmiş avtomatik nəzarət sistemlərindən istifadə edilmir.

Bu qısa icmalın məqsədi müasir monitorinq metodlarının siyahısını vermək deyil. Təcrübə göstərir ki, 2000-ci ildə Abşeronda baş vermiş zəlzələdən sonra qısa müddət ərzində edildiyi kimi, müasir elmin son nailiyyətlərindən istifadə etməklə monitorinq vasitələrinin kökündən təkmilləşməsinə yanaşma prinsipinin özü vacibdir.

İkinci mühüm amil - tədqiqat aparan ayrı-ayrı təşkilatlar arasında əlaqələndirmənin olmamasıdır. Bu problem və onun həlli ilə Nazirlər Kabinetinin müvafiq bölmələrinin rəhbərliyi ilə iki dövlət strukturu - Fövqəladə Hallar Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi məşğul olur.

Bizim fikrimizcə əlaqələndirmə işləri zəif aparılır.

Məlum olduğu kimi, paralel olaraq daimi əlaqələri olmayan və aralıq nəticələri müzakirə etməyən bir neçə qrup işləyir. Xaricdən mütəxəssislər dəvət edilir ki, onlar da öz rəylərini bizim materiallarımız əsasında verirlər. Hər halda, sürüşmənin son dəfə aktivləşməsi zamanı bu belə idi. Qərb ekspertlərinə qarşı heç bir mənfi fikir yoxdur, belə məsləhətləşmələr qərarların qəbul edilməsi zamanı adi proseslərdir. Lakin, bizim regiona aid geologiyaya dair məsələlərin müzakirəsi və xüsusən də qərarlar qəbul edilməsi zamanı azərbaycanlı ekspertlərin iştirakı və fikirləri həlledici olmalıdır.

Araşdırılmalar zamanı hidrotexniki qurğuların əksəriyyətinin vəziyyətinin qənaətbəxş olmadığı, bəzi qurğuların təhlükəli vəziyyətdə istismar olunduğu aşkar edilmişdir.

Hidrotexniki qurğular həm təhlükə potensiallı, həm də strateji obyektlər siyahısına daxil olduğundan, onların təhlükəsiz istismarı son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Torpaq bəndin təhlükəsizliyinə nəzarət etmək üçün bəndin nüvəsi ilə birbaşa əlaqəli olan nəzarət ölçü cihazlarının (pyezometrlərin) yararsız vəziyyətdə olması onlar vasitəsi ilə dəqiq ölçü işlərinin aparılması mümkün deyildir.

Qeyd edilən problemlərin mövcud olması, su anbarlarının kaskad şəklində yerləşməsi, eləcə də Mingəçevir su anbarının yerləşdiyi ərazinin seysmo-tektonik xüsusiyyətləri, bu su obyektlərinin təhlükəsizliyinin təmin olunması istiqamətində müvafiq tədbirlərin görülməsi zərurəti yaranmışdır.

Məlum olduğu kimi, keçmiş SSRİ dövründə Mingəçevir su anbarının hidrotexniki qurğularında Rusiyanın müxtəlif şirkətlərinin iştirakı ilə müvafiq qurumlar tərəfindən 5 ildən bir instrumental müayinə işləri aparılırdı. Son dəfə bu müayinə işləri Mingəçevir və Şəmkir su anbarlarının hidrotexniki qurğularında yalnız "Azərenerji" ASC-nin mütəxəssisləri tərəfindən 2009-cu ildə aparılmışdır

Qeyd olunan obyektlərdə bəzi hidrotexniki qurğular 50 ildən artıq istismar olunduğundan onların təhlükəsizliyinin təyin olunması üçün kompleks və çoxfaktorlu analizlərin və xüsusi tədqiqatların aparılması tələb olunur. Bu tədqiqatların tərkibinə topo-geodezik, mühəndis-hidroqrafik, mühəndis-geoloji, hidrometeoroloji, mühəndis-geofiziki, seysmoloji və müxtəlif növ laborator analiz və sınaq işləri daxildir. Bu işlərlə yanaşı layihə çərçivəsində hər obyekt üzrə müasir avadanlıqlardan istifadə edilərək batimetriya ölçmələrinin, aerofotoşəkil tədqiqatların, digər müayinələrin aparılması, həmçinin böyük həcmdə mövcud layihə sənədlərinin toplanması və təhlili vacibdir.

Eyni zamanda Mingəçevir şəhərinin ərazisində Kür çayının məcrasında fəaliyyət göstərən qum hasil edən karxanalarda istismar norma və qaydalarına əməl edilməməsi nəticəsində yaranmış təhlükəli vəziyyət davam etməkdədir.

Belə ki, 1953-cü ildən, Mingəçevir Su Elektrik Stansiyası istismara verildikdən sonra çay axar-

ları ilə gətirmələrin qarşısı tam alındığı üçün su anbarının bənddən aşağı byefində fəaliyyət göstərən karxanalarda inert materiallar çayın bilavasitə məcrasından və yanlara genişləndirməklə onun sahil zonalarında dərin qatlardan götürülür. Nəticədə çayın məcrası ciddi neqativ təsirə məruz qalmış, məcra həddən artıq genişlənmiş, sahilin dayanıqlığı, ərazinin hidrogeoloji və çayın hidroloji rejimi tam pozulmuşdur. Kür çayının bu hissəsində karxanaların fəaliyyəti prosesində qumsovuran avadanlıqlarla (zemsnaryad) qum çıxarıldıqca boşalan yerləri su basır və göllər yaradaraq çayın məcrasının genişlənməsinə səbəb olur. Bunun nəticəsi olaraq Kür çayının bu hissəsində Mingəçevir şəhərinə bilavasitə bitişik böyük bir sahəni su basmış, torpaqlar istifadədən çıxmışdır və təxmini hesablamalara görə, bu yolla hər il 25-30 ha torpaq sahəsi su altında qalmışdır.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, çay məcrasında qum karxanalarının fəaliyyəti nəticəsində müxtəlif dərinliyə malik çökəkliklərin əmələ gəlməsi sualtı yuyulma prosesinin sürətləndirilməsinə səbəb olur.

Müəyyən edilmişdir ki, qum hasilatı ilə bağlı əmələ gəlmiş çalaların bir qismi əsasən Sovetlər birliyi vaxtından yaranmışdır və hal-hazırda bu proses fəaliyyət göstərən istehsal müəssisələri tərəfindən intensiv olaraq davam etdirilir. Əmələ gəlmiş çökəkliklər və bununla bağlı su basma sahəsi ümumilikdə təqribən 12 $km^2$ (1200 hektar) ərazini əhatə edir.

Beləliklə, Kür çayının normal dərinliyi 1,5-5 m arasında dəyişdiyi halda, istismar işləri aparılan sahələrdə dərinlik bəzi yerlərdə 35 m-ə çatır.

Geoloqların hesablamalarına görə, Mingəçevir şəhərindən aşağıda yerləşən, qum hasil edən müəssisələrin fəaliyyəti dövründə təxminən 70 mln $m^3$ qum kütləsi götürülmüş və nəticədə bu kütləyə müvafiq həcmdə çalalar yaranmışdır. Bu çalalar zaman keçdikdə yuxarıdan, yəni şəhər və bənd tərəfdən yeraltı su axınları vasitəsilə yuyulub gətirilən kütlə hesabına təbii şəkildə doldurula bilər. Lakin bu proses şəhər və bənd ətrafında özülləri təşkil edən qumsal çöküntülərinin yuyulmasına, yeraltı boşluqların yaranmasına və nəticədə şəhərin ərazisində çökmə və sürüşmə proseslərinin sürətlənməsinə və baş vermesinə səbəb ola bilər.

Qeyd etmək lazımdır ki, qum karxanalarının uzunmüddətli fəaliyyəti nəticəsində bu ərazinin hidrogeoloji şəraiti pozulmuş, yararlı torpaqların göllərlə əvəz olunması ilə yanaşı, suffoziya prosesinin yaşayış məntəqələrinə doğru hərəkət etməsi və beləliklə, Mingəçevir şəhəri ərazisinin mühəndis-geoloji şəraitinin pozulması müşahidə olunur. Güclü torpaqsoran maşın və mexanizmlərdən istifadə edilməklə geniş miqyasda qum hasilatı işlərinin davam etdirilməsi bu təhlükəni günü-gündən daha da artırır. Əgər Mingəçevir şəhəri ətrafında qum hasilatı işləri indiki sürətlə davam edərsə, yaxın gələcəkdə karxanalara yaxın sahələrdə yerləşən yaşayış və digər obyektlərin, Kür çayı üzərindən keçən avtomobil və dəmiryol körpülərinin dayanıqlığına və texniki təhlükəsizliyinə təminat azala bilər. Eyni zamanda, yaxın ərazilərdən böyük həcmdə qum kütləsinin götürülməsi nəticəsində Kür çayı öz məcrasını yaşayış məntəqələri istiqamətində də dəyişə bilər.

Bundan əlavə, çayın sağ və sol sahillərində ildən-ilə genişlənən bataqlıqlar burada yoluxucu xəstəliklərin yayılması ehtimalını artırır, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin məlumatlarında sahədən götürülən qum nümunələrində bağırsaq çöpləri, protogen vulqares bakteriyaları, salmonella N qrupu, CL perfinques və şərti patogen sitrobakteriyaları tapılmışdır.

Bütün bu proseslər ərazidə çökmə və sürüşmə proseslərinin intensivləşməsinə gətirib çıxarmış, bəzi evlərin şaquli dayanıqlığına təsir etmiş, evlərin divarlarında çatların yaranmasına səbəb olmuşdur. Vəziyyətin ciddiliyini nəzərə alaraq, ilk növbədə, qum karxanalarının fəaliyyətini dayandırmaq, su basmış ərazilərdə rekultivasiya işlərini həyata keçirmək, eyni zamanda, yaşayış binalarının və infrastruktur obyektlərinin dayanıqlığını təmin etmək məqsədilə geoloji - tektonik, geodinamik, hidrogeoloji, mühəndis - seysmoloji, litoloji, hidrodinamik araşdırmaları özündə cəmləşdirən kompleks tətqiqatların aparılması vacibdir.



**İradə HÜSEYNOVA**
*AMEA-nın vitse-prezidenti, akademik*

# AMEA pandemiya ilə mübarizədə

**Elmin və ailmlərin cəmiyyətin gündəlik həyatında və gələcək inkişafında rolu danılmazdır. Yer üzərində təbii və antropogen xarakterli olmasından asılı olmayaraq hər hansı bir problem yarandıqda ona ilk reaksiyanın göstərilməsi və xilas yollarının axtarışı elm adamlarından gəlir. Bu baxımdan, geniş ictimaiyyətin elmi məsələlərin müzakirəsində iştirakı vacibdir. Hər il noyabr ayının 10-da qeyd olunan Sülh və İnkişaf Naminə Dünya Elm Gününün də əsas qayəsi məhz bu məsələlərdir.**

2020-ci ildə Dünya Elm Günü "Elm pandemiya ilə mübarizədə cəmiyyətin xidmətində" devizi altında qeyd olundu. Bu da səbəbsiz deyildir. Dünyanı gərgin vəziyyətdə saxlayan COVİD-19 pandemiyasının doğurduğu qlobal böhran davam etməkdə və hətta daha təhlükəli xarakter almaqdadır.

Ölkəmiz ilk gündən xəstəliklə və onun doğurduğu sosial-iqtisadi problemlərlə mübarizədə fərqlənən ölkələr sırasında yer almışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müdriklik və uzaqgörənliklə həyata keçirilmiş çoxşaxəli qabaqlayıcı tədbirlər, insanların sağlamlığı və sosial təminatının ön plana çəkilməsi ölkəmizi pandemiyanın ilk zərbələrindən xilas edə bilmişdir. Görülən işlər ÜST tərəfindən də yüksək qiymətləndirilmiş və Azərbaycan nümunəvi ölkə adlandırılmışdır.

Pandemiyaya qarşı Azərbaycan Milli Elmlər Akademiyasında icra edilmiş fəaliyyətlər, AMEA-nın prezidenti akademik Ramiz Mehdiyevin müvafiq sərəncamları, AMEA Rəyasət Heyətinin qərarları Akademiya əməkdaşlarının sağlamlığının qorunmasında real təsirə malik olmuşdur. Ötən dövr ərzində kütləvi informasiya vasitələrində, televiziya kanallarında, informasiya agentliklərinin bülletenlərində, internet portallarında, sosial şəbəkələrdə çoxsaylı məqalələr dərc edilmiş, müsahibələr verilmiş, müraciətlər edilmiş, geniş və əhatəli təbliğat işi aparılmışdır.

COVİD-19 pandemiyası ilə əlaqədar aparılan elmi-tədqiqat işlərinin real vəziyyətini qiymətləndirmək, strateji aspektlərini və müvafiq fəaliyyətlərlə bağlı gələcək yol xəritəsini müəyyən etmək, əldə edilmiş ilkin nəzəri və kliniki nəticələri elmi ictimaiyyətin, pandemiya ilə praktiki mübarizə aparan həkim və mütəxəssislərin nəzərinə çatdırmaq məqsədilə 4-6 avqust 2020-ci il tarixlərində Azərbaycan Milli Elmlər Akademiyasında "Koronavirus pandemiyası: elmi tədqiqatlardan sağlam gələcəyin təminatına doğru" mövzusunda beynəlxalq onlayn elmi konfrans keçirilmişdir. Bu mötəbər tədbirdə ABŞ, Birləşmiş Krallıq, Fransa, Koreya, Türkiyə və İran alimləri ilə birgə apa-

rılan elmi müzakirələrdə viral müxtəliflik, COVİD-19 xəstəliyinin diaqnostika və müalicə üsulları, ona qarşı immunitetin yaranması üçün peyvəndlərin, antiviral dərmanların, bitki təbiətli birləşmələrin tətbiqi imkanları, epidemik alovlanmaların proqnozlaşdırılması məsələləri və müvafiq bioetik problemlər müzakirə edilmişdir.

Müasir şəraitdə müxtəlif xarakterli təhlükələrə, risklərə, təhdidlərə qarşı mübarizədə ciddi elmi araşdırmaların aparılması, dünya dövlətləri və alimlərinin bu sahədə səylərinin birləşdirilməsi vacibdir. O cümlədən, COVİD-19 pandemiyası və onun doğurduğu reallıqlarla bağlı intensiv fundamental və tətbiqi elmi tədqiqatların aparılması zəruridir. Pandemiya göstərdi ki, gələcək analoji təhlükələrdən sığortalanmaq üçün bütün dünyada biologiya və tibb elmlərinə diqqət artırılmalıdır. Xüsusilə, patalogiyaların, o cümlədən yoluxucu xəstəliklərin molekulyar-genetik və populyasiya səviyyəsində öyrənilməsi, biotexnologiya, mikrobiologiya, immunologiya, virusologiya, bioinformatika və neyrobiologiya sahəsində tədqiqatların daha da genişləndirilməsi vacibdir. COVİD-19 kimi təhlükəli xəstəliklərin və onların doğurduğu qlobal və lokal problemlərin araşdırılmasında ən müasir elmi-texnoloji yanaşmaların - yüksək texnologiyaların, maşınöyrənmə və süni intellekt metodlarının, riyazi modellərin tətbiqi olduqca zəruridir.

Hesab edirik ki, virusa qarşı mübarizədə AMEA, Səhiyyə Nazirliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, TƏBİB və digər təşkilatların qüvvələri birləşdirilməklə Azərbaycanda da birgə multidissiplinar tədqiqatların aparılmasına böyük ehtiyac vardır. Son ayların təcrübəsi göstərir ki, Azərbaycan alimləri də COVİD-19-la bağlı biologiya, tibb və s. elmlər sahəsində öz sözlərini deyə bilir və gələcəkdə virus və digər patogenlərin insan sağlamlığına təsirini yüksək səviyyədə araşdırmaq və onlarla mübarizə aparmaq üçün Azərbaycanda kifayət qədər güclü elmi potensial mövcuddur.

Bu potensialdan istifadə etməklə AMEA Biologiya və Tibb Elmləri Bölməsinin institutlarında COVİD-19 və əlaqədar sahələr üzrə müəyyən tədqiqat fəaliyyətləri aparılmışdır.

AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Bioinformatika laboratoriyasının müdiri, AMEA-nın müxbir üzvü İlham Şahmuradov və digər müəlliflər tərəfindən insanın SARS-CoV-2 və SARS-CoV, kələzin (panqolin) CoV və yarasanın 9 CoV ştamının S, E, M və N quruluş zülallarının amin turşusu ardıcıllıqları müqayisə olunmuş və müəyyən edilmişdir ki, insan və kələz koronaviruslarının zülalları çox yüksək dərəcədə oxşarlıq göstərir. Digər tərəfdən, yarasa koronaviruslarının yalnız 4 ştamı ilə insan və kələz koronavirusları arasında həmin zülalların hər biri üzrə eyni dərəcədə yüksək oxşarlıq mövcuddur. Bu fakt, ən azı, yarasalarda koronavirusların müxtəlif alt siniflərinin mövcudluğuna dəlalət edir. S zülalı baxımından kələz CoV-u insanın SARs-CoV-2 virusuna əhəmiyyətli dərəcədə yaxındır. Bunun əksinə olaraq, demək olar ki, S zülalındakı bütün məlum N-qlikosilləşmə saytları, S-S-bağları və transmembran domeni tədqiq olunmuş 4 koronavirusun hamısında saxlanılmışdır.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Proteomiks beynəlxalq laboratoriyasının müdiri, Cənubi Koreya Pusan Universitetinin tədqiqatçı-professoru İsmayıl Zülfüqarovun tədqiqatlarına əsasən, SARS-CoV-2 S zülalı infeksiyanın qarşısını almaq üçün ən yaxşı namizəd kimi təklif edilmişdir. S zülalının ACE2 ilə renin-angiotensin sistemi (RAS) inhibitorları zülalın ACEI və AT1R ilə



bağlanmasının qarşısını almaq və COVID-19-a qarşı potensial terapevtik vasitə kimi istifadə etmək üçün təklif olunmuşdur. S zülalını hədəfə alan monoklonal antikorlar ilk növbədə virusun hüceyrəyə daxil olmasına və ya ona birləşməsinə mane olacaq və bu da öz növbəsində COVİD-19 infeksiyasının qısa müddətdə aradan qaldırılmasına gətirib çıxaracaq.

AMEA Genetik Ehtiyatlar İnstitutunun əməkdaşları tərəfindən 77 ölkəni əhatə edən 18000-dən artıq SARS-CoV-2 virus genomunun müqayisəli analizi üzrə bioinformatik proqram hazırlanmış, böyük genom verilənlərinin çoxistiqamətli analizi nəticəsində əldə edilən nəticələrin asan istifadəsini təmin etmək məqsədilə yeni vebsəhifə (https://ncov.bioset.org) yaradılmışdır.

AMEA-nın Zoologiya İnstitutunda koronaviruslarla bağlı tədqiqatlarda bəzi vəhşi heyvanların, zoonoz xəstəliklərin daşıyıcılarının, o cümlədən yarasaların öyrənilməsi üzrə tədqiqatlar aparılır. İnstitutun əməkdaşları tərəfindən Qızılağac Milli Parkında 4 növə aid 110, Qax rayonu ərazisində 91 fərd yarasadan ekskrement, qan, tüpürcək və biopsiya nümunələri, 7 növə aid 45 fərd üzrə 70 yaxma, 5 növə aid 25 fərd yarasadan ektoparazitlər götürülmüşdür və hazırda tədqiq edilir.

AMEA-nın Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda bakterioloji infeksiyalara qarşı mübarizədə orqanizmin daxili resurslarına əsaslanan yeni müalicə üsulu təklif edilmişdir. İnfeksiyaların təklif olunan müalicə üsulu orqanizmin hüceyrələrində İŞZ70-in (molekulyar kütləsi 70 kDa olan istilik şoku zülalları) miqdarının süni yollarla artırılması ilə bağlıdır. Eyni zamanda, institutda bir neçə heyvan növü üzərində və müxtəlif modellərin tətbiqi ilə göstərilmişdir ki, serotonin-modullu antikonsolidasiya zülalının heyvan orqanizminə daxil edilməsindən 3 saat sonra onun toxumalarında (qaraciyər, gözün torlu qişası) sintez nəticəsində İŞZ70-in miqdarının kəskin artması müşahidə edilir.

Koronavirusa qarşı vaksin və dərmanların hazırlanması, müvafiq təbliğat işlərinin aparılması üzrə fəaliyyətlərdə dünyanın aparıcı mərkəzlərində fəaliyyət göstərən azərbaycanlı alimlər (AMEA-nın müxbir üzvü Tərlan Məmmədov (Türkiyə), professor Vidadi Yusibov (ABŞ) və b.) iştirak etmişlər.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Molekulyar biomühəndislik beynəlxalq laboratoriyasının müdiri, Türkiyənin Biotexnologiya İnstitutunun Peyvənd Elmi Komitəsinin üzvü, Akdeniz Universitetinin

professoru, AMEA-nın müxbir üzvü Tərlan Məmmədovun vaksin hazırlanması istiqamətində Akdeniz Universitetində apardığı tədqiqatlar xüsusilə qeyd edilə bilər. Onun rəhbərliyi ilə COVID-19-a qarşı hazırlanan vaksinlərin Türkiyə Respublikasında sınaqları aparılmaqdadır. Patent üçün təqdim edilmiş ixtirada yüksək patogen SARS-CoV (SARS-CoV-2) virusun insan hüceyrələrinə daxil olmasının qarşısının alınması, SARS-CoV (SARS-CoV-2) virusu ilə yoluxmuş xəstələrin müalicəsində istifadə olunan birləşmələr və onların alınma üsulları ətraflı şərh olunur. Eyni zamanda, tədqiqatın nəticələrini əks etdirən məqalə Pathogen jurnalında dərc olunmaq üçün qəbul olunmuşdur. Məqalədə ilk dəfə olaraq bütün dünyada yayılan yeni koronavirusların struktur zülalları analiz olunmus və vaksin hazırlanması üçün mühüm nəticələr şərh olunmuşdur. Tədqiqatlar nəticəsində əldə edilmiş vaksinlərin sınaqlarına başlanılmışdır.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Molekulyar biotexnologiya beynəlxalq laboratoriyasının müdiri, ABŞ İndiana Universitetinin proqram rəhbəri, professor Vidadi Yusibovun rəhbərlik etdiyi qrup COVİD-19-a qarşı effektivlik göstərən terapevtik zülalların yaradılması sahəsində uğurlu tədqiqatlar aparmışlar.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, AR Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi tərəfindən İslam İnkişaf Bankı ilə Beynəlxalq Elmlər Akademiyasının birgə elan etdiyi "Tədqiqat və Texnologiyaların Transferi Qrantı 2020: COVİD-19 üzrə sürətli tədqiqatlar" adlı qrant müsabiqəsinə "Azərbaycan və Əfqanıstandan olan müxtəlif xəstələrdə SARS-CoV-2-nin genom variasiyalarının yoxlanılması" mövzusunda birgə layihə təqdim olunmuşdur.

AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, AMEA-nın Genetik Ehtiyatlar İnstitutu, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, AR Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi tərəfindən "Azərbaycan Respublikasında yayılmış SARS-CoV-2 virusunun genomunun oxunması, beynəlxalq genom bazalarına yerləşdirilməsi və müqayisəli təhlili, təhlükəli patogenlər üzrə genom məlumat bazasının yaradılması" üzrə birgə layihə hazırlanaraq AR Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2020-ci il üzrə elan etdiyi Gənc Alim və Tədqiqatçıların 5-ci qrant müsabiqəsinə "Azərbaycanda COVİD-19-a yoluxmuş xəstələrdə angiotenzin çevirən fermentin (ACE) geninin polimorfizminin və onun arterial hipertenziya ilə assosiasiyasının tədqiqi" adlı layihə verilmişdir.

Onu da qeyd edim ki, AMEA-nın "Həyat elmləri və biotibb jurnalı"nın COVİD-19-a həsr edilmiş xüsusi nömrəsi hazırlanmışdır.

Məlumdur ki, bu il Azərbaycan iki cəbhədə mübarizə aparmışdır. Qarabağ cəbhəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə möhtəşəm qələbə qazanılmış, cahanşümul Azərbaycan Ordusu torpaqlarımızı düşmən tapdağından azad etmişdir.

İnanıram ki, cənab Prezidentin ardıcıl və məqsədyönlü liderliyi və elmi əsaslı tədbirləri sayəsində alimlərin də iştirakı ilə pandemiya üzərində layiqli qələbə əldə ediləcək, xalqımız bu bəladan da xilas olacaqdır.

Biz Azərbaycan alimləri də bu istiqamətdə çalışmağa, tədqiqatlarının qabaqcıl elm mərkəzlərinin təcrübəsinə uyğun aparılmasında səylərimizi daha da gücləndirməyə, dövlətin iqtisadi, sosial, mənəvi, ərzaq və bioloji təhlükəsizlik sistemlərinə real töhfələr vermək üçün var qüvvəmizlə çalışmağa hazırıq.



**İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

# Dünənin və bu günün qardaşlıq cəbhəsi

**Eyni kökdən qaynaqlanan tarixi, milli-mənəvi dəyərləri oxşar olan Türkiyə və Azərbaycan arasında olan qardaşlıq tarixi sınaqlardan keçə-keçə inkişaf etmiş, möhkəmlənmiş, "bir millət, iki dövlət" səviyyəsinə çatmışdır. Tarixin bütün mərhələlərində bu iki dövlət və xalq bir-birinə arxa və dayaq olmuş, çətin günlərdə də, xoş, sevincli günlərdə də bir-birinin yanında olmuşdur.**

Türkiyə və Azərbaycan arasında möhkəmlənən qardaşlığı başqalarına nümunə göstərən ulu öndər Heydər Əliyev "Cahanda sülh, yurdda sülh, bölgədə sülh" söyləyən, Azərbaycana bağlılığını "Azəri türklərinin dərdləri bizim dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün onların muradlarına nail olmaları hürr və müstəqil yaşamaları bizi həddindən artıq sevindirir" sözləri ilə bildirən Mustafa Kamal Atatürkün türk dünyasının birliyi naminə göstərdiyi xidmətləri yüksək dəyərləndirmişdir. Bu qardaşlığı daha da möhkəmləndirən ulu öndər Heydər Əliyevin bu dostluğun möhkəmləndirilməsi üçün göstərdiyi xidmətlər indi daha geniş miqyasda davam etdirilir.

Hələ XX yüzilliyin 20-ci illərində bir-birinə kömək edən, bir-birinin inkişafına dəstək verən bu iki qardaş ölkə çətin vəziyyətlərlə qarşılaşsa da, özlərində möhkəm iradə tapmış, imperializmə və işğala qarşı mərdliklə mübarizə aparmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun baş şəhəri olan Bakı bolşevik-erməni işğalı altında idi. Azərbaycandan ərazi cəhətdən ayrı düşən Naxçıvan diyarına erməni millətçiləri sahib olmaq üçün hərbi təcavüzə başlamışdılar. Ermənilərə sovet Rusiyası və imperialist dövlətləri hər cəhətdən kömək edir, onları silahlandırır, Bakını Rusiyanın, Naxçıvanı isə Ermənistanın tərkibinə qatmaq istəyirdilər. Belə bir vəziyyətdə, Türkiyənin özünün də çətin durumda olmasına baxmayaraq Nuru paşanın və Kazım Qarabəkir paşanın başçılığı ilə türk qoşunlarını köməyə göndərdi.

Bolşevik-daşnak tör-töküntülərinin törətdikləri qırğınların qarşısının alınmasında azərbaycanlı qardaşlarına köməyə gələn, xalqımızın qatı düşməni, daşnak Şaumyanın başçılıq etdiyi erməni-bolşevik ordusuna zərbələr endirən Nuru paşanın komandanı olduğu Qafqaz İslam Ordusunun qəhrəmanlığı türk birliyinin, qardaşlığının nümunəsi oldu.

Naxçıvan diyarı əhalisinə kömək edən Kazım Qarabəkir paşanın başçılığı ilə köməyə gələn türk ordusu Andranikin dəstələrinə qarşı, bütövlükdə bu diyara hərbi təcavüz edən erməni qoşunlarına layiqli cavab verərək Naxçıvanın işğalına imkan vermədi. Bir qədər sonra isə - 1921-ci ildə Moskva və Qars beynəlxalq müqavilələri ilə Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət verilməsinə nail olundu. Qəhrəman türk ordusu həm Bakının və onun ətrafının, həm də Naxçıvan diyarının azad edilməsində 1132 nəfər şəhid vermişdir. Türk qardaşlarımızın fəaliyyətini yüksək qiymətləndirməklə, şəhid olanlara dərin ehtiram bəslənilir. Bakıda və Naxçıvanda türk şəhidlərinin xatirəsi yüksək tutulur və onların şərəfinə abidələr ucaldılmışdır.



Həmin illərdə imperialist qüvvələr Osmanlı dövlətinin parçalanması, ərazinin böyük bir hissəsinin işğal edilməsi üçün hücuma keçmişdilər. Daxildəki düşmənlərin ölkəni parçalamaq cəhdləri, 1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr müqaviləsi Türkiyənin dövlətçiliyini və gələcəyini təhlükə altında qoymuşdu. Mustafa Kamal paşanın rəhbərliyi ilə Qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Bu qələbənin qazanılmasına Azərbaycan dövləti və xalqı da türk qardaşlarımıza həm kömək göstərmiş, həm də qəhrəmanlıq nümunəsi nümayiş etdirmişlər.

Türkiyənin İstiqlal savaşında Azərbaycandan olan oğullarımız da qəhrəmanlıqla döyüşmüşlər. Azərbaycanın müxtəlif şəhərlərindən 3000 nəfərədək olan oğullarımız bu müharibələrdə, o cümlədən Çanaqqala savaşlarında vuruşublar, bunlardan 303 nəfəri şəhid olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dönəmində imkan daxilində Türkiyənin İstiqlal savaşına yardımlar edilirdi. Cümhuriyyətin baş naziri Nəsib bəy Yusifbəyli 1,5 milyon frank miqdarında pul yardımı göstərən sənədləri imzalamaqla Birinci Respublikanın mövqeyini ortaya qoyur.

Cümhuriyyət dönəmindən sonra da Azərbaycan hökumətinin rəhbəri Nəriman Nərimanovun timsalında qardaşlıq əlaqələri və köməyi davam etdirildi. 23 mart 1921-ci ildə onun Atatürkə yazdığı bir məktubda çox məqamlara aydınlıq gətirilir: "Paşam, türk millətinin bir gələnəyi vardır, qardaş qardaşa borc verməz. Qardaş hər durumda qardaşın əlindən tutar. Biz qardaş xalqlarız. Hər zaman və hər şərtlə, bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi mütləq bir ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışacağıq. İmkanımız çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz, bir qardaşın öz qardaşı üçün etmək istədiyindən başqa bir şey deyildir".

Türkiyə ilə Rusiya arasında münasibətlərin yaradılmasında da Nəriman Nərimanovun böyük xidmətləri olmuşdur. Türkiyənin düşdüyü vəziyyətlə əlaqədar Mustafa Kamal Atatürk borc üçün Nəriman Nərimanova müraciət etdikdə Xalq Komissarları Sovetinin Sədri Türkiyəyə ardıcıl olaraq yardım göstərmişdir. Azərbaycan dövləti 500 kiloluq qızıl, ardıcıl olaraq sisternlərlə neft, benzin, digər neft məhsulları göndərirdi. 1921-ci il avqustun 30-da N.Nərimanovun sərəncamı ilə Türkiyəyə "hədiyyə üçün qızıldan olan qadın sumkası, 4 ədəd qızıl kişi saatı, qızıldan Quran qabı, qızıldan papiros qutusu, qızıl zəncir göndərilmişdir". Bunların ümumi dəyəri bir milyon qızıl puldan ibarət idi.

Bundan başqa, Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi altında fəaliyyət göstərən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Anadoluya çox önəmli yardımlar etməsi məlumdur. Cəmiyyət eyni zamanda Anadoluda özəlliklə erməni zülmləri nəticəsində yetim qalan uşaqları, qadınları, yaşlıla-

rı qorumaq üçün də fəaliyyət göstərirdi və bu məqsədlə "Qardaş köməyi" adlı bir yardım səfərbərliyi gerçəkləşdirilmişdi.

Dünəndə olduğu kimi, bu günün qardaşlığı enerji layihələrində, Naxçıvan Muxtar Respublikasının blokadasının aradan qaldırılmasında, Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılmasında özünü göstərmişdir. Azərbaycanla Türkiyə arasında həyata keçirilən enerji layihələri ölkəmizin beynəlxalq nüfuzunun artmasına və dünyada söz sahibi olmasına şərait yaratmışdır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığı, qardaşlığı daha da möhkəmləndirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu isə hər iki ölkənin siyasi-iqtisadi və strateji əməkdaşlığının daha bir nümunəsinə çevrilmişdir. Türkiyə ilə Azərbaycan arasında 2011-ci ildə Strateji Əməkdaşlıq Şurasının yaradılması və bununla əlaqədar 14 sənədin imzalanması iki ölkə arasında olan münasibətlərin uğurlu inkişafının daha bir göstəricisidir.

Azərbaycan-Türkiyə qardaşlığının inkişafı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapır. Bu münasibətlər XX yüzilliyin 90-cı illərində Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə daha da inkişaf etdirilmişdir. Ulu öndərimizin 1992-ci il martın 22-24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmış, 1992-ci il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İqdır-Naxçıvan yüksək gərginlikli elektrik xətti çəkilmişdir.

Artıq dünya birliyində və beynəlxalq təşkilatlarda bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdir ki, onları iqtisadi və siyasi maraqlardan daha çox söy-kök, milli və ortaq dəyərlər birləşdirir. Ona görə də iqtisadi və siyasi maraqlarımız daha möhkəm və uzunömürlüdür, eyni zamanda, xalqlarımızın mənafeyinə xidmət edir.

Dünəndə olduğu kimi, bu günün qardaşlıq cəbhəsi qarşılıqlı münasibətlər əsasında daha da inkişaf edir və möhkəmlənir. Bu günlərdə baş vermiş Vətən müharibəsində Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına qardaşlıq münasibəti, siyasi və mənəvi dəstəyi, "Müharibəyə üçüncü dövlətlərin qoşulması olarsa, qarşıda bizi görəcəklər!", - deməsi Azərbaycanın inamla qələbə qazanmasına, üçüncü dövlətlərin öz işini aparmasına səbəb olmuşdur. Türkiyə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli işində həmişə Azərbaycanın yanında olmuşdur.

İkinci Qarabağ müharibəsində Türkiyə bütün dünyaya sübut etdi ki, Azərbaycan tək deyil və onun arxasında böyük güc dayanıb. Müharibənin 44 günündə hər gün ölkəmizə xaricdən böyük təzyiqlər olub. Bu təzyiqlərin dəf edilməsi və qələbəyə inamla addımlamağımızı təmin edən ölkə başçımızın güclü siyasi iradəsi və Türkiyə Prezidenti cənab Ərdoğanın hər zaman Azərbaycanın yanında olaraq dünyaya səsləndirdiyi mesajı olub: "Türkiyə qədim dostluq bağları və qardaşlıq əlaqələri olan Azərbaycanın haqqına, hüququna, torpaqlarına yönəlmiş hər cür hücumun qarşısında dayanmaqda əsla tərəddüd etməyəcək. Dünyadakı bütün siyasi, diplomatik, sosial əlaqələrimizi bu istiqamətdə səfərbər etmək boynumuzun borcudur". Müharibə günlərində Türkiyə Cümhuriyyəti rəsmilərinin ardıcıl olaraq Azərbaycana səfərləri beynəlxalq aləmə bir mesaj idi ki, Azərbaycan tək deyildir, onun Türkiyə kimi qardaşı vardır. Çünki, Türkiyə Azərbaycanın haqq işinə dəstək verməklə, bölgədə sabitləşdirici rol oynayır, haqqın-ədalətin bərpasına çalışır.

Azərbaycan dövləti və xalqı da həmişə Türkiyənin yanında olduğunu bəyan edir. Son aylarda Aralıq dənizində Türkiyə Cümhuriyyəti ilə bəzi Avropa dövlətləri arasında yaranan siyasi böhran dövründə Azərbaycan dövlət başçısının Yunanıstanın Azərbaycana yeni təyin olunan səfiri ilə söhbətlərində söylədiyi fikirlər, problemə münasibəti dediyimizə canlı nümunədir.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sülhün və ədalətin tərəfində olub hər iki tərəfə əlavə güc və mövqe qazandırmaqla, regiona sülh, sabitlik gətirir.



**Eldar ƏMİROV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*



**Ələddin MƏLİKOV**
*Fəlsəfə elmləri doktoru, dosent*

# Rəhbər və başçı: fərq nədir?

*(Tarixi-politoloji nəzər)*

**Xülasə**

**Məqalədə dünyada qlobal məsələ hesab edilən iki əsas nəzəriyyə və bu nəzəriyyələrə xas olan yanaşma metodları verilmiş, cəmiyyətdə inkişafa aparan rəqabətin olması üçün Respublikaçılıq və onun əhəmiyyəti vurğulanmışdır. İnkişaf etmiş ölkələrin artıq bu prosesə uzun illər öncə keçməsi, istənilən ölkədə daxili və xarici bazarlara sərbəstliyin təmin edilməsi qloballaşan dünyada artıq bir zərurət halına gəlmişdir.**

**Məqalədə xüsusi mülkiyyətə diqqət və onun dovlət daxili iqtisadi inkişafa verəcəyi töhfələr və təşkilatların dəyişikliklərə məruz qalması nəzərdən keçirilir. Ölkədə səmərəliliyin inkişafı üçün Respublikaçılığın və həmçinin rəqabət mexanizmlərinin hazırlanması və icra prosesində bütün müasir tələblərə cavab verməsinin təmin edilməsi müxtəlif faktlarla verilmişdir. Nəticə etibarilə yazıda göstərilmişdir ki, azad yaradıcılıq qabiliyyəti və azad sahibkarlıq fəaliyyəti dövlətin səmərəli idarəçilik sistemi nəticəsində effektiv şəkildə formalaşa bilər. Nəticədə həm şəxsiyyətin azad yaradıcılıq qabiliyyəti formalaşır, həm də insanlar arasında qarşılıqlı mənfəət axtarışı real stimula çevrilir. Bütün bunların fonunda ölkədə baş verən dirçəliş həm bütün vətəndaşların, həm də Respublikaçılığın maraqları ilə üst-üstə düşür və bir-birini tamamlayır.**

**Açar sözlər: Cəmiyyət, demokratiya, diktatura, hakimiyyət, Vətən, xalq, azad cəmiyyət, sosial dövlət**

**Giriş**

Ümumilikdə həmişə hərbçilər nizam-intizam və qayda-qanuna riayətə daha çox arxalanır, fikir azadlığı və demokratiyanı bir növ hərc-mərclik və nəticə etibarilə anarxiya hesab edirlər. Bu səbəbdən çox vaxt Sovet İttifaqını tərifləyir və çoxlu nümunələrlə qarşı tərəfi razı salmağa çalışırlar. Onlar Sovet İttifaqının qısa zaman ərzində necə inkişaf etdiyini nümunə kimi göstərir, bunun əsas səbəbini də hərc-mərcliyin olmaması və vahid fikrin olması kimi qələmə verirlər. Onlar ən azı bu səbəbdən vahid lider və vahid fikrə riayət etməyin toplumun inkişafı ilə nəticələnəcəyini bildirirlər. Onlara görə, Demokratiya və Respublika insanların yerində sayması üçün düşünülmüş bir uzunmüddətli plandır.

Lakin bu fikirlə razılaşmayanlar da az deyil. Cəmiyyətdə tənqid mədəniyyətinin inkişafı, Respublikaçılıq ənənəsinin formalaşması və demokratik üslubun hakim olmasını da dilə gətirənlər kifayət qədər çoxdur. Onlara görə də vətəndaşlar fikirlərini azad şəkildə ifadə etməli, bir-birləri ilə müzakirə və debat etməlidirlər. Gələnən ümumi və ortaq rəy icra olunmalıdır. Bu, heç də özbaşınalığa yol açmayacaq. Vahid fikir və icra, zamanla insanları bezdirəcək. Vahid fikirlə çıxış edən eyni simaları

nə qədər görmək olar? Nəhcül-Bəlağənin hikmətli aforizmlər bölməsində imam Əlidən dərinmənalı bir ifadə mövcuddur. Orada qeyd olunur ki: *"Cəmiyyətlə elə davranın ki, sağlığınızda şövq ilə sizə tərəf gəlsinlər, öldükdən sonra isə sizin üçün ağlasınlar".*[1] Ən azı bu səbəbdən insanlara fikir azadlığı vermək və onu izhar etmək üçün şərait yaradılmalıdır. Ən əsası, onlar əmək fəaliyyətinə cəlb olunmalıdırlar.

Riçard Nikson "Leaderlər" kitabında dünyaca məşhur U.Şekspirdən maraqlı bir stat gətirir:

*"Bəzi insanlar alicənab yaradılmışlar. Bəziləri alicənablığı ələ keçirir, bəzilərinə isə alicənablıq istəmədən gəlir".*[2]

Ümumiyyətlə, politologiya sahəsi iki bölümdə, liderlik və siyasi praktikada xülasə olur. Lakin inkar etmək olmaz ki, həm idarəçiliyə və həm siyasi bacarığa sahib olan liderlər də var. Bunlar hər bir liderin göstəriciləridir. Əgər lider böyük yaradılıbsa, onun idarəçiliyi müxtəlif məsələlərdə həlledici rol oynayacaq. Rəhbərlə başçının əsas fərqi də məhz bundadır:

*"Rəhbər və başçı arasında olan fərq budur ki, başçı işləri düzgün şəkildə yerinə yetirir. Amma rəhbər düzgün işləri həyata keçirir".*[3]

Bu məsələ o qədər əhəmiyyətlidir ki, millətlərin taleyini müəyyən edir. Şarl de Qoll, M.Qandi və N.Mandela böyük işlər görmək üçün qüdrət əldə etdilər. Bu liderlər xüsusi bir zaman kəsimində zühur etdilər. Öz ölkələrinin cəhətlərini dəyişərək, ölkənin mənafeyinə və xalqın məsləhətlərinə uyğun hərəkət etdilər. Bəziləri isə məqam və mövqe əldə etmək üçün qüdrət ovuna çıxır.

Tarixdə dahiyanə iz qoyan, özləri üçün məqsəd hazırlayaraq, onu icra etmək üçün güc və qüdrət axtaranların sayı da az deyil. Əlbəttə tarixdə hər növ lider olmuşdur. Necə ki, Şekspir deyir:

*"Bəziləri çalışırlar alicənablığı ələ gətirsinlər, eyni halda bəziləri təsadüflərin nəticəsində alicənablığı özlərinə aid edirlər".*[4]

Şekspirin birinci qrupa aid etdiyi böyük yaradılmış insanlar tarixi dəyişdirmək gücünə malikdirlər. Tarixdə onların səhvləri belə, inkişaf doğuran məsələlərlə nəticələnən şəxsiyyətlərdir. Lider olmaq ümumi bir yığıncaqda toplanmaq kimi bir şey deyil. O yığıncağı təşkil etmək və oraya yığılanları bir təsbehin dənələri kimi saxlamaq və onlara istiqamət verməkdir. Böhranlar, perspektivlər və mühüm hadisələr qurucu, seçilən və yüksək siyasətçiləri ümumi adət-ənənə ilə yaşayan kütlədən ayırır. Onların qərarını, davranışını, rəftarını və sözlərini ictimaiyyətə çatdırır. Heç bir mühüm işi həyata keçirmək və inkişaf etdirmək keyfiyyətli və alicənab insanlar olmadan mümkün deyil. Alicənab insanlar iradə sərgiləyib, iş görürlər. Orta insanlar isə öz arzularına çatmaqda giriftardırlar. Tarixin ən böyük siyasətçilərinin ən böyük arzuları öz ölkələrinin güc və imkanlarını artırmaq olmuşdur. Bir ölkənin gücünün, qüdrətinin və mövqeyinin yüksəlməsi bir liderin edə biləcəyi ən böyük işdir. Çünki bu, həm politologiyadan, həm də siyasi zəkadan qaynaqlanır. Onun eniş-yoxuşu və miqyasının həcmi cərrahlıq, mühəndislik və hətta ixtira və yeni kəşflərlə belə müqayisə edilə bilməz.

Denq Şau Ping özünün dahiyanə aforizmlərinin birində bildirir:

*"Çin daha qüdrətli olmaq üçün beynəlxalq aləm ilə əlli il müddətində sülh etməyə məcburdur".*[5]

Bu bir cümlə Çinin müxtəlif təbəqələrini (siyasətçilərini, ziyalılarını, mütəxəssislərini və s.) bir neçə onillik müddətində öz başına yığdı. Siyasət müstəvisində ən faydasız və ən pessimist şəxslər o kəslərdir ki, onların əməllərinin məcmusunu nəzərdən keçirdikdə, özlərinin mövqe və məqamını qorumaq nəzərə çarpır. Tarixdə Səddamlar, Kastrolar kimi şəxslər vəzifəni yalnız özləri üçün istəmişlər. Onlar həqiqətdə fikir və əməllərini həvəsləri səviyyəsində işlətmişlər.

Əlbəttə, bir çoxları belə hesab edir ki, müdrik hökmdar, şərait imkan verdikdə, özünə süni düşmənlər qazanmalı, sonra onlara qalib gələrək daha əzəmətli görünməlidir. Lakin unutmaq olmaz ki, hökmdarların çoxu, xüsusən, taxta yeni çıxanlar zaman keçdikcə, onlar üçün ən sadiq və faydalı

1. Nəhcül-Bəlağə. İmam Əli İbn Əbi Talib. İlk çap, 2008. Hikmətli sözlər 10.
2. Richard Nixon. Leaders. New York: Warner Books, 1982, p. 38.
3. Richard Nixon. Leaders. New York: Warner Books, 1982, p. 14.
4. Richard Nixon. Leaders. New York: Warner Books, 1982, p. 38.
5. Jonathan Garner. The Rise of the Chinese Consumer. London: John wiley, 2006, p. 19-21

adamların əvvəllər etibar etmədikləri adamlar olduqlarına yəqin edirlər. Siyenanın hökmdarı "Pandolfo Petruççi" öz dövlətini əvvəllər hamıdan çox şübhə etdiyi adamlara arxalanaraq idarə edirdi.[6]

Belə bir irad da həmişə var ki, müdrik hökmdar və lider, şərait imkan verdikdə iş görə bilər. Ona görə əsas şəraitdir. Şərait tələb edərsə, xalq naminə vəzifədə son ana qədər qalmaq zəruridir.

Amma buna veriləcək cavab budur ki, birincisi, şəraiti də lider yaratmalıdır. İkincisi, lider xalq üçün yeni-yeni simaları da kəşf etməli və onları hazırlamalıdır. Bu haqda yaponların gözəl bir atalar sözü var:

*"Bacarıqlı şagird odur ki, öz müəllimini qabaqlasın. Dahi müəllim isə odur ki, onu əvəzləyə biləcək savadlı və bacarıqlı kadrlar yetişdirsin".* [7]

Əgər Rəhbərin yerinə keçəcək xarizmatik şəxs yoxdursa, bu yenə rəhbərin zəifliyinin göstəricisidir. Məsələn: Fidel Kastro 80 illiyi ərəfəsində, bir çox xəstəliklərə yoluxduğuna görə, iqtidarı (vəzifəni) müvəqqəti şəkildə qardaşına verdi. F.Kastronun özü uzun illər Batista diktatorluğunun əleyhinə mübarizə aparmışdır. Amma elə oldu ki, özü zahirdə fərqli olan başqa bir növ diktatorluğun əsasını qoydu. O, 49 ildir ki, bu növ diktatorluğa hökmranlıq edir. Kuba keçən 49 ildə bir şəxsin ixtiyarında olaraq, onun fikrinə, səliqəsinə və hətta xarakterinə uyğun əməl etmişdir. Şübhəsiz, gələcəkdə politologiya elminin yazarları F.Kastro şəxsiyyətinə və alicənablığına inanmayacaqlar.

Böyük işlər görmək üçün vəzifədə olmağın zəruriliyi doğrudur. Amma azacıq düşünmək məsələnin mahiyyətini tam başa düşmək üçün kifayətdir ki, bir nəfərin 49 il bir xalq üzərinə hökmranlığı nə deməkdir?! Bəli, liderlik ilk növbədə güc əldə etmək və onu qorumaqdır. Amma liderlik ilə vəzifətutmanın fərqi onların bunu hansı məqsəd üçün istəmələrindədir. Politologiya elminin anlayışları, nəzəriyyələri, tarixi, metodları, incəlikləri, ideyaları həm tədqiqatçıları, həm də kütləni, insanları rəftarlarından başa düşməyə vadar edir ki, həqiqi liderləri vəzifə düşkünlərindən ayırd edə bilsinlər.

Daha dəqiq ifadə etsək: Rəhbər konkret müəllifi olduğu və yaxud uğrunda mübarizə apardığı ideyanın təntənəsinə çalışan və bu zaman hər hansı bir iqtisadi, siyasi və hüquqi imtiyaz güdməyən, vəzifə tutmaq uğrunda çalışmayan əqidə adamıdır. Başçı isə konkret vəzifə və səlahiyyət üçün mübarizə aparan şəxsdir. O, vəzifəsini itirən kimi, nüfuzunu da itirir. Tarixdə nadir şəxsiyyətlər olub ki, onlar eyni zamanda həm rəhbər, həm də baçşı rolunu yerinə yetirməyə müvəffəq olublar. Məhəmməd peyğəmbər (s) sözsüz tarixin bu iki simaya malik nadir şəxsiyyətlərindəndir.

Nelson Mandela Cənubi Afrikada 27 il həbsxanada qaldıqdan sonra apartaydı sındırmağa nail oldu. O, qazandığı nüfuzun əsasında Cənubi Afrikanın yeni siyasi quruluşunun prezidenti seçildi. Baxmayaraq ki, həm daxildə, həm də beynəlxalq aləmdə onun 4 il müddətində yenidən prezident seçilməsi üçün zəmin var idi, amma N.Mandela siyasət müstəvisində həvəsləri üçün çalışmırdı. Liderlik və məqam vurğunu deyildi. O, Afrikada azadlıq armanının qorunmasını istəyirdi. Məhz bu səbəbdən yeni namizədliyindən boyun qaçırdı. Demək olar ki, buna görə o, Cənubi Afrikada bütün siyasətçilərin fövqündə durdu. Sonrakı davranışları N.Mandelanın vəzifə əldə etmək üçün yox, apartaydı sındırmaq üçün mübarizə etdiyini göstərdi. Bunun həm sübutu və həm göstəricisi öz namizədliyini yenidən irəli sürməməsi idi. O, bununla həm özü üçün güc və hörmət, həm də ölkəsinə inkişaf, dinamiklik, hərəkət və irəliləyiş qazandırdı. Aydındır ki, tarix boyu Nelson Mandela yüksək və alicənab şəxsiyyət kimi xatırlanacaq. Qarşısında isə Uill Dürant "Sivilizasiyalar tarixi" kitabının birinci bölməsində vəzifə düşkünü olan XV Lüyinin ölümünu belə xatırlayır:

*"1774-cü ilin may ayının yeddisində padşah rəsmi təşrifatlar əsnasında, sarayının önündə belə dedi: "Öz vətəndaşlarımın rüsvayçılığına səbəb olduğum üçün, peşmanam". O, 1774-cü ilin may ayının onunda yəni üç gün sonra 64 yaşında dünyasını dəyişdi. Atmosferi çirkin və bulanıq etməmək üçün, dəbdəbəsiz şəkildə, kütlənin nifrətlə dolu müşayiəti ilə, padşahlar qəbiristanlığında dəfn*

---

6. Howard Gardner. Leading Minds. New York: Basic Books, 1995, p. 285-300

7. Müseyib İlyasov. Müəllim Peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Elm və Təhsil nəşriyyatı, 2018, səh.17-23

*edildi. Yenidən 1715-ci ildəki kimi Fransızlar padşahlarının ölümü münasibəti ilə şadyanalıq etdilər".* [8]

Nelson Mandela və XV Lüyi liderlik müstəvisində iki fərqli simadır. Birincisi idarəçilik, eşq və inancına uyğun davrandı. İkincisi isə həvəslərinə uyaraq süqut etdi.

Yuxarıda N.Mandela üçün "eşq" ifadəsi istifadə olundu. Bu ifadə elə bir anlayışdır ki, M.Qandi, Şarl de Qoll, Çu En-Lay, Den Syaopin, Mahathir Məhəmməd, Marqaret Tetçer və Con Kennediyə yaraşır. Bunlar tarixdə inkişafa eşq, vətənə dərin məhəbbət və zəka ilə qarışmış tədbirlə liderlik edən şəxsiyyətlərdir. Öz ölkələrinin qüdrət dairəsini və potensiallarını yüksəldərək, genişləndirmişlər. Eşqdən daha yüksək anlayış və enerjiverici qüvvə yoxdur. İnsanlara cəhət, metod, şuxluq, şaxlıq, şahlıq və idarəçilik bəxş edən məhz "eşq" enerjisidir. İnsanlarda idarəçiliyi formalaşdıran qüvvə də eşqdir. Siyasət alanında hər bir liderin üzləşdiyi iki vəziyyət var. Onlar eşq və həvəs hissləridir. Bu iki mərhələnin iki qütb kimi toqquşan cəhətləri var. Eşq mərtəbəsində lider hamını, hər şeyini vətənin inkişafına həsr edir.

Hans Ditriş Qenşer soyuq döyüşün və iki Almaniyanın birləşməsindən sonra 18 il xarici idarəçilikdən sonra Almaniyanın xarici işlər nazirliyindən istefa verdi. O, "niyə istefa verdin" sualını belə cavablandırdı:

*"18 il çalışdım iki Almaniya birləşsin, bu məqsəd reallaşdıqdan sonra siyasətdə qalmaq üçün başqa bir məqsədim yoxdur".* [9]

Hans xarici işlər nazirliyi vəzifəsini qorumaqdan daha dərin düşünürdü. O, elə davrandı ki, tarixçilər, politoloqlar və sosioloqlar ona aid olan paraqrafda onun siyasi davranışını müsbət dəyərləndirəcəklər. Onu siyasətin qulu yox, əksinə, siyasəti onun qulu hesab edəcəklər. Hansın rəftarının qarşısında Fransisko Franko metodu durur. O, 40 il diktatorluqdan sonra dünyasını dəyişərkən, İspaniya qəfəsdən azad olmuş quşa bənzəyirdi. Frankonun qüdrət dairəsindən çıxmasını ölüm müəyyənləşdirdi. Amma Hansın isə seçim və qərarı istefasına səbəb oldu. Birinci vəziyyətdə eşq və siyası rasionallıq tarixi yönəltdi. İkinci vəziyyətdə isə həvəs tarixi formalaşdırdı. Bəli, hazırda İspaniyanın hazırkı siyasi quruluşu qüdrət sahiblərinin ölüm anınadək öz vəzifədə qalmasına icazə vermir. Hər bir şəxs müəyyən bir müddətədək siyasət meydanına qədəm qoyur və idarəçilik edir. Hər bir siyasətçi zəka və eşqə arxalanaraq, tarixinə inanaraq və vətənini sevərək öz ölkəsinin, partiyasının və adının sanballı olması və qalması üçün proqram və plan hazırlayır.

Vətənə eşq bəsləyən şəxslərin sayı da az deyil. Şarl de Qoll bütün varlığı ilə Fransanın yüksəlməsi üçün çalışırdı. O ancaq Fransanın ehtiramı, prestiji, şövkəti və qüdrətini düşünürdü. Əgər Ş.de Qoll olmasaydı, Fransanın İkinci Dünya müharibəsindən başıuca çıxması mümkün deyildi. Əgər Ş.de Qoll olmasaydı, Fransa İkinci Dünya müharibəsinin xarabalıqlarını islah və inkişafa tez şəkildə çevirə bilməzdi. Əgər Ş.de Qoll olmasaydı, Fransa və Almaniya münasibətlərinin adiləşməsi çox uzun sürərdi. Əgər Ş.de Qoll olmasaydı, Fransada beşinci Respublikanın Konstitusiyası yazılmazdı və Fransa iqtisadi, ictimai və siyasi hərc-mərclikdə boğulardı. Bir sözlə, əgər Ş.de Qoll olmasaydı, Fransanın prestiji qorunub saxlanmazdı.

Afrikalıların gözəl bir atalar sözü var:

*"Əgər görsən ki, su təpə boyunca altdan yuxarı qalxır, deməli, kimsə xeyirxahlığa xeyirxahlıqla cavab vermişdir".* [10]

Çu En-Lay - hazırkı qüdrətli və yeni Çinin memarı və baş naziri - özünün məqama, şöhrətə olan həvəslərini kənara qoydu. Çinin gələcəyinə olan eşq və sevgi ilə zəkasını işə salaraq, Çini dünyanın qüdrətli qütblərindən birinə çevirdi. O, Çinin qüdrətli qütb olması üçün bütün maneələri bir-bir aradan qaldırdı. Çini ifrata varan subyektiv idealizmdən xilas etdi. O, Çini dünyanın birinci dərəcəli qüdrətli qütbünə çevirmək üçün lazım olan potensialları hazırladı. Nəticəsi isə dünyada Pekinin öz məsləhətlərinə və mənfəətlərinə uyğun olan qərarları qəbul və təsdiq etməsindən ibarətdir. Çu En-Layın gücü və qüvvəsi XX əsrin liderləri ilə müqayisədə təqribən misilsiz idi. O, bu nəticəyə gəlmişdi ki, çinlilərin varlı olmasından başqa və hakimiyyətin iqtisadi səhnədən tədrici şəkildə kənara çəkilməsindən savayı yol yoxdur. Çu En-Lay

8. Will Durant. The Story of Civilization, p.127

9. Mahmud. Sariul-qalam. Beynəlxalq əlaqələrdə tədqiqat metodu, üçüncü nəşr, 2005, səh. 32-33

10. Ağasən Bədəlzadə. Hələ yaşamağa dəyər dünyada. Bakı, Elm və Təhsil, 2014, səh. 55

Çin mədəniyyətinin incəliklərini qabartdı. Çox qısa bir müddətdə elə bir atmosfer və qüruluş yaratdı ki, bu gün Çin xarici sərmayə yatırımında dünyanın ikinci ölkəsidir. 2006-cı ildə Forbesin verdiyi məlumata əsasən: "Çinin xalis ümümi büdcəsi 970 milyard dollar təşkil edir".

Əgər Ş.de Qoll və Çu En-Laylar yalnız öz mövqe və vəzifələrini qorumaq fikrində olsaydılar, siyasət və qüdrətə öz həvəsləri çərçivəsində baxsaydılar, nə Çin, nə də Fransa marksizm inqılabı və İkinci Dünya müharibəsindən qaynaqlanan problemlərin qarşısında davam gətirə bilməzdi. Həqiqətdə öz ölkəsinin qüdrətinin artması və inkişafı üçün çalışan hər bir lider vasitəli şəkildə öz millətinin mövqeyinin yüksəlməsi üçün çalışır. Başqa sözlə desək, hər millətin gələcəyi və prestiji o xalqın liderlərinin qarşısındadır. Öz ölkələrinə aşiq olan liderlər güc daşımaq məsuliyyətini dərk edir və öz mövqelərini hansısa bir məqamdan daha dərin dəyərləndirirlər. Bu növ liderlər böyük addımlar atmaq üçün tədrici şəkildə təcrübə kəsb edirlər. Və hər bir fürsətdən istifadə edirlər. Əgər çox qısa zaman ərzində bir şəxs mantyorluq və ya ustalıqdan səfirlik, ya nazirlik vəzifəsinə yüksələrsə, şəksiz necə və hansı dərəcədə məsuliyyət daşımasının mənasını hiss etməyəcəkdir. Çünki mərtəbələri və mərhələləri tədrici formada keçməyib. Daha dəqiq desək, məktəb keçməmişdir. Öz ölkəsinin digər ölkələr arasında olan nüfuz və yerini belə, tam dərk etməyəcəkdir. Öz düşüncə və fikrində "mühüm", "qeyri-mühüm" və "kifayət qədər mühüm" kimi anlayışları mərhələvi şəkildə tənzimləyə bilməyəcəkdir. Hər bir cəmiyyətdə təsadüfi şəkildə vəzifəyə gətirilən insanlar öz ölkəsinin qüdrətini, mövqeyini və vətənin inkişafına olan eşq və sevgini zatən təcrübə etməmişdir.

Barbara Watson "a History of Malaysia" kitabında haqlı olaraq, Malayziyanın inkişafını birbaşa Mahathir Məhəmmədin vətəninə olan eşqi və təcrübəyə arxalanan zəkası ilə əlaqələndirir. [11]

M.Məhəmməd vətənə eşq və təcrübəyə arxalanan zəkası ilə iki onillikdə, banan və kauçukdan başqa heç bir istehsalı olmayan Malayziyanı elə bir mövqeyə çatdırdı ki, bu gün yüz milyard dollardan artıq sənaye istehsalı var və yüksək texnologiya ilə digər ölkələrə eksport edilir. Əgər qəlbin və eşqin enerjisi olmasa, böyük işlər görmək mümkün deyil.

Hər bir liderin ən mühüm xüsusiyyəti öz ölkəsi üçün qüdrət doğuran strategiyanı seçməsi ilə ölçülür. Bu gün malayziyalılar çox varlıdırlar. Onların beynəlxalq prestijləri qat-qat artıbdır. Xaricdəki malayziyalı tələbələr öz ölkələrinə qayıdaraq, ölkələri üçün böyük işlər görürlər. Mahatir Məhəmmədin öz ölkəsinə olan eşqinin gücü müsəlman Malayziya xalqı üçün yüksək bir müvəffəqiyyət qazandırmışdır.

Qonşu İranın mərhum Prezidenti Rəfsəncani İranın prestiji üçün daha çox vaxt sərf etmişdir. Bildiyimiz kimi, o İslam meyilli bir partiyayanın üzvü idi. Onun İslam yönlü partiyaya bağlı olması İrana eşq və ölkəsinin milli kültürünün artması və həmçinin ölkəsinin milli gücünün artması düçüncəsi ilə təzad təşkil etmirdi. O Milton Fridmenin bu cümləsini yaxşı anlayıb və həyata keçirməyə çalışmışdır:

*"Hər bir xalqın şövkəti dövlətdən maaş almaması, öz düşüncə və çalışmasına arxalalanaraq, həyat və yaşayışını qurması ilə ölçülür".* [12]

Bu səbəbdən Rəfsəncani və onun seçdiyi rəhbər kollektiv İran iqtisadiyyatını dünya iqtisadiyyatı ilə birləşdirmək üçün çalışırdılar. Onun fikrincə, məhz bu metodla azad rəqabət yarana bilərdi. Bu səbəbdən zənginlik və var-dövlət əldə etməyi və istehsal etməyin məsuliyyətini məhz dövlətin daxilindəki insanların diqqət mərkəzinə çevirməməyə səy göstərirdi. O, İranın hakim dairəsinin üzvü olaraq, iqtisadiyyatın siyasətdən ayrı olmasının ölkə daxilində xalqın gücünün artacağından yaxşı agah idi. O, bu fürsətdən istifadə edərək, gecə-gündüz çalışması ilə üstündə yaşadığı torpağı dəyərləndirərək, lazım gələndə "yox" deməyi də bacararaq, İranın həm daxili, həm də xarici nüfuzunu və gücünü genişləndirdi. O, hətta 1997-ci ildə üçüncü dəfə kütlənin onun yenidən prezident seçkisində iştirak etməsi tələbinə məhəl qoymadı. Həmin il ümumiyyətlə seçkiyə qatılmadı.

Bir ölkənin qüdrətli olması və inkişafa sevgi ilə baxması o ölkənin liderlərinin şəxsiyyətində formalaşır. Siyasətçilərin şəxsiyyətə aid olan xüsusiyyətləri, onların idarəçilik və düşüncə gücündən daha əhəmiyyətlidir. Əgər hər hansı bir siyasi şəxsiyyət həm müdafə qüvvəsinə, həm cəzbedici nitq mədəniyyətinə, həm güclü qələmə malik olub kəlmələrdən dəqiq istifadə etmək üslubundan bəhrələnmişdirsə, onun tarixi dəyişdirmək gücü də olacaq. Hər

[11] Barbara Watson Andaya. A History of Malaysia. London: Palgrave, 2001, pp. 301- 344.

[12] Namiq Abbasov. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009, səh. 146

hansı bir siyasi xadim əgər digərlərinin mənafeyinə və ehtiyaclarına biganə deyilsə, başqalarını dinləmək və dərk etmək qabiliyyətinə malikdirsə, insanlarla ünsiyyətdə tədqirəlayiq dərəcədə qüdrəti varsa, o, qəlblərdə həmişəlik yaşayacaq.

Marqaret Tetçer müxtəlif müzakirə və debatlarda dəqiq suallar verir və geniş məlumatlarla çıxış edirdi. O, bununla öz dinləyici və hətta müxaliflərini təəccübləndirirdi. Öz ölkəsinə eşq bağlayan lider kütləni inkişafa doğru aparmaq üçün müxtəlifyönlü planlar tökməli və müsbət zəminlər yaratmalıdır. Öz xalqının düçüncəsində əfsanəvi behişt yaradaraq, insanların ruhlarına səfa gətirməlidir. Böyük şəkildə dünyaya gələn liderlərin hətta baxış, davranış və sözlərində belə planları var. Onlar ilk növbədə öz zamanlarının mühüm məsələlərini tanıyır və sonrakı mərhələdə reallığı düşüncəsində qurmuş ideallarla uzlaşdıraraq, nəticə əldə edirlər. Əlbəttə, bu, böyük bir incəsənət işidir. Bunun özü siyasi bilikdən əlavə, siyasi zəka tələb edir. Bütün böyük liderlər öz ölkələrinə eşq və sevgi bəslədikdən sonra düşünülmüş ideallar ilə sərvət və qüvvəti öz xalqlarına töhfə gətirmişlər.

Keçən onillikdə on min çinli müəllim Amerikanın müxtəlif təşkilatlarına, şirkətlərinə və universitetlərinə dil, praktika və bilik öyrənmək üçün getmişdir. Şübhəsiz, bu, amerikalıların meylinin əksinədir. Amma Çinin zəkalı hakimiyyəti elə bir atmosfer yaratmışdır ki, öz millətinin qüdrətini artırmaqla, digərlərini beynəlxalq əlaqələrdə Çinin böyük səhminin qəbul edilməsinə vadar etmişdir. Dərin düşüncəli lider üçün ölkəsinin sərvətli və qüdrətli olmasından başqa bir məqsədi olmamalıdır. 2006-cı ilin 23 fevralında "The Guardian" agentliyinin verdiyi məlumata əsasən, 1988-ci ildə Fransanın Tuluza şəhərində təyyarə və hava nəqliyyatı istehsal edən "Airbus" şirkətinin müdirlər heyəti yığıncağında belə bir təklif irəli sürüldü: bir neçə il ərzində dünya miqyasında hava səfərləri üç dəfə artacaq. Toplantıda hazır olanların biri belə bir təkliflə çıxış etdi: "Airbus" şirkəti 80 ölkədən olan 55 min işçi ilə "Airbus A380" təyyarəsini istehsal etsin. Bu düşüncə 2005-ci ildə yüz milyard avrodan çox sərmayə əsasında yüksək texnologiya ilə hazırlanmış "Airbus A380" təyyarəsinin ərsəyə gəlməsi ilə nəticələndi. Hazırda bu təyyarə 900 nəfər sərnişini daşımaq gücünə malikdir. Bu təyyarədə 37 km sim və teldən, həmçinin 32 min kiçik hissəcikdən istifadə edilmişdir. Avropa dövlətləri tərəfindən işlədilən bürokratiya, siyasi himayə və sərmayə yatırımı bu cür yüksək texnologiyaların, maşınların və aparatların ərsəyə gəlməsinə səbəb olur. Ölkə liderləri gələcəkgörmə üfüqündə kütlədən ən azı iyirmi il qabağı görməlidirlər. Hər ölkənin liderini başqa ölkələrin siyasətçilərindən fərqləndirən, onun ölkəsinin qüdrətli olması və ona eşq bəsləməsidir. Ölkəyə eşq bəsləməyin göstəricisi siyasətçinin uzaqgörənliyi və çalışmasıdır, nəticədə ölkəsinin qüdrətli və əzəmətli görünməsi və dərin hörmətə malik olmasıdır.[13]

Kristofer Masyu 1996-cı ildə nəşr etdiyi "Kennedy and Nixon" əsərində yazır: Con Kennedi gənc olarkən siyasətə qoşulmaq üçün atasından öyrəndiyi ilk cümlə bu idi:

*"Mühüm deyil sən özün barədə nə düşünürsən, başqalarının sənin haqqında nə düşündükləri mühüm və əhəmiyyətlidir".* [14]

Siyasətdə hətta belə təsəvvür və imic yaransa ki, lider, ya ölkə süstlüyə və süquta doğru gedir, öz mövqeyini və şövkətini tədricən əldən verəcək. Siyasətdə təsvir reallıqdan qat-qat üstündür. Çünki insanların mütləq və mütləq əksəriyyəti gözlə gördüklərini təhlil və analiz edərək, hadisələrə, şəxslərə və ölkələrə münasibət bildirirlər. Bu səbəbdən hazırda siyasətin yarı faizdən çoxu jurnalistikadan təsirlənir. Hazırda siyasət meydanına addım atanlar jurnalistik dairələrdə məqbul sayılmaları üçün çalışırlar. Həqiqi liderlər öz ölkələrindən bəyənilmiş gözəl və müsbət təsvirlər əks etdirmək üçün jurnalistika imkanlarından tam istifadə edərək, yararlanırlar. Lider performansı bir növ teatrdakı aktyora bənzəyir. Sözlər, hərəkətlər, baxışlar və hətta sükutlar belə, aktyorların rollarını gözəl ifa etmək üçün vasitədir. Hər bir aktyor nümayiş boyu öz rolunu gözəl ifa edərsə, teatr gözəl olacaq. Hakim təbəqə də liderin ardınca vəzifəsini gözəl yerinə yetirərsə, toplumun harmoniyası qorunacaq. Səbəbsiz deyil ki, politologiya elmində deyilir:

*"Yalnız kütlənin mənafeyi ilə liderlərin mənafeyi uzlaşan və üst-üstə düşən ölkə inkişaf edə bilər".*[15]

13. The Guardian. February 23, 2006, pp. 6- 17.
14. Christopher Matthews. Kennedy and Nixon: A Rivarly that Shaped Postxar America. New York: Tou chstone, 1996. p. 192.
15. Adıgözəl Məmmədov. Siyasi Liderlərin psixoloji portretləri. Bakı, 2019, səh.90-93

Siyasi davranışda cəmiyyətlərin siyasi mədəniyyətini diqqətlə nəzərdən keçirmək lazımdır. Əgər Almaniyada hansısa bir namizəd seçki mübarizələrində özündən təvazökarlıq göstərərsə və özünü məzlum nümayiş etdirərsə, Alman ictimaiyyəti ona diqqət yetirməyəcək, əksinə, onların ruhunda bu davranış müsbət təsir bağışlamayacaq. Almanıyalı sadə bir fəhlə belə, partiyalar və liderlərin proqramına həssas olmağı öyrənib. Şəxsi ədalar və siyasi rollardan alınmış simalar Alman və Yapon vətəndaşına daha az təsir göstərir. Məhz bunun üçün orada liderlər ictimaiyyəti düşünməyə vadar etmək üçün çalışırlar. Keçən iki əsrdən başlayaraq sənayenin inkişafı, siyasətin rasionallaşması, ictimaiyyətin və şəxsiyyətin fikri yetişkənliyi və partiyaların mənafeyini nəzərə almaq dünya xalqlarına inkişafı ərməğan etmişdir. Amma Orta Asiyada və Qafqazda vəziyyət fərqlidir. Şəxslərin zahiri xüsusiyyətləri və simaları vətəndaşlara daha çox cəlbedici görünür. Səbəbsiz deyil ki, bu torpaqlarda siyasət ərsəsində olanlar ağlamaqla, gülməklə, qəmgin və kədərli görünməklə özlərini müxtəlif formalara salır və seçilirlər. Təbiidir ki, yazılmamış bu cəlbedicilik qayda-qanunları vətəndaşların siyasi mədəniyyətinin formalaşmasına təsir göstərir. Bu gedişatın tam rasional olması üçün uzun zamana ehtiyac var. Amma ölkəsinə sevgi bəsləyən liderlər milli güc və mənafelərini nəzərə alaraq qeyri-rasional mədəniyyətin simvollarını islah edə bilərlər. Yəni özlərini xeyirxah və məzlum insan kimi nümayiş etdirmək əvəzinə, bütün qüvvələrini toplayıb ölkələrini qorumaq və qüdrət dairəsini tədricən genişləndirmək üçün çalışa bilərlər.

**Nəticə**

Nəticə etibarilə liderlik həm bilik, həm də siyasi səriştə tələb edir. Köklü ailədən gəlmək, mədəni genləri daşıması, təcrübə kəsb etmək və vətənə bağlılıq və sevgi ruhunda böyümək liderliyin əsas xarakterik xüsusiyyətlərindəndir. Tibb universitetinin ikinci kurs tələbəsinin cərrahlıq etməsini zəka sahibləri qəbul edərmi? Kütlənin yaşadığı binanın tikintisində soyuq və isti bilməyən gəncin mühəndislik etməsini sakinlər qəbul edərmi? Siyasət alanı, arıqlamaq üçün parkda addımlayan şəxslərin onu məşğuliyyət hesab etməsi kimi bir məşğuliyyət deyildir. Uğurlu və uğursuz ölkələrin tarixi, xalqların taleyinin liderlərin əlində olmasını aydın şəkildə göstərir. Onların hər bir qərarı xalqın gələcəyinə təsir edir və ölkənin inkişaf tempini müəyyənləşdirir. Hər bir liderin sözünə, rəftarına, danışığına, davranışına, şəxsiyyətinə, nəcabətli və nəzakətli olmasına diqqət yetirmək lazımdır. Amma bu xüsusiyyətlərin fövqündə dayanan bir xarakter var. O, ölkəsinin yüksəlməsinə EŞQin olmasıdır. Bu, hər bir liderin ucalacağı ən pik zirvədir. Burada iki qütb var: Bir tərəfdən öz vəzifəsini qorumaq, digər tərəfdən isə ölkəsinin inkişafına olan eşq. Bu seçim hər bir liderin siyası bacarığının və şəxsiyyətinin formasının göstəricisidir. Liderin davranışı, vəzifəsini qorumaq və kreslodan yapışmaq yolunu tutması ölkənin süqutunun başlaması deməkdir.

Səbəbsiz deyil ki, Siyasətçinin şəxsiyyətinin dolu və ya gözütox olması onun fərdi xarakteri olmalı və siyasi vəzifəsindən öncə formalaşmalıdır. Liderlik uğrunda addım atanlar hansı məqsədə baş əydiklərini əvvəlcədən bilməlidirlər. Hansı hədəf üçün çalışıb və kimlər üçün qərar qəbul etdiklərini tam dəqiqliklə başa düşdükləri təqdirdə, başlarını dik tutub, xalqın arasında rahat şəkildə hərəkət edə bilmə hüququ qazanacaqlar.

**Ədəbiyyat**


1. *Adıgözəl Məmmədov. Siyasi liderlərin psixoloji portretləri. Bakı, 2019*
2. *Ağasən Bədəlzadə. Hələ yaşamağa dəyər dünyada. Bakı, Elm və Təhsil, 2014*
3. *Barbara Watson Andaya. A History of Malaysia. London: Palgrave, 2001*
4. *Christopher Matthews. Kennedy and Nixon: A Rivarly that Shaped Postxar America. New York: Tou chstone, 1996.*
5. *Howard Gardner. Leading Minds. New York: Basic Books, 1995*
6. *Jonathan Garner. The Rise of the Chinese Consumer. London: John wiley, 2006*
7. *Mahmud, Sariul-qalam. Beynəlxalq əlaqələrdə tədqiqat metodu, üçüncü nəşr, 2005*
8. *Müseyib İlyasov. Müəllim Peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Elm və Təhsil nəşriyyatı, 2018*
9. *Namiq Abbasov. Mədəniyyət Siyasəti və Mənəvi Dəyərlər. Bakı, 2009*
10. *Nəhcül-Bəlağə. İmam Əli İbn Əbi Talib. İlk çap, 2008, Hikmətli sözlər 10.*
11. *Richard Nixon. Leaders. New York: Warner Books, 1982*
12. *The Guardian, February 23, 2006*
13. *Will Durant. The Story of Civilization. Simon and Schuster publisheng, 1935*



**Ulduz HƏŞİMOVA**
*AMEA Fiziologiya İnstitutunun direktoru, biologiya elmləri doktoru, professor*

# Azərbaycanda herontoloji tədqiqatlara dair

**Statistik məlumatlara əsasən, XX əsrin son onilliklərindən başlayaraq dünya əhalisinin demoqrafik göstəricilərində çox ciddi dəyişikliklər baş verir. Belə ki, əhalinin yaş strukturunda, 65 və daha çox yaşı olanların daxil olduğu kateqoriyanın xüsusi çəkisi get-gedə artır. Bu gün dünyanın demək olar ki, bütün ölkələrində, xüsusilə inkişaf etmiş ölkələrdə, insanlar əvvəlki dövrlər ilə müqayisədə daha uzun ömür sürürlər.**

Bu, ilk növbədə, biotibb elminin, tibbi-bioloyi texnologiyaların inkişafı, sağlam və aktiv həyat tərzinin əhali arasında təbliği və s. amillərlə bağlıdır. Müstəqil ekspertlərin hesablamalarına görə, 2050-ci ildə dünyada təxminən 2 milyard insan 60 və daha çox yaş kateqoriyasına aid olacaq. Digər tərəfdən bütün ölkələrdə, o cümlədən ənənəvi olaraq "çoxuşaqlı" sayılan Asiya və Afrika ölkələrində doğum səviyyəsi getdikcə aşağı düşür. Bu iku qlobal demoqrafik tendensiyanın ümumi nəticəsi kimi, artıq bu gün inkişaf etmiş ölkələrdə 5-yaşlıların və 45-yaşlıların sayı təxminən eynidir. Proqnozlara görə, yaxın gələcəkdə 80+ yaş kateqoriyasından olanların sayı 5 yaşadək olan uşaqların sayına bərabər olacaqdır. Başqa sözlə planetimiz getdikcə qocalır.

Sübhəsiz, insanların daha uzun ömür yaşaması bəşəriyyətin bugünə qədər əldə etdiyi ən mühüm nailiyyətlərdən biridir. Eyni zamanda, dunya əhalisinin qocalması kimi qlobal demoqrafik transformasiya insan həyatının və fəaliyyətinin bütün sahələrinin müvafiq olaraq uyğunlaşdırılması zəruriyyətini meydana çıxarır və bu baxımdan bəşəriyyət qarşısında yeni çağırışlar qoyur. Onlara hazır olmaqda müasir elmin rolu həlledicidir. Təsadüfi deyil ki, qocalma ilə bağlı tədqiqatlar bu gün bütün aparıcı elmi mərkəzlərin prioritetləri arasındadır.

Qlobal xarakter daşıyan və xüsusilə dünyanın aparıcı ölkələri üçün səciyyəvi olan əhalinin qocalması fenomeni Azərbaycanda da qeyd olunur. BMT-nin proqnozlarına görə, 2050-ci ilə qədər Azərbaycan əhalisinin tərkibində 65 və daha çox yaşı olanların sayı 2000-ci il ilə müqayisədə 3 dəfə artaraq 32,1% təşkil edəcəkdir. Bu kimi proqnozlar özü-özlüyündə qocalma ilə bağlı tədqiqatların aktuallığından xəbər verir. Mütəxəssislər tərəfindən uzunömürlülər diyarı kimi tanınan Azərbaycanda herontoloji tədqiqatların aparılması xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz dünyanın nadir regionlarından biridir ki, burada uzunömürlülük populyasiya səviyyəsində müşahidə olunur. Yaşı 120 və daha artıq olan insanlar məhz burada qeydə alınmışdır. Bu kimi insan resurslarının mövcudlugu Azərbaycanda müasir beynəlxalq praktikaya əsaslanan herontoloji tədqiqatların aparılmasına geniş imkanlar açır.

Qeyd olunmalıdır ki, bu günəcən tədqiqat-

çılar tərəfindən 300-dən çox qocalma nəzəriyyəsinin irəli sürüldüyünə baxmayaraq qocalmanın əsasında duran mexanizmlər, bu prosesi şərtləşdirən çoxsaylı amillərin qarşılıqlı rolu haqqında müxtəlif fikirlər səsləndirilir. Qocalma ilə bağlı bir çox suallar, o cümlədən insan ömrünün uzunluğu hələ də müzakirə predmetidir. Mütəxəssislərin əksər hissəsinin qəbul etdiyi fikir belədir ki, hər bir bioloji növ üçün genetik sistemdə kodlaşdırılmış ömür müddəti olduğu kimi ***Homo sapiens*** üçün də genetik sistem tərəfindən proqramlaşdırılmış ömür müddəti var və bu müddət təxminən 110-120 yaş arasındadır. Əgər nəzərə alsaq ki, hətta ən inkişaf etmiş ölkələrdə belə, orta ömür müddəti bu rəqəmlərdən xeyli aşağıdır, aydındır ki, insan ömrünün uzadılması istiqamətində görüləsi işlər hələ qabaqdadır.

Mütəxəssislər insanlar arasında qeydə alınan uzunömürlülük hallarını sağlam, yəni fizioloji qocalmanın modeli kimi qəbul edirlər. Bu baxımdan, Azərbaycanda müşahidə olunan uzunömürlük fenomeninin kompleks tədqiqi böyük əhəmiyyət kəsb edir, çünki məhz bu tədqiqatlardan alınan nəticələr fizioloji qocalma haqqında mövcud biliklərin genişləndirilməsinə və dərinləşdirilməsinə imkan yaradir. Təsadüfi deyil ki, respublikamız sağlam qocalmanın sirrlərini öyrənmək istəyən herontoloqların daima diqqət mərkəzində olmuşdur. Azərbaycanda ilk kompleks herontoloji tədqiqatlar "Yüksək uzunömürlülük indeksi ilə fərqlənən xalqların və etnik qrupların kompleks bioloji-antropoloji və sosial-etnoqrafik tədqiqi" Sovet-Amerikan beynəlxalq tədqiqat proqramı (1981-1989) çərçivəsində həyata keçirilmişdir. Qazax, Tovuz, İsmayıllı, Cəlilabad, Lənkəran rayonlarında aparılan tədqiqatlarda AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun əməkdaşları ilə birgə SSRİ EA-nın Herontologiya İnstitutunun (hazırda Ukrayna MEA Herontologiya İnstitutu), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Antropologiya İnstitutunun, SSRİ EA Etnoqrafiya İnstitutunun mütəxəssisləri də iştirak etmişlər. Bu tədqiqatların nəticələri, aktiv qocalığın təmin edilməsində genetik və mühit faktorlarının, cəmiyyətin nigah-ailə strukturunun xüsusiyyətlərinin, həyat tərzinin, qidalanma rejiminın və digər bioloji-sosial faktorların roluna dair mövcud biliklər bazasını əhəmiyyətli dərəcədə genişləndirməyə imkan yaratdı. Yüksək ixtisaslı mütəxəssislərdən ibarət beynəlxalq tədqiqat qrupu tərəfindən toplanmış məlumatlar əsasında nüfuzlu elmi jurnallarda herontologiyanın müxtəlif aspektlərini araşdıran silsilə məqalələr çap olundu, bir neçə monoqrafiya işıq üzü gördü.





2015-ci ildə populyasiya xarakterli uzunömürlülük fenomeninin kompleks tibbi-bio-



loji tədqiqi respublika elminin prioritet istiqamətlərindən biri kimi müəyyən edildi və Azərbaycan ərazisində herontoloji tədqiqatların yeni mərhələsi başlandı. Bu tədqiqatlara rəhbərlik edən AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu tərəfindən müasir beynəlxalq təcrübəyə əsaslanan xüsusi elmi-tədqiqat proqramı işlənib hazırlandı. Beynəlxalq işçi qrupunun həyata keçirdiyi proqramın məqsədi qocalmanın fizioloji və genetik-molekulyar mexanizmlərinin araşdırılması idi.

Proqram çərçivəsində aparılan tədqiqatlar bir sıra maraqlı faktları üzə çıxardı. Məsələn, ölkə əhalisi üzrə demoqrafik məlumatların təhlili göstərdi ki, Azərbaycanda uzunömürlülük populyasiya fenomeni kimi müxtəlif payonlarda müxtəlif səviyyədə müşahidə olunur və payonlararası fərqlər kifayət dərəcədə qabarıq olaraq ən aşağı 3,4%-dan (Mingəçevir şəhəri) ən yuxarı 53,8%-ə (Xocavənd rayonu) qədər olan bir diapazonda dəyişir. Ümumilikdə, ölkə üzrə ən aşağı uzunömürlülük indeksləri Abşeron iqtisadi zonası və ölkənin cənub-şərq və cənub-qərb bölgələrinin bəzi rayonlarında qeydə alınır. Ən yüksək uzunömürlülük indeksləri əsas etibarilə ölkənin dağlıq və dağətəyi ərazilərində, xüsusilə Şuşa, Qubadlı, Laçın, Zəngilan, Cəbrayılda qeydə alınır. Maraqlıdır ki, bu rayonlar vaxtilə sovet alimlərinin apardıqları tədqiqatlarda da ən yüksək uzunömürlülük indeksinə malik olan rayonlar kimi göstərilmişdir. Qeyd olunmalıdır ki, bu günlərdə işğaldan azad olunmuş həmin rayonların əhalisi son siyahıyaalınma zamanı respublikanın müxtəlif regionlarında məskunlaşmasına baxmayaraq işğaladək yaşadıqları rayonların vətəndaşları kimi qeydiyyatdan keçmişlər. Bu isə onu göstərir ki, həmin rayonların əhalisi yaşayış yerini və məişət şəraitini dəyişdiyi 30 ilə yaxın bir müddətdə belə uzunömürlülük potensialını itirməmişdir. Bu fenomenin mexanizmləri haqqında müxtəlif mülahizələr irəli sürmək olar, lakin şübhəsiz ki, bu, yaşama müddətinin həddinin kodlaşdırılmasında genetik amillərin rolunu bir daha vurğulayır.

Tibbi-bioloji müayinələrin ilkin nəticələri də böyük maraq doğurur. Belə ki, uzunömürlülərdə və onların qohumlarında istər ürək-damar, sinir, endokrin/produktiv gostəricilərdə, istərsə də psixo-fizioloji sferada yaşla əlaqədar xəstəliklər və patoloji hallar daha az və mülayim şəkildə rast gəlinir. Bu da onları kontrol qrupdan müəyyən mənada fərqləndirən xüsusiyyət kimi qəbul edilə bilər. Əvvəlki mərhələdə əldə edilmiş nəticələrə əsasən, ölkədə uzunömürlülüyün tarixi-regional xarakterli olduğu da nəzərə alınmaqla, demək olar ki, Azərbaycanda uzunömürlülüyün populyasiya və ya qrup şəklində təmsil olunduğu rayonlarda uzunömürlülüyü təmin edən mexanizmlər, yaşla əlaqədar yaranan somatik və psixoloji problemləri ləngidə bilən, fizioloji qocalmanı " dəstəkləyən", tarixən formalaşan bir genomun mövcudluğu ilə bağlıdır. Bu baxımdan, ölkənin yüksək uzunömürlülük indeksli rayonlarında genişmiqyaslı genetik-populyasiyon tədqiqatların aparılması qocalmanın əsasında duran fizioloji və genetik-molekulyar mexanizmlərin üzə çıxarılmasına böyük töhfə verə bilər.

Hazırda bu tədqiqatlar davam edir.



**Qasım HACIYEV**
*AMEA Qafqazşünaslıq İnstitutu Ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru*

# Ermənistan Cənibi Qafqazda separatçı və terrorçu dövlətdir

**Cənubi Qafqaza XIX əsrdə köçürülmüş ermənilər XX əsrin əvvəllərində yaradılmış Ermənistan dövlətinin regionda separatçılığı və terrorçuluğu Azərbaycan xalqına böyük bəlalar gətirmişdir.**

XX əsrin əvvəllərində Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinə qarşı separat siyasət yürüdən Ermənistanın (Ararat) ekstremist dəstələri soyqırımı törətdilər (1918-ci il, 31 mart). Ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları qaldırıb Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına nail oldular (1923-cü il). Bununla bərabər, Zəngəzuru və Göyçəni Azərbaycandan ayırıb Ermənistana verdilər. Sovet hakimiyyəti dövründə də davam edən erməni separatizmi 1948-1953-cü illərdə zorakı üsulla 150 min azərbaycanlının öz ata-baba yurdlarından - Qərbi Azərbaycandan (indiki Ermənistandan) deportasiya edilməsi ilə nəticələndi. 1987-ci ildən erməni millətçiləri əsassız ərazi iddialarını - Azərbaycanın DQMV ərazisinin Ermənistana birləşdirilməsi məsələsini yenidən qaldırdılar. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" qərar qəbul etdi. Ermənistan hökuməti etnik təmizləmə məqsədilə 1988-1993-cü illərdə 250 min azərbaycanlını öz ata-baba yurdlarından - doğma torpaqları Qərbi Azərbaycandan deportasiya etdi.

Azərbaycanın Xankəndi şəhərində Ermənistan bayrağı qaldırıldı. Vilayətin əksər idarə və müəssisələri Ermənistana tabe edildi. Dövlət səviyyəsində separatizm və ekstremizm mövqeyində dayanan Ermənistanın Dağlıq Qarabağı Ermənistana birləşdirmək ideyasını reallaşdırmaq cəhdi münaqişənin kəskinləşməsinə səbəb oldu. Ermənistan hərbi qüvvələri Azərbaycan Respublikasına təcavüz edərək onun Dağlıq Qarabağ ərazisini və ətrafındakı 7 rayonunu işğal etdi.

Azərbaycanın məcburi qoşulduğu 1-ci Qarabağ müharibəsi 20 mindən artıq azərbaycanlının ölümünə, 1 milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb oldu. Ermənistan Azərbaycan Respublikasının şəhər və rayonlarında terror aktları təşkil etdi, minlərlə günahsız insan həlak oldu. Respublikanın təbiəti zəhərləndi, qədim maddi mədəniyyət irsi məhv edildi, regionun iqtisadiyyatı pozuldu, ekologiyası korlandı, təbii sərvətləri talan edildi. Ümumilikdə, Azərbaycan Respublikasına 60 milyard ABŞ dollarından çox maddi ziyan dəydi.

Ermənistan hazırda təkcə Azərbaycana qarşı deyil, regionda digər dövlətlərə qarşı da geniş miqyasda separatçı siyasət yürüdür, terror aktları törədir. Azərbaycanın Dağlıq Qarabağ regionunda olduğu kimi, Gürcüstanın Samsxeti-Cavaxetiya bölgəsində də ermənilərin analoji fəaliyyəti davam edir.

Ermənistanın və erməni icmalarının Azərbaycana, Gürcüstana, Türkiyəyə qarşı irəli sürdüyü ərazi iddiaları kimi Ukrayna (Lvov və Krım bölgəsində) və Rusiya (Rostov-Don) dövlətlərinin bölgələrinə qarşı da əsassız ərazi marağının olması məlumdur.

Beynəlxalq təşkilatların iştirakı ilə aparılan danışıqlarında qeyri-konstruktiv mövqe tutmaqla daimi sülhün qəbul edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına imkan verməyən Ermənistan son zamanlar yenidən separatizmə əl atdı. Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisini xarici vətəndaşlarla məskunlaşdırmaqla, təhdid xarakterli çıxışlar etməklə münaqişəni daha da kəskinləşdirdi.

İşğal altında saxladığı ərazilərdə möhkəm istehkamlar quran Ermənistan 2016-cı il Aprel döyüşlərində aldığı zərbədən ayılmadı.

Siyasi baxımdan müstəqil olmayan, iqtisadi baxımdan böhrana, sosial və mədəni baxımdan acınacaqlı vəziyyətə düşən Ermənistanın Azərbaycan Respublikası ilə müharibəyə girməsi üçün heç bir zəmin olmadığını dərk etmədi. Halbuki,



**Ermənilərin Türkiyədən Cənubi Qafqaza köç etməsi**

ölkədə siyasi natamamlıq, sosial-iqtisadi böhranın dərinləşməsi, etiraz nümayişləri, hakimiyyət əleyhinə ittihamlar, genişlənən emiqrasiya prosesi Ermənistanın ağır vəziyyətdə olmasından və perspektivsiz gələcəyindən xəbər verirdi.

Vaxtilə böyük dövlətlərin cəhdləri ilə süni şəkidə yaradılmış, Sovetlər dövründə respublikaların hesabına dotasiyalarla, müstəqillik dövründə xaricdəki erməni lobbisinin ianələri və bəzi dövlətlərin yardımı hesabına yaşayan, kənar qüvvələr tərəfindən idarə olunan forpost Ermənistanın bu qədər böyük iddialarının iç üzünün açılacağını, mahiyyətinin faş olacağını gözləmək olardı.

Ermənistan hakimiyyətini dəfələrlə konstruktiv mövqe tutmağa dəvət edən, beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsinin vacibliyini diqqətə çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağına ümid etdiyini bildirdi. Buna baxmayaraq "Qarabağ Ermənistandır, nöqtə" - deyən Ermənistanın baş naziri Nikol Paşinyana cənab İlham Əliyev "Qarabağ Azərbaycandır, nida" - deyərək onu başa düşməyə çağırdı. Lakin N.Paşinyan bundan düzgün nəticə çıxarmadı, Azərbaycana qarşı təhdid xarakterli çıxışlar etdi, yeni ərazilərin ələ keçiriləcəyinə dair cəfəng ritorikaya əl atdı və ardınca müharibəyə başladı. Azərbaycan Respublikasının Qarabağdan kənarda olan Naftalan şəhərinə raket zərbəsi endirilərək bir ailəni - 4 nəfəri məhv etdi. Ermənistan ərazisindən Gəncə və Mingəçevir şəhərlərinə ballistik raketlərlə zərbələr endirildi. Döyüş bölgəsindən xeyli aralıda yerləşən Bərdə şəhərinə atdıqları qadağan olunmuş paketli raket 21 sakini şəhid etdi, 70-dən artıq insanı yaraladı. Təkcə bunlar Ermənistanın separatçı, terrorçu dövlət olduğunu təsdiq edir və onun beynəlxalq məhkəməyə verilməsinə imkan verir.

Məcburi surətdə qoşulmağa vadar edilən İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi-strateji qüdrəti, dəqiq diplomatik məharəti ilə başlanan əkshəmlə əməliyyatı Ermənistanı çıxılmaz vəziyyətə saldı. Ermənistanın 4 ilə işğal etdiyi (1991-1994) və 30 ilə qədər işğalda saxladığı ərazilərimizi az bir müddətə - 44 günə azad etdi. Çox sevdiyi Azərbaycan bayrağını işğaldan azad edilmiş bütün şəhər və kəndlərimizdə ucaltdı. BMT-nin Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinə dair 28 ildir icra edilməyən qərarlarını yerinə yetirdi. Hamıya göstərdi ki, işğal edilmiş Azərbaycan torpaqlarını azad etmək mümkündür.

Bu, Azərbaycanın yeni tarixinin başlanmasıdır. Azərbaycanın yeni tarixini yaradan dövlət başçımız, igid əsgərlərimiz və onun arxasında duran qüdrətli xalqımız yüksək şərəfə layiqdir. Belə bir tarixi tədqiq etmək, yazmaq da şərəflidir. Bu tarixi bizə yaşadan və yazmağa şərait yaradan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarıq!



**Назмин ДЖАФАРОВА**
*Отдел печати и информации аппарата Президиума НАНА, доктор философии по искусствоведению*

# Религиозная толерантность в Азербайджане, или ответ на претензии политических и общественных деятелей ряда стран мира

**После Победы, одержанной Азербайджаном в Карабахской войне, и освобождения исконных земель от армянской оккупации лидеры, а также деятели науки, культуры и искусства ряда стран мира выражают свою обеспокоенность судьбой христианских храмов, расположенных на территории нашей Родины, совершенно "забывая" при этом упомянуть о варварских действиях оккупантов по отношению к мусульманским святыням, архитектурному и археологическому наследию азербайджанского народа, молчат о разграблении музеев и библиотек, не говоря уже об арменизации тех же самых христианских храмов.**

К сожалению, в мире двойных, тройных и более стандартов нам приходится доказывать очевидное - то, что еще совсем недавно признавали и сами эти политики и общественные деятели, отмечая высокий уровень толерантности, царящей в азербайджанском обществе по отношению ко всем этносам, вероисповеданиям и культурам.

Веротерпимость - признание убеждений и веры "другого" - считается первой исторической формой проявления толерантности. Моральную трактовку веротерпимости, основанную на рационализме, предложил английский философ Джон Локк. По его твердому убеждению, государственная власть не должна государственным законом предписывать символы веры, религиозные догматы или то, как именно следует чтить Бога.

Не является исключением и Азербайджан. На территории республики веками бок о бок живут представители различных конфессий. Наша страна, занимая важное геостратегическое положение, на протяжении веков являлась местом распространения религий и религиозных течений. На исторической территории Азербайджана распространялись шаманизм, зороастризм (огнепоклонство), а позже - иудаизм, христианство и ислам. На протяжении всей истории между проживающими на территории Азербайджана этническими и религиозными общинами формировались прочные устойчивые отношения, не было никакой национальной, расовой и религиозной дискриминации.

Азербайджан обладает уникальным опытом, который наш народ накопил задолго до появления самого слова "мультикультурализм". Чтобы обосновать данную мысль, академик Акиф Ализаде в своей статье



Храм огнепоклонников - Атешгах, поселок Сураханы



Албанский храм в поселке Киш, Шеки

"Точная идеологическая цель - мультикультурализм" обратился к материалам Кавказской археологической экспедиции, которая была организована в XIX веке при Российской академии наук под руководством Адольфа Берже. Из статистических данных экспедиции известно, что в середине XIX века Баку был малонаселенным моноэтническим городом: "В конце века значительное увеличение нефтепроизводства на Апшероне, вывод бакинской нефти на мировой рынок, развитие областей промышленности в городе, окрытие заводов, фабрик, банков, прокладка железной дороги Баку-Тифлис привели к массовому притоку рабочей силы из-за рубежа. В те годы люди, стекающиеся в Баку как из отдельных регионов соседних Ирана и России, так и из различных стран Европы, обрели здесь не только рабочие места, но также свою вторую родину на берегах Каспийского моря. Примечательно, что в то время, как в странах, в которых расселялись евреи, во многих случаях им для жизни отводились специальные кварталы - гетто, в которых они проживают и по сей день, в Баку никогда не делали подобных различий на национальной и религиозной почве. Подобные кварталы до сих пор существуют в столицах Европы. Эти кварталы, в которых расселяются в том числе и мигранты, прибывающие из Ближнего Востока, считаются постоянной угрозой для общественного порядка. Такие кварталы есть не только в Европе, но и в священном для трех религий городе Иерусалиме, столице государства Израиль. А ведь сейчас не XIX столетие, мы живем в XXI веке".

Синтез западной и восточной культур проявился больше всего в последующем развитии искусства, впервые на мусульманском Востоке в Азербайджане была создана опера, возникли профессиональные школы изобразительного искусства, музыки, архитектуры. В отличие от отношения современного Запада к мигрантам, наш народ в то время принял людей, обратившихся к нему, такими, как они есть, и создал все условия для сохранения ими своей культуры, религии, языка. Наглядным примером этого являются возведенные в тот период в Баку, Гяндже, Хачмазе, Шамкире и прочих городах республики храмы, относящиеся к различным религиям, которые и сегодня, наряду с мусульманскими святынями, охраняются и реставрируются государством.

Основательная реставрация Албанской церкви IV-V вв., которая расположена в шекинской деревне Киш и считается одним из самых древних храмов на Кавказе и во всем мире (ныне функционирует как церковь-музей), Албанской церкви имени Святого Елисея в поселке Нидж Габалинского

района (Албано-удинская церковь Чотари) и церкви "Святых Жен-Мироносиц", построенной еще в начале XX века азербайджанским миллионером и меценатом Гаджи Зейналабдином Тагиевым (Патриарх Московский и всея Руси Алексий II дал этому храму статус главной кафедральной церкви), сдача в пользование новой еврейской синагоги, считающейся одной из самых больших синагог в Европе (в ее строительстве активное участие принимали зарубежные еврейские организации, Бакинская и Прикаспийская епархия Русской православной церкви и Управление мусульман Кавказа; участие мусульман и христиан в строительстве синагоги и оказание помощи в этом деле считается беспрецедентным случаем во всем мире), открытие в Баку католической церкви Пресвятой Девы Марии, реставрация и основательный ремонт немецких лютеранских церквей в Баку и Шамкире, открытие после основательной реконструкции Государственного историко-архитектурного заповедника "Храм Атешгях", являющегося в различные периоды местом поклонения зороастрийцев, индуистов и сикхов, строительство еврейского исторического музея в Губе, открытие по случаю 200-летия переселения немцев в Азербайджан Музея немецких колонистов в Гёйгёле и многие другие подобные инициативы являются наглядным доказательством того значения, которое придается в республике сохранению культурного наследия.



Шестикупольная синагога, Губа



Немецкая Лютеранская церковь, Гёйгёль

Неудивительно, что посетившие Азербайджан в различные годы официальные лица отмечали высокий уровень царящей в стране религиозной толерантности и подчеркивали, что существующие в республике терпимые отношения между религиями могут стать хорошим примером для других стран мира.

Таким образом, специфической чертой царящей в Азербайджанской Республике толерантности является отношение представителей различных религиозных конфессий друг к другу и государства к ним в целом и частности. Принимая руководителей конфессий, Президент Ильхам Алиев проводит с ними консультации, официально поздравляет всех верующих со знаменательными религиозными праздниками и церемониями. Целый ряд священных мест, памятников, религиозных символов и предметов реставрируется и охраняется со стороны государства. Азербайджан также был пристанищем и убежищем и для привер-



Католическая церковь
Пресвятой Девы Марии, Баку

женцев различных религиозных течений. Исследователи отмечают, что до сих пор не было ни одной этнической или же религиозной группы, которая, поселившись на территории Азербайджана, покинула бы страну по причине нетерпимости и преследования. Религиозные и этнические группы, поселившиеся на территории Азербайджана в различные периоды истории, не только не чувствовали себя здесь чужими, но и, слившись с местным населением, установили родственные связи, боролись за государственный суверенитет и территориальную целостность страны. Объединив в себе различные народы и этнические меньшинства, единый азербайджанский народ всегда отличался и отличается этой своей специфической чертой не только на Востоке, но и во всем мире. Эта черта проявила себя и во время Карабахских войн: в боях за Родину плечом к плечу сражались граждане Азербайджана независимо от этнической и религиозной принадлежности, все праздновали Победу, церемонии памяти павших на поле боя шехидов прошли во всех храмах республики.

Развитие межкультурного и межцивилизационного диалога является одним из основных направлений внешней политики Азербайджана. Говоря об этом, президент НАНА, академик Рамиз Мехтиев в своей статье "V Бакинский международный гуманитарный форум - площадка мирового масштаба, которая дает понимание, в каком направлении обществу надо двигаться" отмечает, что одним из соответствующих мероприятий является "Бакинский процесс" - инициатива, направленная на развитие диалога и сотрудничества между различными культурами мира: "В 2008 году мы пригласили министров культуры стран-членов Организации исламского сотрудничества на состоявшийся в Баку Форум министров культуры стран-членов Совета Европы, была проведена совместная сессия. Это вызвало огромный резонанс в мире. Наша деятельность в этом направлении была удостоена высокой оценки, данная встреча, инициатива получила название "Бакинский процесс". А в 2009 году мы приняли министров культуры стран-членов Организации исламского сотрудничества и пригласили на эту встречу министров культуры из



Кафедральный собор святых
Жен-Мироносиц, Баку

Европы. Таким образом, по нашей инициативе начался очень важный новый процесс", который, начиная с 2010 года, стал превращаться в глобальное событие. В основе выдвижения Азербайджаном такого глобального процесса стоит фактор разнообразия религиозных общин, этнических групп, а также культурное многообразие, сложившееся исторически на территории Республики.

В июне 2018 года в Париже при поддержке Фонда Гейдара Алиева, посольства Азербайджана во Франции и постоянного представительства при ЮНЕСКО был отмечен 10-летний юбилей "Бакинского процесса".

С превращением "Бакинского процесса" в глобальное движение в Баку прошли международные форумы и конференции, посвященные развитию межкультурного и межцивилизационного диалога в мире. Среди этих мероприятий необходимо отметить саммиты религиозных лидеров мира, всемирные форумы по межкультурному диалогу, международные гуманитарные форумы, VII Глобальный форум альянса цивилизаций ООН, а также конференции, посвященные прошлому, настоящему и будущему удинского этноса, традициям и укреплению религиозной толерантности, прошлому и настоящему Албанской апостольской церкви, межрелигиозному диалогу и борьбе с радикализмом и т.д.

Роль всех вышеперечисленных мероприятий в налаживании тесных связей между различными народами, представителями разных конфессий и культур подчеркивали и подчеркивают все участники форумов, конференций, сессий. В вышеназванной статье академик Рамиз Мехтиев приводит интересную цитату из статьи писателя Рауля Ловери Контрераса "Напрасны ли были жертвы?", опубликованной в газете "The Porterville Recorder": "Что могло объединить рожденного в Испании римско-католического священника, епископа баптистов из Гватемалы (Южная Америка) и мусульманского имама из Лос-Анджелеса? Все вместе они летели на самолете в Стамбул, а потом в Баку - на участие в гуманитарном форуме. Затем вместе посетили поселок Красная слобода в Губе, где горские евреи традиционно проживают вместе с азербайджанцами". Эти слова прекрасно характеризуют всю специфику толерантности, сложившейся в Азербайджане.



Мечеть Биби-Эйбат, Баку

Именно поэтому лица, которые сравнивают азербайджанский народ с теми, кто разрушил Пальмиру и прочие жемчужины архитектуры, то есть с боевиками террористических организаций, которым чужды все человеческие и духовные ценности, должны серьезно задуматься над своими словами и призывами. Приведенные в статье факты являются лишь малой толикой работы, которая ведется в республике в данном направлении. Чтобы убедиться в этом, достаточно просто приехать в Азербайджан, посетить все эти храмы, а также поговорить с представителями различных этносов и конфессий (кстати, в век технологий даже приезжать не нужно, вся информация хранится в свободном доступе в Интернете). А затем необходимо посмотреть на сложившуюся в данной сфере ситуацию и отношение к различным верованиям, народам и культурам у себя в странах. Уверены, нужды в излишних комментариях не будет...



**Şəms İMRANİ**
*AMEA akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu*



**Nigar RƏFİYEVA**
*Azərbaycan Dillər Universiteti*

# Dağlıq Qarabağ və ətraf rayonlarının turizm potensialı

**Müasir dövrün tələblərinə uyğun olaraq hər bir ölkənin iqtisadi durumu nəzərə alınmalı və onun potensial imkanları hərtərəfli öyrənilməlidir. Bu baxımdan, Dağlıq Qarabağ və ərtaf rayonlarının iqtisadi potensialının tədqiqi günümüzün əsas prioritet məsələlərindən birinə çevrilmişdir. Dağlıq Qarabağ və ərtaf rayonlarının iqtisadiyyatın ən gəlirli sahələrdən biri turizm sektorunu hesab etmək olar. Çünki turizm bu gün dünyada ən sürətli inkişaf edən xidmət sahəsidir. Dünya ölkələrinin sosial-iqtisadi inkişafında turizmin payı kəskin artmaqdadır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr öz iqtisadiyyatını şaxələndirərək turizmə də diqqət verir, ölkənin gəlirlərində turizmin payını artırmağa çalışırlar.**

Turizmin inkişafında, onun məhsulunun senqmentləşməsi ilə istehsal bazarı arasında əlaqə sahələr və sahələrarası komplekslərlə baş verir. Turizm fəaliyyətinin sənaye, kənd təsərrüfatı və uyğun infrastruktur ilə əmtəə-xidmət mübadiləsi və təsərrüfat əlaqələri mövcuddur. Bu əlaqələr tənzimləmə və idarəetmə obyekti olaraq tarazlı inkişaf prizmasından formalaşdırılır və uyğun mexanizmlər ilə idarə olunur. Məhz bu baxımdan, Dağlıq Qarabağ və ətraf rayonlarında turizm sektorunun inkişaf etdirilməsi yolu ilə digər sahələrin də inkişafına təkan vermək mümkündür. Bu istiqamətdə dövlətin siyasəti maraqları ön plana alınmaqla regionda turizm sektorunu yüksək templə inkişaf etdirmək olar. Bunun üçün regionun əlverişli iqlim şəraiti, təbii və antropogen turizm abidələri vardır.

Relyef baxımından Dağlıq Qarabağ və ətraf rayonları dağlar və düzənlik ərazilərdən ibarətdir. Ərazidə Murovdağ və Qarabağ silsilələri Qarabağ və Mil düzlərinə tərəf alçalan bir neçə yan qola ayrılmışdır. Silsilələr və onların yan qollarının çaylarla parçalanması nəticəsində dərin və sıldırım yamaclı dərələr əmələ gəlmişdir. Ərazisində dağ silsilələri və yaylalar üstünlük təşkil etsə də, dərin dərələr, dağarası çökəkliklər, düzənliklər bir-birini əvəz edir. Təbiəti sevən və onun üstünlüklərindən yararlanan ekoloji turizm həvəskarlarının bu ərazilərə səfərlərini təşkil etmək üçün potensial imkanlar vardır. Hesab edirik ki, ərazidə piyada turizm marşrutları və turistlərin istirahətini təmin etmək üçün piknik yerləri təşkil edilməlidir.

Dağlıq Qarabağ və ətraf rayonlarının turizm məqsədilə əsas prioritet istiqamətlərindən biri iqlim amili ilə bağlıdır. Çünki iqlim turizm növlərinin inkişafı üçün əlverişli şərait yaradan əsas meyardır. Bu baxımdan, turistlərin müalicəsi və sağlamlığı üçün əlverişli təbii-iqlim şəraiti olan rayonlar xüsusi maraq doğurur. Dağlıq Qarabağ və ətraf rayonlarının dağətəyi və orta dağlıq zonasında əsasən qışı quraq keçən mülayim isti, yüksək dağlıq zonada isə qışı quraq keçən soyuq iqlim tipi hakimdir. Düzən və dağətəyi yerlərdə orta temperatur yanvarda 2-0,5°C, yüksək dağlıqda -5-

13°C-yə qədərdir. İyul ayında isə bu göstərici müvafiq olaraq 25-26°C və 15-14°C təşkil edir. İllik yağıntı düzən və dağətəyi yerlərdə 500-600 mm, yüksək dağlıqda 800-950 mm-dir. Havanın orta sutkalıq temperaturu dağlıq ərazilərdə 10°C-dən yuxarı olan günlərin sayı düzənliklərdə 210, orta dağlıqda 190, yüksək dağlıqda 50-120 gün arasında dəyişir. İllik günəş radiasiyası düzənlik və orta dağlıq zonalarda 132-136 kkal/sm$^2$-dan başlayaraq yüksək dağlıqda 140-144 kkal/sm$^2$-dək artır. İllik günəş radiasiyası şaquli istiqamətdə düzənlik və dağətəyi zonalarda 3000-3800°C, dağlıq ərazilərdə 800-200°C arasında dəyişir.

İqlim amili ilə yanaşı, turizm sektorunun inkişafında əsas yerlərdən birini landşaft və onun komponentləri tutur. Dağlıq Qarabağ və ətraf rayonlarının təbii şəraitində dağlıq landşaft üstünlük təşkil edir. Eyni zamanda, regionun cənub hissəsi, İranla həmsərhəd olan zona Arazboyu maili düzənliklərdən ibarətdir. Meşələr əsasən, dağlıq zonada Kəlbəcər və Laçın rayonlarında, düzən və dağətəyi sahələr isə Zəngilan və Qubadlı rayonları ərazilərində geniş yayılmışdır. İqlim amili və meşə ehtiyatları nəzərə alınmaqla, bu ərazilərdə, əsasən də Şuşa və Xankəndi şəhərlərində balneoloji dağ-iqlim kurortlarının yaradılması üçün əlverişli şərait vardır. Şuşa şəhərinin görməli yerlərinə "Cıdır düzü"nü, Daşaltı uçurumu kənarında və Daşaltı çayına gedən yolda məşhur "Qırx pilləkən"i, "Xəzinə qalası"nı misal göstərmək olar.

Dağlıq Qarabağ və ətraf rayonlarında balneoloji-turizm ehtiyatlarına mineral və termal sular aiddir. Regionda kifayət qədər mineral və termal sular vardır. Bunlara Kəlbəcərdə Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçında İlıqsu, Minkənd, Şuşada Turşsu, Şirlan mineral suları müalicəvi əhəmiyyətlərinə görə fərqlənirlər. Bundan başqa, Şuşada İsa bulağı, Soyuq bulaq, Çarıx bulaq, Saxsı bulaq, Qırx bulaq, Yüz bulaq və s. bulaqları da misal göstərə bilərik. Regionda mineral suların və bulaqların bazasında kurort komplekslərinin və istirahət zonalarının yaradılması üçün münbit şərait vardır. Bu imkanlardan bəzilərini diqqətə çatdırmaq istərdik.

Kəlbəcər rayonu ərazisində dəniz səviyyəsindən 2300 m yüksəklikdə yerləşən İstisu mineral bulağı kimyəvi tərkibinə (karbon qazlı), yüksək temperaturuna (21-61°C) və böyük təbii ehtiyat potensialına görə fərqlənən yataqlardandır. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bulağın suyu dünyada məşhur olan Karlovı Varı (Çexiya) bulaqlarının suyu ilə eynidir. İllik axımı 600 mln litr olan bu suyun balneoloji əhəmiyyətini artıran onların radioaktivliyidir. İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. 1928-ci ildə isə mineral bulağın bazasında eyni adlı sanatoriya tikilib istifadəyə verilmişdir. İstisu mineral bulağının suyundan insanlar bir çox həm daxili, həm də xarici xəstəliklərin müalicəsində istifadə edirlər.

Regionda İstisu mineral bulağından başqa 31 mineral bulaq vardır ki, onlar da kurort-rekreasiya müəssisələrinin yaradılması üçün geniş imkan yaradır. Məsələn, Xankəndi şəhəri mədə-bağırsaq müalicəsi üçün karbonlu sularla zəngin olan yerlərdən biridir. Bu səbəbdən, Xankəndi şəhəri kurort şəhəri hesab edilir. Şəhərdə kurort-rekreasi-



Kəlbəcər İstisu mineral bulağı



Azıx mağarası

ya müəssisələrin genişləndirilməsi nəzərdə tutulmalıdır.

Bilirik ki, Azərbaycan ərazisində ilk insan 350-400 min il bundan əvvəl yaşamış Azıxantrop hesab olunur. Onun qalıqları Füzuli şəhərinin 16 km-də, Quruçayın sol sahilindəki Tuğ çökəkliyində yerləşən Azıx mağarasında tapılmışdır. Azıx mağarası 1960-cı ildə Azərbaycan arxeoloqu Məmmədəli Hüseynovun rəhbərlik etdiyi ekspedisiya tərəfindən aşkar edilib. Mağarada uzunluğu 600 m-ə qədər uzanan 8 dəhliz var. Dəhlizlərin bəzilərinin hündürlüyü 20-25 metrə qədərdir. Mağaranın sakinləri ovçuluqla məşğul olublar. Mağaradan tapılmış 45 növ heyvan sümüyü bunun əyani sübutudur.



**Şuşa məscidi**

Azıx mağarası ilə yanaşı, Xocavənd rayonunda Tağlar mağarası da vardır ki, bu da Mustye mədəniyyətinə aid ən möhtəşəm mağara-düşərgədir. Tağlar mağarası Azıx mağarasından 3 km qərbdə yerləşir. Tağlar mağarasında aparılan arxeoloji qazıntılar zamanı 8 mindən artıq daş məmulatı və 600 mindən çox ovlanmış heyvan sümükləri aşkar edilmişdir.

Qeyd etdiyimiz mağaralarda ibtidai insanların məskənləri aşkar edilmişdir. Köndələnçayın sıldırım sahillərində Qaraköpəktəpə yaxınlığında da qədim insan məskəni olmuşdur. Burada daşdan düzəldilmiş əmək alətləri, silahlar, bəzək əşyaları, çoxsaylı keramik və metal məmulatlar tapılmış, qədim tikililərin qalıqları aşkar edilmişdir. Gələcəkdə Azıx və Tağlar mağaraları, eləcə də regionda olan digər mağaralar speloturizmin (mağara turizminin) inkişafında müstəsna rol oynaya bilər.

Mədəni irs turizminin inkişaf etdirilməsi üçün regionda antropogen turizm abidələrindən Şuşa şəhərini hər iki tərəfdən əhatə olunmuş qala divarlarını, Bayat qalasını, Şahbulaq qalasını, Əsgəran qalasını, Karvansaranı, qoşa minarəli Cümə məscidini, Xəzinə qalası deyilən mağaranı, Amaras monastrını, Xudafərin körpüsünü, Laləzar körpüsünü, Gavur yatağında mağara-ziyarətgahlarını, Hacı Bədəl körpüsünü, Tərtər, Kəngərli, Qaradağlı, Qaynaq, Azad Qaraqoyunlu kəndlərində bir sıra memarlıq obyektlərini, artilleriya generalı Mehmandarovun evini, şair və rəssam Mir Mövsüm Nəvvabın evini, görkəmli bəstəkar Üzeir Hacıbəylinin ev-muzeyini, şair Vaqifin məqbərəsini və s. misal göstərmək olar. Bunlarla yanaşı, regionda ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidələrinin sayı daha çoxdur.

Yuxarıda qeyd etdiyimiz müsbət cəhətlərlə yanaşı, bildirmək istərdik ki, erməni separatçılarının yürütdüyü mənfur siyasətin nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlarda olan maddi mədəni irsə ziyan vurulmuş, bir çox dünya təşkilatları tərəfindən qorunma altında olan abidələrə ciddi ziyan dəymişdir. Burada dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çox, dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən çox, qəbiristanların sayı 900-dən artıqdır. Tarixi-dini abidələrin 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində bu abidələrə dəymiş ziyan 100 mlrd ABŞ dollarından çoxdur (bu rəqəm Beynəlxalq Qiymətləndiricilər Assosiasiyası tərəfindən dəqiqləşdirilir).

İnanırıq ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ətraf rayonlarında əldə etdiyi qələbə və yürütdüyü siyasət nəticəsində yaxın gələcəkdə erməni separatçıları tərəfindən dağıdılmış, yandırılmış və məhv edilmiş tarixi abidələrimiz tezliklə öz əvvəlki görünüşünü əldə edəcək, keçmiş dövrlərdə olduğu kimi, bu ərazilərdə yenidən iqtisadi canlanma başlayacaq, yerli və xarici turistlər regiona müxtəlif məqsədli istirahət, əyləncə, idman, müalicə turları təşkil edəcəkdir.



**Ульвия ГАДЖИЕВА**
*ведущий научный сотрудник отдела "Этноархеология"Института археологии и этнографии НАНА, доктор философии по истории*

# Албанский монастырь Кяльбаджара - Дадиванк / Худаванк

**Кяльбаджар - древняя историческая земля Азербайджана, и христианские храмы на его территории являются составной частью албанского этнокультурного наследия.**

**Как известно, территория нынешнего Нагорного Карабаха и часть Мильской степи известна под наименованиями "Орхистена" у античных авторов I в. до н.э., "Арцах" - впервые в "Авесте" в значении "страна, область ветров"; топонимы "Арцах", "Хачен" в V-XIX вв. в албанских, древнегрузинских, византийских, арабских, а с XII в. в грузинских и персидских источниках - "Карабах" (с тюрк. языка "большие сады", "черные сады").**

Согласно сведениям архиепископа Макара Бархударянца в его труде "Арцах", опубликованном в 1895 г., монастырь Дадиванк/Худаванк "впервые по преданию был основан учеником апостола Фаддея по имени Дади. Неизвестен год постройки, т.к. древность эта в разные времена постепенно реставрировалась, таким образом, древность целиком исчезла". Монастырь также назывался "Худа" или "Гота".

Следует отметить, что в апостольский период указанная территория согласно письменным источникам и археологическим данным входила в состав государства Кавказская Албания (IV в. до н.э. - VIII в. н.э.), границы которой простирались "от Дербента до Аракса на юге и от Каспийского моря до крепости Хунаракерт на западе, на границе с Иберией". Область Арцах делилась на ряд округов, одним из которых был Росток (ныне Кяльбаджар), где и был основан монастырь Дадиванк/Худаванк, который нужно считать албанским христианским культовым памятником апостольского периода.

Необходимо подчеркнуть, что независимая конфессиональная деятельность Албанского (Агванского) Апостольского католикосата осуществлялась на протяжении IV - начала XIX вв. в рамках целой страны - Албании (до VIII в.), а затем только в Карабахе.

После падения Албанской государственности албаны-христиане создали ряд независимых феодальных государственных образований, среди которых следует указать Арцах-Хаченское княжество-царство XII-XIV вв., включающего в себя земли Карабаха (Верхнего Хачена, Нижнего Хачена) и Атерка (левобережье реки до монастыря Дадиванк). Вопрос этнического происхождения Арцах-Хаченского династического албанского царствующего рода

рассматривался известными историками, одни из которых возводили их к Михранидскому роду, другие - к маскутским Аршакидам. К концу XII в. центром этого княжества был бассейн рек Хачен-чай и Тертер, оно занимало территорию Арцаха и Ути. Как отмечалось в "Аджаибад-дунйя", Хачен являлся округом, входящим в состав Аррана, его территория охватывала труднодоступную, гористую местность и лесные массивы. С 1142 г. во главе Хаченского дома стоял х'Асан, сын Сакара Вахтанга, оставивший несколько надписей. х'Асан женился на Мама-Хатун, дочери царя Кюрике. В 1182 г. х'Асан, после 40-летнего правления, вместе со своей женой постригся в монахи. У него было шесть сыновей. Следует отметить, что х'Асан именует себя владетелем крепости х'Атерк, х'Андаберд, Хаченаберд и х'Авкахагац.

Один из сыновей х'Асана - Вахтанг, прозванный Танкик или Тонкик, владетель Нижнего Хачена, женился на Хоришах, сестре знаменитых в истории Кавказа братьев Захарии Спасалара и Иванэ Атабека Долгоруких-Аргутинских. У Вахтанга от брака с Хоришах было три сына и три дочери. Одним из трех сыновей был Гасан Джалал, род которого имел родственные связи с влиятельными домами той эпохи, как отмеченными Аргутинскими-Долгоруками, так и с родом Орбели - правителями Сюника.

Эта историческая справка об Арцах-Хаченском княжестве-царстве дана для того, чтобы еще раз напомнить, что вся эта информация содержалась в эпиграфике монастыря Дадиванк/Худаванк еще в конце XIX в. и была зафиксирована и передана в труде "Арцах" Макара Бархударянца. В своем труде автор дает архитектурное описание: монастырь "имеет старинную ограду", "в (663) 1214 г. по приказанию благочестивой супруги царевича Вахтанга при монастыре была сооружена на 4-х колонах из тесаного камня дивная пристройка"; "храм и притвор были построены по приказанию Арзу-хатун в качестве усыпальницы Вахтангова рода";"колокольня построена на том же очень древнем, узком и длинном монастыре, который был основан во



имя апостола Дата и затем неоднократно реставрирован. Епископ Григорий (XVI в.) построил церковь на 4-х колонах недалеко от этих монастырей". В XII в. "настоятелем монастыря был сын царевича Вахтанга епископ Григорий".

В эпиграфике монастыря Дадиванк/Худаванк было сказано: "Волею Божьей я х'Асан сын Вахтанга, владетель х'Атерка и х'Анаберта, Хаченаберта и х'Авкахагаца пробыл начальником 40 лет, многими войнами победил моих врагов, и было у меня 6 сыновей, я отдал им свои крепости и свою область и сам прибыл в сей монастырь к брату моему Григорию и сделался я монахом в 631 (1182) г.".

В эпиграфике также были указаны имена албанской правящей знати: царицы и супруги х'Асана, дочери царя Кюрике 631 (1182) г.; Арзу-хатун, дочери великого князя князей Курда и супруга царевича Вахтанга, владетеля х'Атерка и всего Верхнего Хачена и их детей х'Асана, Григория (1214) г.; Мамка, супруга х'Асана и сын Григорий и его супруга Аспа 761 (1312) г., а также упомянуты настоятели и католикосы, похороненные в монастыре Дадиванк/Худаванк: Захария, Атанас, Григорий, и указаны земли, подаренные албанской правящей знатью в течение веков этому албанскому храму.

Согласно сведениям М.Бархударянца, каждый округ Арцаха (Карабаха) на протяжении веков имел свой собственный монастырь и своего отдельного окружного настоятеля с монахами, который в своем монастыре управлял паствой того округа. Монастырь Дадиванк/Худаванк являлся епископатом Ростокского округа и подчинялся независимому Албанскому (Агванскому) католикосату до 1828 г. "Еще в 1828 г. по свидетельству очевидцев монастыри были обитаемы и в цветущем состоянии. Но, как известно, после прекращения Агванского католикосата, т.е. после 1828 г. монастыри постепенно начали хиреть, лишаться монашеских групп, и, оставаясь без присмотра, по большей части стали разрушаться".

Как известно, в Азербайджан и в Карабах в частности армяне массово были переселены царизмом только после Туркманчайского (1828) и Адрианопольского (1829) договоров из Персии и Турции. В силу конфессиональной политики царизма албанские христианские храмы Карабаха, в числе которых был и монастырь Дадиванк/Худаванк, в качестве Карабахской епархии были подчинены царизмом Армянской Эчмиадзинской церкви. После чего в конце XIX века этот албанский храм имел плачевный вид, о чем сообщал М.Бархударянц: "Жаль, жаль, тысячу раз жаль, разрушаются и разоряются эти великолепные монастыри, отняты, как мы видели, принесенные в дар монастырям в разные времена разными властителями громадные поместья, леса и земли". Эти сведения еще раз показывают, как на протяжении 1828-1895 гг. армяне разрушали албанское христианское этнокультурное наследие, на которое никогда не имели и не имеют никакого исторического, конфессионального и юридического права. Царизма давно нет и его указы недействительны!

Азербайджан является единственным хранителем албанского этнокультурного наследия. Монастырь Дадиванк/Худаванк - это албанский храм Кяльбаджара, истоки возникновения которого восходят к апостольским временам, центр Ростокского епископства независимого Албанского (Агванского) Апостольского католикосата. Он является частью албанского конфессионального наследия Азербайджана, и лишь одни из прямых потомков албан - удины являются единственной христианской паствой всех албанских храмов и монастыря Дадиванк/Худаванк в частности.



**Zaur ƏLİYEV**
*AMEA Elm Tarixi İnstitutunun elmi katibi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

# Erməni vandalizminin qurbanı Ağdam məscidi

**Ağdam Cümə məscidi 1868-1870-ci illərdə tikilmişdir. Memarı Kərbəlayi Səfixan Qarabaği olan məscid iki minarəli və ikimərtəbəlidir. Kərbəlayi Səfixan Qarabaği 1870-ci ildə Ağdama dəvət olunmuş və burda o, qoşa minarəli yeni bir məscid tikmişdir. Dəqiq riyazi və həndəsi analizlərlə layihələr işləyən və bu layihələri tikinti meydançasında bilavasitə öz əlləri ilə icra edərək bir millimetr belə səhvə yol verməyən bu memar Ağdam məscidini Şərq və Qarabağ memarlıq üslubunda tikib.**



Ağdam Cümə məscidi yerli inşaat materialları ilə ənənəvi milli memarlıq üslubunda tikilmiş abidədir. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən qalxan minarələr isə kərpicdən hörülmüşdür. Ağdam Cümə məscidinin ibadət salonunun planının əsasını ortasında dörd sütun olan ənənəvi kvadrat forma təşkil edir. İbadət salonunun cənub divarının ortasında uca mehrab tağcası quraşdırılıb. Yan tağcaların üstü interyerə yonələn eyvan şəklində olub qadınların ibadəti ucun nəzərdə tutulmuşdur. İbadət salonu yan eyvanların ortalarında və mehrab tağcasının yanlarında olan pəncərələrdən işıqlanır. Sadə bəzəkli mehrab tağcasının üzərindəki kitabədə dekor ustasının adı (mərhum Kərbəlayi Nəqqaş Təbrizinin oğlu ustad Məhəmməd Nəqqaş Təbrizi) və təmir tarixi (hicri 1331, miladi 1913-cu il) yazılmışdır. Məscidin şimal tərəfindəki giriş qapısı dərin eyvan-bastağ icərisində verilmiş, açıq eyvanın yanlarında isə ikimərtəbəli otaqlar yerləşdirilmişdir. Ağdam Cümə məscidinin portalı ümumi quruluşu ilə Bərdədəki İmamzadə məscidinin portalına bənzəyir. Bu, onu göstərir ki, Səfixan əvvəl tikdiyi binaların maraqlı memarlıq və konstruksiya elementlərini bir ənənə şəklində yeni binalarda da tətbiq etmişdir. Lakin göründüyü kimi, bu elementlər bayağı və yersiz yox, məhz kompozisiyanın tələblərinə uyğun həll olunur. Sütunlar üzərinə

oturdulmuş səlis xətli tağbənd və günbəz formalı örtük konstruksiyası, mütənasib qamətli dörd ədəd səkkizbucaqlı daş sütunun ibadət zalında paralel düzülüşü onu üç yerə ayırır.

Ağdam şəhəri 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və Azərbaycan memarlığının incilərindən sayılan Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Məscidin bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumşaq inventarları qarət edilərək Ermənistan Respublikasına aparılmışdır.

Məscidin daxili və xarici divarları üzərində erməni və rus dillərində Azərbaycan xalqına və millətinə qarşı alçaldıcı və təhqiredici ifadələr və sözlər yazılmışdır.

Ermənilər işğal dövründə məscidin ibadət zalından və yardımçı otaqlarından mal-qara və donuzların saxlanması, yəni tövlə kimi istifadə ediblər. 2016-cı ildə Ermənistan prezidenti Serj Sərkisyanın İrana səfəri ərəfəsində Ağdam Cümə məscidinin içərisini peyindən təmizləmək üçün erməni ordusunun Qarabağdakı komandanlığına göstəriş verildi. Bir ay ərzində məscidin içərisi və ətrafı erməni əsgərləri tərəfindən peyindən təmizləndi. Lakin sonradan yenidən məcsid donuz və mal-qara üçün tövlə rolunu oynadı.

Abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə Ölkə əhəmiyyətli daşınmaz Tarix və Mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir.

Ağdamın işğaldan azad olunmasından sonra cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məscidi ziyarət etməsi, Məkkədən gətirilən “Qurani-Kərim”in ora qoyulması dinimizə və inancımıza olan böyük sevgi və sayğının göstəricisidir. Ağdam məscidi yenidən bərpa olunacaq və ağdamlılar, qarabağlılar ora ibadətə gəlib Ali Baş Komandan və Azərbaycan ordusu üçün dualar edəcəklər.









**Ramil AĞAYEV**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu "Azərbaycanın orta əsrlər tarixi"şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

# Xudafərin körpüləri və Azərbaycan tarixində onların rolu

**İlkin yazılı qaynaqlarda Araz çayı, onun sahilindəki yaşayış məskənləri, həmin yaşayış məskənlərində məskunlaşmış türkmənşəli əhali, eləcə də çayın üzərində salınmış körpülər haqqında maraqlı məlumatlar verilir. Araz çayı üzərində tarixən bir neçə körpü salınmışdır. Onlardan heç şübhəsiz, ən məşhuru Azərbaycan qədim memarlıq incisi sayılan Xudafərin körpüləridir. Bu körpülər memarlıq üslubuna görə nəinki Azərbaycanın, həm də bütün Yaxın və Orta Şərqin ən əzəmətli tikintiləri sırasına daxildir. Təsadüfi deyildir ki, bəzi mənbələrdə bu körpülər "Asari-əzim" ("Böyük abidələr") adlandırılmışdır.**

Xudafərin körpüləri Cəbrayıl rayonunun Qumlaq kəndinin ərazisində, Diridağın ətəyində, Araz çayı üzərindədir. Mənbələrin verdiyi məlumata görə, körpünün dayaqları insan əli ilə salınmış bünövrə üzərində deyil, çayın içərisində olan təbii qayalar üzərində salındığına görə onlara "Allah tərəfindən yaradılmış", yəni Xudafərin adı verilmişdir.

Xudafərin körpülərinin salınması üçün təbii və coğrafi baxımdan olduqca əlverişli bir yer seçilmişdir. Xudafərin körpüləri elə bir məkanda yerləşir ki, onun sağından Cənubi Azərbaycandakı Qaradağ silsiləsinə, solundan isə Şimali Azərbaycandakı Qarabağ bölgəsinə giriş başlanır. Təsadüfi deyildir ki, Aşıq Qurbani yazır:

*İsmim Qurbanidi, kəndim Diridi,*
*Qaradağdan Qarabağa gedirəm.*

Xudafərin körpüsü yüz illər boyunca Şimali və Cənubi Azərbaycan arasında iqtisadi, ticarət və hərbi-siyasi münasibətlərdə müstəsna rol oynamışdır. Başqa sözlə, bu körpülər Arazın o tayı ilə bu tayı arasında birliyin, vəhdətin simvolu olmuşdur. Azərbaycanın yerli əhalisi özlərinin gündəlik həyatında bu körpülərdən geniş şəkildə istifadə edirdilər. Yazılı qaynaqların məlumatlarından belə qənaətə gəlmək olar ki, bu və ya digər səbəblərdən Arazın şimalında olan tayfaların cənubda, Cənubi Azərbaycandan olan tayfaların isə şimalda məskən salması adi bir hal olmuşdur. Başqa sözlə, Arazın şimalı ilə cənubu arasında daimi sıx əlaqələr olmuş, çayın hər iki tərəfində yaşayan əhali eyni xalqın - Azərbaycan türklərinin təmsilçiləri olmuşlar.

Xudafərin körpüləri ilk dövrlərdən birləşdirici qovşaq rolunu oynamış, tarixi İpək yolunun mühüm elementi olmuşdur. Körpülərdən həm beynəlxalq, həm də Azərbaycan ərazisində daxili ticarət zamanı geniş şəkildə istifadə olumuşdur. Mənbələrin verdiyi məlumata görə, cənubdan şimala doğru körpüdən keçən ticarət karvanları üç istiqamətdə (Zəngəzur-İrəvan, Qarabağ, Muğan) ölkənin içərilərinə doğru hərəkət edərək Dərbəndə və Tiflisə qədər gedib çıxırdılar.

Körpülər bir sıra tarixi hadisələrin, xüsusilə, orta əsrlərdə baş vermiş hadisələrin bir növ canlı şahididir. Bu körpülərdən müxtəlif dövrlərdə mövcud olmuş bir sıra dövlətlərin orduları, cənub və şimal istiqamətində mühacirət edən tayfalar keçmişdir. Yazılı qaynaqları orta əsrlərdə baş vermiş müharibələr-

dən bəhs edərkən vuruşan tərəflərin, böyük fatehlərin bu körpüdən, həm cənub, həm də şimal istiqamətdə keçməsindən bəhs etmişlər. Ərəblər, Sacilər, Şəddadilər, Atabəylər, Monqollar, Xarəzmşahlar, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və ruslar dəfələrlə bu körpülərdən hərbi məqsədlə yararlanmışlar.

Araz çayı üzərindəki körpülər bəzən tarixi və təbii hadisələr zamanı dağıntılara məruz qalmış, lakin insan övladının məharəti sayəsində yenidən bərpa edilmişdir. Məsələn, Xudafərin körpüsü 1795-ci ildə Qarabağ xanı İbrahimxəlil xan Cavanşir tərəfindən Ağa Məhəmməd xan Qacarın yürüşünün qarşısını almaq üçün qismən dağıntıya məruz qalmışdır. Lakin Ağa Məhəmməd xan Qacar körpünü təmir etdirmiş və Qarabağa daxil olmuşdur.

Yazılı qaynaqların verdiyi məlumatlara görə, körpülərin dağılması həm də Araz çayının sürətlə axması və baş verən daşqınlarla bağlı olmuşdur. XVI əsrdə Azərbaycanda olmuş ingilis səyyahı Antoni Cenkinson yazır ki, sürətlə axmasına və dağıntılar törətməsinə görə, Araz çayının amansızlığı qədim dövrlərdən xalq arasında zərbül-məsəl olmuşdur. Təsadüfi deyildir ki, yazılı qaynaqlar onu "heç bir körpünün tab gətirmədiyi amansız çay" kimi təqdim etmişdir.

IX-X əsrlərdə yaşamış bir sıra ərəb coğrafiyaçıları, o cümlədən İbn Hövqəl Azərbaycan ərazisindən axan Araz (ər-Rass) çayının ətrafındakı dağılmış şəhər və kəndlərdən bəhs etmiş, bu çayın “Qurani-Kərim”in 25-ci surəsi olan "Furqan" surəsinin 38-ci və 39-cu ayələrində, 50-ci surəsi olan "Qaf" surəsinin 12-ci ayəsində adı çəkilən "həmin Rass (ər-Rass) çayı" olduğunu göstərmişdir: "Bu həmin Rassdır ki, Allah-taala onun xalqı barəsində nələr etdiyini xatırlatmışdır. Əgər hər bir kəs bu əraziyə diqqət yetirsə, Varsan (indiki Daşburun) şəhərindən keçərkən çayın hər iki sahili ilə aşağı-yuxarı qalxsa, onun üzərində dağılmış - onlardan bəziləri xarabalıqlardır - altı üstünə çevrilmiş şəhərlərin izlərini görə bilər".

Lakin tarixi və təbii hadisələrə baxmayaraq, Xudafərin körpüləri öz varlığını bu günlərə qədər qoruyub saxlamışdır. Ərəb və farsdilli mənbələrdə Xudafərin körpüsünün salınma tarixi və adı haqqında bir sıra tarixi məlumatlara, rəvayətlərə rast gəlinir və onları burada əks etdirmək imkan xaricindədir. Maraqlıdır ki, həmin müəlliflər bu körpülər haqqında hökmdarların məhz Cənubi Azərbaycandan Qarabağa, Şimali Azərbaycandan Qaradağa doğru hərəkəti zamanı bəhs etmişlər. Məsələn, Nadir şah Əfşarın tarixçisi yazır ki, şah 1736-cı ildə Təbrizdən Qarabağa getmək üçün Xudafərin körpüsündən keçdi və Qarabağın ilk nahiyəsi sayılan Bərgüşad qalasında məskən saldı.

Körpülərin memarlıq üslubu göstərir ki, onlar müxtəlif dövrlərdə salınmışdır. Həmdullah Qəzvininin yazdığına görə, körpü VII əsrin əvvəllərində Məhəmməd peyğəmbərin (s.a.s) səhabələrindən Bəkr ibn Abdullah tərəfindən inşa edilmişdir. Burada çox güman ki, söhbət ərəb sərkərdəsi Bukeyr ibn Abdullahdan gedir. Ərəbdilli mənbələr onun Azərbaycana h.18-ci (639-cu il) və h.22-ci (644-cü il) illərdə daxil olması haqqında məlumat verirlər.



A.A.Bakıxanov da qeyd edir ki, körpü Bukeyr ibn Abdullah tərəfindən salınmışdır. İran tarixçisi Rəhim Hüveyda doğru olaraq yazır ki, müsəlman tarixçiləri və coğrafiyaçıları əslində körpülərin ilkin salınması tarixindən deyil, onun bərpasından bəhs etmişlər. O, körpünün İslamdan əvvəlki dövrlərdə, miladdan öncə Əhəmənilər dövründə salınması haqqında fikir də səsləndirmişdir. Bəzi məlumatlara görə, 11 aşırımlı körpü daha qədimdir, ərəblər ona dağılmış vəziyyətdə rast gəlmiş və ona bənzər yeni körpünü - 15 aşırımlı körpünü inşa etmişlər. Bəzi tarixçilər 15 aşırımlı körpünün VII əsrdə inşa edildiyini, XI-XII əsrdə isə Səlcuqlar dövründə bərpa edildiyini göstərirlər.

Bəzi tədqiqatçılara görə, yunan mənbələrində 11 aşırımlı körpü Sirus (Kirus) körpüsü kimi yad edilir və burada Əhəməni hökmdarı II Kir (e.ə.550-530) başa düşülürdü. Belə ehtimal olunur ki, bu körpü III əsrdə Sasani şahı I Şapur tərəfindən yenidən qurulmuşdur.

Zəkəriyyə Qəzvininin "Əxbar əl-biləd" və "Əcaib əl-Məxluqat" adlı əsərlərində X əsrin 30-cu illərində baş vermiş hadisələrlə bağlı Araz çayı üzərindəki körpüdən bəhs edilmiş, Sacilərin sonuncu hökmdarı Deysəmin körpü ilə bağlı maraqlı məlumatı verilmişdir.

Türk tarixçisi Münəccimbaşı "Cami əd-düvəl" əsərində Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən 1027-ci ildə Araz çayı üzərində körpü tikildiyinə işarə edilmişdir. Bəzi tədqiqatçılara görə, bu, 15 aşırımlı Xudafərin körpüsü də ola bilərdi. Ancaq irəlidə gördüyümüz kimi, körpünün tarixi daha qədimdir.  XIII-XIV əsr tarixçilərinin əsərlərində Hülakü və Teymuri hökmdarlarının dəfələrlə bu körpüdən keçərək Qarabağda məskən salmasından bəhs edilmişdir.

Güman edilir ki, öz qarşısına vahid Azərbaycan dövləti qurmaq vəzifəsini qoyan Şah I İsmayıl Şirvana yürüşü zamanı Xudafərin körpüsündən keçərkən Aşıq Qurbani ilə görüşmüşdür. Qeyd etmək lazımdır ki, Aşıq Qurbani də öz şeirlərində Xudafərin körpüsündən bəhs etmiş ("Qolubağlı keçdim Xudafərindən"), onun yerləşdiyi yer haqqında məlumat vermiş və körpünün "Allahın töhfəsi" olduğuna işarə etmişdir:

*Əzizim Diri dağı,*
*Duman, gəl, bürü dağı.*
*Xudam bir körpü salıb,*
*Arxası Diri dağı.*

Xudafərin körpüləri bir-birindən 800 metr məsafədə yerləşir. Hər iki körpü Azərbaycan memarlıq incisi olmaqla yanaşı, həm də Yaxın və Orta Şərqin qədim ən qədim memarlıq abidələrindən sayılır. Körpülərdən biri 15 aşırımlıdır və İran mütəxəssislərinin yazdığına görə, uzunluğu 170 metrdir. Sovet Azərbaycanı dövrü elmi ədəbiyyatının verdiyi məlumata görə isə onun uzunluğu 200 metr, eni 5-6 metr, çayın ortasında suyun səthindən hündürlüyü isə 10 metrdir. 11 aşırımlı körpünün memarlıq üslubu 15 aşırımlıdan fərqlidir. Onun uzunluğu 130 metr, eni 6 metr, hündürlüyü isə 12 metrdir və daha çox dağıntıya məruz qalmışdır. Çar Rusiyası dövründə 15 aşırımlı körpü işlək vəziyyətdə olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra Sovet Azərbaycanı tərəfindən olan hissə bağlanmış və körpüyə giriş-çıxış qadağan edilmişdir.

1980-ci illərin sonlarında SSRİ ilə İran İslam Respublikası arasında razılığa əsasən Xudafərin su qovşağı tikilməsi haqqında qərar qəbul ediləndə körpülərin başı üstünü məhv olmaq təhlükəsi aldı. Bu zaman bəzi "mütəxəssislər" körpülərin suyun altında qalmaması üçün onun yerinin dəyişdirilməsini təklif edirdilər. Lakin xalqımızın mütərəqqi ziyalıları buna imkan vermədilər. Belə ki, tarixi sınaqlardan keçərək günümüzə qədər gəlib çıxmış körpülərin yerinin dəyişdirilməsi bir memarlıq abidəsi kimi onun həqiqi simasının yox olmasına, o tayla bu tayın birlik rəmzi olan ən mühüm nişanənin ortadan qalxmasına gətirib çıxara bilərdi. Başqa sözlə, bu, qədim köklərimizin özümüz tərəfindən qazıyıb yox edilməsi anlamına gələ bilərdi.

1990-cı illərin əvvəllərində respublikamız müstəqillik əldə etdikdən sonra xalqımız yenidən körpü ilə bilavasitə təmasda olmaq imkanı əldə etmişdir. Bundan sonra erməni işğalına qədərki dövrdə körpünü görmək həsrətilə Azərbaycan Respublikasının müxtəlif bölgələrindən insanlar onu axın-axın ziyarət edirdilər. Nəhayət, 19 oktyabr 2020-ci ildə qəhrəman ordumuz tərəfindən Cəbrayıl rayonunun bir sıra kəndləri, o cümlədən Qumlaq və Xudafərin kəndləri işğaldan azad edildikdən sonra xalqımızın körpü həsrəti ortadan qalxdı. Bu hadisə nəinki Şimali Azərbaycan əhalisi, eləcə də Arazın o tayından hərbi əməliyyatları izləyən, bu taydakı qardaşlarına dəstək olan Cənubi Azərbaycan türklərinin sonsuz sevincinə səbəb oldu və onlar da bu hadisəni təntənəli şəkildə bayram etdilər. 16 oktyabr 2020-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Xudafərin körpüsü üzərində üçrəngli bayrağımızı qaldırması xalqımızın erməni işğalçıları üzərində parlaq qələbəsinin və Xudafərin həsrətinin bitməsinin əbədi simvolu oldu.

Beləliklə, Xudafərin körpülərinin ölkəmizin iqtisadi, siyasi və mədəni tarixində əvəzsiz rolu olmuşdur və bu körpülər o taylı-bu taylı Azərbaycanın birliyinin əvəzedilməz rəmzidir. Digər tərəfdən, qədim Azərbaycan memarlarının möhtəşəm zəka məhsulu olan bu körpülər ticarət, hərbi-siyasi məqsədlərlə yanaşı, türk xalqlarının qarşılıqlı mədəni əlaqələrinin inkişafında da mühüm rol oynamışdır.

# Исследуя недра Земли

## **Лев Эппельбаум:** Звание почетного профессора АГУНП - это высокая награда

**Недавно известному израильскому и азербайджанскому геофизику Льву Эппельбауму за совокупность научных открытий присвоили звание почетного профессора Азербайджанского государственного университета нефти и промышленности (АГУНП). По словам его коллеги, директора Института нефти и газа НАНА, академика Фахраддина Гадирова, в истории геофизической науки конца XX - начала XXI столетия одно из почетных мест по праву принадлежит Льву Виленовичу Эппельбауму - выдающемуся ученому международного уровня, человеку широкой эрудиции.**



"Обладая научными знаниями и способностью всесторонне анализировать геолого-геофизические процессы, - отметил Гадиров, - он ярко проявил себя во многих областях геофизики". Сфера научных интересов ученого необычайно широка. В современный период актуальны его многочисленные научные труды по вопросам общей теории геофизических полей, комплексной интерпретации геолого-геофизических материалов, трехмерного моделирования гравитационных и магнитных полей, многопараметровой интерпретации теплового поля, экологической и археологической геофизики, оценке сейсмической опасности, палеомагнитным реконструкциям, поискам месторождений полезных ископаемых и т.д.

Вклад, внесенный Л.В. Эппельбаумом в развитие науки и образования, был высоко оценен и иностранными научными структурами. В 2017 году он удостоился почетного звания иностранного члена Российской академии естественных наук (РАЕН) и с интервалом в несколько месяцев был награжден почетным знаком "Рыцарь науки и искусств" за успехи в области геодинамики и тектоники. В 2018 году награжден золотой медалью Вернадского РАЕН за успехи в области изучения опасных природных феноменов. В том же году влиятельная израильская газета Jerusalem Post к 70-летию основания Государства Израиль провела исследование: были выбраны 70 наиболее влиятельных русскоязычных репатриантов в области науки, бизнеса, спорта, обороны государства, культуры за последние сто лет. В их число вошел и Лев Эппельбаум.

Наконец, в 2019 г. он был удостоен медали Христиана Гюйгенса Европейского общества наук о Земле за "серию разработок в

области потенциальных геофизических полей, приведших к существенному мировому процессу в этой области".

## Почетный титул

**- Лев Виленович, что вы чувствуете сейчас, получив титул почетного профессора?**

- Во-первых, это огромная гордость. Это высокая честь для меня - быть почетным профессором АГУНП, где прошла моя молодость, где я имел счастье обучаться у прекрасного состава преподавателей. Во-вторых, это громадная ответственность: ведь до меня этот титул получили два знаменитых геолога, вклад которых в геологию и нефтяную промышленность Азербайджана бесценен - это академики НАНА Акиф Ализаде и Хошбехт Юсифзаде.

Вместе со мной этот титул получил и выдающийся азербайджанский химик, выпускник АзИНЕФТЕХИМа 1975 года, обладатель многих десятков патентов на изобретения, обладатель международной премии Жюля Верна, профессор университета в г. Флорида (США) Назим Мурадов.

Я со своей стороны по мере своих сил постараюсь оправдать оказанное мне доверие и поднять престиж АГУНП на международной арене.

**- Давайте напомним нашим читателям о наиболее значимых, главных научных достижениях, которых вам удалось добиться за последнее время.**

- Пожалуй, это обнаружение по результатам современных подходов и методов геолого-геофизической интерпретации в Восточном Средиземноморье блока океанической коры, относящегося к палеомагнитной гиперзоне Киама возрастом 260-280 млн лет. Это является существенным дополнением к классической теории тектоники и геодинамики, не допускавшей ранее существования таких блоков возрастом более 180 млн лет.

Отмечу, что работа эта была проведена на основе комплексного анализа многих геофизических (магнитного, палеомагнитного, гравиметрического, сейсмического, теплового) и геологических (тектоно-геодинамического, палеобиогеографического, минералогического, петрологического, радиометрического и некоторых других) методов. Как показывает опыт, западные геологи, прекрасно разбираясь в узкоспециализированных научных направлениях, теряются, когда возникает необходимость провести серьезный мультидисциплинарный анализ. Азербайджанская же школа наук о Земле ставила умение вести мультидисциплинарное исследование сложных физико-геологических сред на одно из первых мест. Еще в 80-х годах прошлого века, работая в ЮжВниигеофизике, я опубликовал статью "Многомодельный подход к объектам геолого-геофизического исследования", которая, по оценкам экспертов, намного обогнала свое время.

Относительно недавно, продолжая комплексные исследования, мне удалось обнаружить некую глубинную кольцевую вращающуюся структуру на глубине примерно 1750 километров (нижняя мантия Земли). Вращение здесь происходит в геологическом смысле - от нескольких миллиметров до первых сантиметров в год. Эта структура может являться ключевой для многих тектоно-геодинамических процессов, происходящих над ней. То есть эта гигантская глубинная структура как бы инициирует и определяет эти процессы. Это абсолютно новая идея, развитие которой позволит продвинуться во многих областях, в том числе в тектоно-геодинамических моделях, в поисках различных месторождений полезных ископаемых, и в решении проблемы предсказания землетрясений.

## Geosciences of Azerbaijan

**- Сотрудничаете ли вы со своими азербайджанскими коллегами?**

- Безусловно. Несмотря на научную деятельность вдали от Азербайджана, любовь к родному краю живет в моем сердце по сей день. За годы, проведенные в Израиле, связь с Институтом геологии и геофизики НАНА, которая началась в 1988 году, только окрепла. Одним из результатов этого сотрудничества является издание в Springer (2016-2017 гг.) совместного с ведущими сотрудниками НАНА двухтомного труда "Geosciences of Azerbaijan".

**- Верно ли, что вы являетесь первооткрывателем месторождения на юге Израиля?**

- Ну, прямо так сказать, что являюсь единственным первооткрывателем, было бы неверно. Я стоял во главе группы российских и израильских ученых, которые провели там комплексные тектоно-стратиграфические, геофизические (магнитные, палеомагнитные, естественного электрического поля), минералогические (включая электронную микроскопию) и петрографические исследования. Они были инициированы отождествлением мелового эффекта суперплюмов в теории развития Земли с тектоно-эрозионной впадиной Махтеш Рамон на юге Израиля. То есть именно здесь были обнаружены породы, входившие в верхнюю мантию Земли и доставленные горячими мантийными потоками на поверхность Земли (или в приповерхностные слои). Поставленные научные исследования (несмотря на ограничения, связанные с тем, что данная территория относится к геологическим заповедникам Израиля) позволили обнаружить здесь промышленное содержание многих минералов, наиболее ценными из которых, по-видимому, являются редкоземельные элементы (РЗЭ). Большинство мировых запасов РЗЭ находятся в Китае, который является в этой области монополистом. Поэтому мне казалось, что сделанное открытие должно было привлечь внимание промышленности... Однако, ограничения, накладываемые на государственный геологический заповедник, настолько велики, что никто не хочет связываться. Тем не менее, мной вместе с группой авторов по открытому месторождению написано не менее десяти статей.

**- Сфера ваших научных интересов чрезвычайно широка. Есть ли совместные проекты в такой необычной сфере, как, например, археологическая геофизика и геофизика окружающей среды?**

- Что касается археологической геофизики - это мое любимое детище. К сожалению, в Азербайджане за последние 30 лет крайне немногочисленные археогеофизические работы проводились в основном усилиями зарубежных геофизиков. В то же самое время, многочисленные скрытые археологические и исторические памятники азербайджанского народа требуют их первоначального исследования именно детальнейшей геофизической съемкой, не требующей проведения дорогостоящих раскопок. В последнее время я сформулировал несколько насущных проблем в этой области, и к их решению мы уже приступили совместными усилиями.

Что касается других стран, то я провожу совместные исследования с американскими, французскими, итальянскими, голландскими, немецкими, шведскими, швейцарскими и иорданскими геофизиками. Список этот можно продолжить.

## Израиль "болел" за Азербайджан

**- А что еще интересного у вас произошло в последнее время?**

- Совершенно неожиданно ко мне обратился известный издательский дом Nova Science (Нью-Йорк, США) с просьбой редактировать новую книгу об Азербайджане. С этим издательством у меня существуют давние связи (за последние 11 лет в нем вышли пять глав в разных книгах, причем я уже был редактором одной из книг), но все же их приглашение меня удивило. В этой книге должны быть затронуты многие аспекты

современного Азербайджана, связанные не только с геонауками. Аналитики Nova Science почему-то посчитали, что я лучше всего справлюсь с этими обязанностями. Так что в ближайшее время работы у меня прибавится.

Помимо этого, очень хочу открыть при АГУНП небольшое направление по археологической геофизике. В Азербайджане уже открыты сотни археологических объектов, но далеко не все они исследованы. Но смею полагать, что подавляющее число этих объектов еще не локализовано.

**- Но ведь до каждого археологического памятника нужно добраться, затем произвести раскопки, то есть эта земля может быть надолго исключена из хозяйственного пользования. На ней нельзя будет строить дома, прокладывать трубопроводы.**

- Сегодня существует геофизика, а значит, и неразрушающие методы изучения археологических памятников. Мы можем повторять эти исследования сколько угодно, обходясь без дорогостоящих раскопок, с различной степенью точности и уровнем наблюдений. Экология не нарушается, ресурсы не растрачиваются. Вот где могут пригодиться многочисленные методики и разработанные алгоритмы! Ведь археология - это прошлое, которое в значительной степени обусловливает наше будущее.

Известно, что эта наука сейчас переходит в разряд политических инструментов, особенно учитывая стремление определенных сил фальсифицировать археологические памятники на Кавказе (и не только здесь).

Кроме того, я предполагаю читать обзорные лекции для студентов АГУНП, организовывать совместные публикации и проекты. Например, благодаря многолетнему плодотворному сотрудничеству с издательством Springer, я пользуюсь там известным авторитетом. Набрав достаточное количество достойных статей по нефтепромысловому делу и геологии, мы можем начать издавать тематические сборники.

**- Как вы оцениваете последние события в Азербайджане?**

- Я считаю это важнейшим событием в истории Азербайджана после Второй мировой войны. Еще в начале боевых действий я выступил с заявлением (совместно с моим старшим коллегой, проф. Цви Бен-Авраамом из Тель-Авивского университета) о безусловной поддержке Азербайджана в этом противостоянии. Кстати, это наше заявление было опубликовано в азербайджанских СМИ - в частности, в газетах "Каспій" и "Элм-Наука". Не хочу повторяться, но фальсификация армянской стороной всевозможных исторических событий в свою пользу настолько вошла в привычку, что не вызывает уже никакого удивления.

Что же касается самих военных действий, то мы постоянно следили за освещением театра военных действий средствами массовой информации, "болели" за Азербайджан и с большим удовлетворением воспринимали практически ежедневное продвижение азербайджанской армии вперед.

Должен сказать, что я, не являясь военным специалистом, тем не менее, проходил подготовку на военной кафедре АЗиНЕФТЕХИМа и соответствующие трехмесячные военные сборы. Поэтому могу делать кое-какие выводы, например - ряд безграмотных решений армянского генералитета вероятно свидетельствует об их обучении не в военных училищах, а в университетах (институтах) гражданского профиля. Например, так называемую операцию "окружение" они, вероятно, считали стратегически единственно приемлемой. Впрочем, противная сторона была обречена в любом случае, учитывая патриотизм, героизм и значительно лучшую оснащенность и подготовленность азербайджанской армии.

**Беседовала:**
**Галия АЛИЕВА**



**Anar AĞALARZADƏ**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

# Qarabağ və Zəngəzurun epiqrafik abidələri

**Azərbaycan tarixinin orta əsrlər dövrü mərhələsinin tədqiqində epiqrafik abidələrin mühüm yeri vardır. Xalq bir çox tarixi əhvalatları daş lövhələrə yazmaqla, abidələrin üzərində kitabələr həkk etməklə bir sıra ictimai-iqtisadi problemlərə, mədəniyyət tarixinə aid çox zəngin və qiymətli salnamələr qoyub getmişdir.**

Bütün orta əsrlər boyu Şərq dünyasını Avropa ilə birləşdirən karvan ticarət yolları məhz Azərbaycandan keçirdi. O zaman bu yolların üzərində tikilmiş karvansaralar və ictimai-dini binalar zəmanəmizə qədər gəlib çatmışdır. Onların üzərindəki epiqrafik yazılar memarlıq abidələrinin nə vaxt tikildiyini, bu və ya başqa tikinti komplekslərinin ölkənin ictimai-siyasi həyatında nə kimi rola malik olduğunu, karvan ticarət yollarının hansı dövrdə daha da qaynar həyat keçirdiyini araşdırmaqdan ötrü ən dəqiq informasiya verən ilk mənbə hesab edilir. Bu sıradan Azərbaycanın ayrılmaz tarixi parçası olan Qarabağ və Zəngəzur diyarının epiqrafik abidələri vətən tariximizin öyrənilməsi üçün yüksək əhəmiyyətə malikdir. Qarabağda islam dövrü epiqrafik abidələri məhz məscid və türbələr üzərindəki kitabələrdə, məzar daşları üzərindəki epitafiyalarda əks olunur. Sayı kifayət qədər olan və islam dövrü dini-ideoloji mərkəzləri hesab edilən bu tarixi abidələrin bir çoxunda tədqiqatlar aparılmaqla onların mümkün məqsədləri üzə çıxarılmışdır.



XX əsrin 60-70-ci illərində Azərbaycanın tanınmış epiqraf alimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Məşədixanım Nemətovanın Qarabağ və Zəngəzur mahalında apardığı epiqrafik elmi tədqiqatlar regionun bir sıra tarixi məsələlərinin həllində müstəsna əhəmiyyətə malik olmuşdur. Alimin Qarabağ diyarında, Cəbrayıl rayonunun Şıxlar kəndindəki el arasında "Şıx Baba piri" adı ilə tanınan ziyarətgahda apardığı epiqrafik elmi araşdırmalarla aydın olmuşdur ki, türbənin içərisində böyük alim, əzəmətli şeyx, Şeyx Hüseynin oğlu Şeyx

Əbdürrəhman dəfn edilib. Bu pir, məhz elm adamlarını vaxtilə Avropa ölkələrini Yaxın Şərq ilə birləşdirən "Böyük İpək yolu" üzərində mövcud olmaqla intensiv həyat keçirmiş, mədəni-ideoloji, sosial-siyasi-iqtisadi mərkəzlərdən biri olan xanəgahda xalqımızın müqəddəs yer kimi qoruduğu tarixin izlərində elmin və mədəniyyətin sirlərini açmağa çağırır. Şeyx Babanın məzar daşı üzərində farsca həkk edilmiş



kitabədə deyilir: "Bildim ki, mənim taleyim mənim təbiətimdir, o da çox üzü dönükdür" (M.Nemətova). XIV əsrin əvvəllərinə aid bu türbənin ətrafında dövrün sayılıb-seçilən din xadimlərinin məzarları da vardır. Belə ki, ətrafdakı böyük qəbiristanlıqda XIV-XX əsrləri əhatə edən tarixi mərhələyə aid şeyx və şeyx övladlarının qəbir daşlarına rast gəlmək olur. Çox təəssüflər olsun ki, bu orta əsr abidələrinin, demək olar ki, hamısı torpaq altında qalıb it-bat olmuşdur. Gələcəkdə Qarabağın orta əsr abidələrində kompleks arxeoloji tədqiqatlar aparılacağı zaman istisna deyildir ki, xeyli sayda epiqrafik abidələr də üzə çıxacaq və Azərbaycanın orta əsrlər dövrü tarixinin araşdırılması istiqamətində yeni imkanlar açacaqdır.

Azərbaycanın epiqrafik abidələrinə, eyni zamanda, tarixi Azərbaycan torpaqları olan Zəngəzur mahalında da rast gəlinir. Bu mahalın Çuxur Səd vilayətindəki Cəfərabad kəndində tədqiq edilmiş səkkizbucaqlı türbə və onun kitabəsi maraq doğurur. Məlumatlara əsasən, bu yerdə Çuxur Səd vilayətinin əmirlərinə məxsus bir neçə möhtəşəm türbə binası tikilmiş, lakin bu türbələrin kitabələri mənfur ermənilər tərəfindən qəsdən dağıdılmışdır. Zamanında burada mövcud olan bir müsəlman qəbiristanlığındakı tarixi abidələrdən də heç biri bu günümüzə qədər qalmayıb. Cəfərabad türbəsində vilayətin tanınmış iki əmiri olan Pir Hüseyn və onun atası Əmir Sədin adları həkk edilmişdir.

Zəngəzur mahalının Urud kəndindəki orta əsr qəbiristanlığında qalmış qoç şəkilli, sənduqə formalı məzar daşları üzərində professor Məşədixanım Nemətovanın 1961-1963-cü illərdə apardığı elmi tədqiqatlar, alimin epiqrafika elmində, demək olar ki, 50 illik araşdırmalarının ən mühüm yeniliyi hesab edilir. M.Nemətovanın Urud qəbiristanlığındakı tədqiqatları nəticəsində daşlar üzərindəki ərəb qrafikasında həkk olunmuş kitabələrin, islam dini ilə əlaqədar duaların və qədim türkdilli tayfaların dini ayinləri ilə əlaqədar onqonların sirli qalan məqamları üzə çıxarılmışdır. Alimin epiqrafika elmi sahəsindəki Urud kəşfləri xalqımıza qarşı torpaq iddiasında olan ermənilərə tutarlı cavab olmaqla Azərbaycanın tarixi ərazi bütövlüyünün müdafiə edilməsi prinsiplərini də əsaslandırmış və beləliklə, Cənubi Qafqazda yeni tarixi konsepsiyasının əsasını qoymuşdur. Zəngəzurun Urud qəbiristanlığındakı miladi 1478-ci il tarixli bir məzar daşında ərəbcə "Allah, Məhəmməd, Əli, min evladi ağvan" ("ağvan" alban deməkdir - M.N.) sözlərinin həkk edilməsi və bu tip kitabələrin XVII əsr sənduqələrində də təkrarlanması bu abidələrin Azərbaycan tarixşünaslıq elmində mühüm əhəmiyyətə malik olduğunu ortaya çıxarır. 1926-cı ildə elmə məlum olan Urud abidələrinin geniş tədqiqi ilə sübut olunmuşdur ki, bu məzar daşlarındakı epitafiyalar və təsvirlər vaxtilə Qafqaz Albaniyası ərazisi olan Sünikdə yaşamış ağvanların (albanların) müsəlmanlığı qəbul etməsinə dəlalət

edir. Urud kitabələri üzərindəki epitafiyalar təhlil ediləndən sonra məlum olub ki, alban tayfaları islam gələndə müsəlmanlığı qəbul edərək bugünkü Azərbaycan xalqının təşəkkül tapmasında iştirak etmişlər.

Bir dəfə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda alimlərlə birgə keçirilmiş iclasların birində professor M.Nemətova çıxış edərək Zəngəzurun Urud abidələri və bu qəbiristanlığın ermənilər tərəfindən vəhşicəsinə qəsdən dağıdılması haqqında həqiqətləri ölkə rəhbərinin diqqətinə çatdırmışdır. M.Nemətova qeyd etmişdir ki, Urud qəbiristanlığı tarixin böyük bir məsələsinin üstünü açıb. Belə ki, bütün tarixçilər islamın Qafqaza gəlişinə qədər xaçpərəst olan alban tayfalarının erməniləşməsi və gürcüləşməsi haqqında yazırdılar. Akademik Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" adlı əsərində yazır ki, "...necə oldu Zəngəzur mahalında yaşayan tayfalar qriqoryan xaçını qəbul edib erməniləşdilər, gürcü xaçını qəbul edib gürcüləşdilər. Bəs bunların türkləşəni, islamı qəbul edəni olmadımı?!" Urud məzarlarının tədqiqi də tarixin bu qaranlıq qalan səhifəsini üzə çıxardı. Məhz burada oğuz türk tayfalarına aid daşlar üzərindəki təsvirlər araşdırılmaqla bu suala cavab tapılmış oldu.

1990-cı ildə M.Nemətova erməni alimləri Akopyanı, Papazyanı, Arakelyanı, Xaçaturyanı susdurmuş, onların Urud qəbirlərinin ermənilərə aid olması haqqındakı iddiasının saxta olduğunu sübut etmişdir. Erməni alimi Akopyan sonralar M.Nemətovaya qarşı iddialarla çıxış etməyə başlamış və demişdir ki, "...xeyr, siz səhv edirsiniz, Əmir Teymur Orta Asiyadan gələndə bu tayfalara zorla islamı qəbul etdirib. Burada xəttatın səhvi var, xəttat savadsız olub və Məşədixanım da səhv oxuyub". Daha sonra ermənilər traktorlarla qəbiristanlığı məhv etməyə başlayıblar. M.Nemətova Papazyana cavab məktubu yazaraq deyib ki, "...əgər Urud qəbiristanlığı erməni abidəsi idisə, bəs nəyə görə o, qəbiristanlığı dağıtdınız, məhv etdiniz, viran qoydunuz?! Əgər siz o məzar daşlarının ermənilərə aid olduğunu sübut edə bilsəydiniz, bu gün də onu şüşənin içinə salıb əldən-ələ bütün dünyanı gəzdirərdiniz ki, baxın, bu, bizim tariximizdir. Çünki sübut edə bilmədiniz! Xəttat düz yazmışdı, Məşədixanım da düz oxumuşdu!"

Bütün bu qeyd olunanlar, əlbəttə ki, Azərbaycanın tarixi, əzəli torpaqlarının epiqrafik abidələri haqqında yazılan az bir qismidir. Qarabağda və onun ətrafında yüzlərlə epiqrafik məzar daşları və onlar üzərindəki epitafiyalar öz varlığını qoruyub saxlamaqdadır. Qüdrətli Azərbaycan dövləti və onun şanlı ordusunun tarixi qələbələri ilə düşmən işğalından azad olunmuş o müqəddəs torpaqlarımızda yaxın gələcəkdə epiqrafik abidələr yenidən qeydə alınacaq və bu abidələrdə geniş miqyaslı elmi tədqiqatlar aparılacaqdır. ●



**Ədəbiyyat:**


1. *Nemətova M. Əsrlərin daş yaddaşı. Bakı, İşıq, 1987, 45 s.*
2. *Nemətova M. Azərbaycanda pirlər (Sosial-ideoloji iqtisadi-siyasi mərkəzlər). Bakı, Azərnəşr 1992, 104 s.*
3. *Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (ХЫЫ век - начало XX века).*
4. *Nemət M.S. Azərbaycanda pirlər. Bakı, Elm və təhsil, 2010, 210 s.*



**Эльнур ГАСАНОВ**
*лауреат Президентской премии по науке,*
*докторант Гянджинского отделения НАНА*

# Архитектурное наследие Гянджи как пример мультикультурализма

**В Институте краеведения Гянджинского отделения НАНА проводятся научные исследования в сфере изучения историко-архитектурного наследия города Гянджи. В представленной статье основные исторические памятники Гянджи были рассмотрены как важные источники по изучению традиционных ценностей толерантности, на основе различных исторических источников, архивных материалов и научной литературы были выявлены важные аргументы и факты, свидетельствующие о сохранении мультикультурализма среди населения этого города на протяжении многих веков.**

Азербайджанская модель мультикультурализма основана на принципах гуманизма. В то время, как на международной арене господствуют безразличие и национальная нетерпимость, мультикультурализм играет важную роль в урегулировании конфликтов между народами и цивилизациями. Мультикультуральная политика, проводимая азербайджанским правительством по отношению к национальным меньшинствам и религиозным группам, изучается во многих странах мира широко и с большим интересом. На фоне тенденции роста конфликтных ситуаций, спорных диалогов между цивилизациями в мире Азербайджан не перестает оставаться мультикультуральной страной.

Современное функционирование толерантности и мультикультуральных категорий направлено в сторону социально адаптированных мультикультуральных ориентиров. В основе концепции мультикультурализма в азербайджанской науке лежит важная методологическая парадигма, согласно которой бинарность понятия мультикультурализма является первичной. Так, идеи мультикультурализма в Азербайджане аппелируют к этногенетической способности народа интегрировать культурные этнокоды с одной стороны, и сохранять свою национальную идентичность - с другой. При этом необходимо подчеркнуть, что внутренняя согласованность мультикультуральной модели имеет значительные потенциальные возможности. Азербайджан исторически находится на стыке двух цивилизаций. Соединяя Восток с Западом, Азербайджан играл роль моста в развитии экономических, стратегических и культурных связей между странами двух противоположных цивилизаций.

На современном этапе Азербайджан является одним из основных центров мультикультурализма. Сегодня мультикультурализм - государ-



**Комплекс "Имамзаде" в Гяндже. VIII век**



**Русская православная церковь имени А.Невского. 1887 г.**

ственная политика в Азербайджане. Формирование мультикультурализма как государственной политики в нашей стране связано с именем общенационального лидера Гейдара Алиева. Ныне эта политика успешно осуществляется главой государства Ильхамом Алиевым. Многочисленные указы и распоряжения Президента Азербайджанской Республики Ильхама Алиева, преемника мудрой политики великого лидера Гейдара Алиева, по восстановлению и реставрации религиозных и историко-архитектурных памятников, а также проекты, претворяемые в жизнь под руководством президента Фонда Гейдара Алиева, посла доброй воли UNESCO и ISESCO Мехрибан Алиевой, являются ярким примером заботы нашего государства о богатом национально-культурном наследии Азербайджана.

Гянджа - один из древнейших городов нашей родины с многовековой историей, соединяющий северо-восточные склоны гор Малого Кавказа (древних Гянджинских гор) с просторами Кура-Аразской низменности, расположен в живописном уголке Азербайджана с умеренным климатом, плодородными землями, богатыми водными ресурсами. Исторически Гянджа всегда имела выгодное геополитическое расположение и играла важную роль в культурной и экономической жизни Азербайджана. Этот город был построен на Великом Шелковом Пути, который соединяет Азию с Европой. Таким образом, Гянджа являлась духовным мостом между разными цивилизациями.

Говоря о Гяндже, историк Хамдуллах Газвини писал:

*Есть всего несколько избранных городов,*
*Настоящий клад в Арране - Гянджа.*
*Полна изобилия, вода чиста,*
*Климат мягок и просторны долины.*

Благодаря многовековым национально-духовным ценностям этот город считался своеобразным "индикатором" социально-культурного и общественно-политического строя в течение многих веков. Именно Гянджа была основным центром важных исторических реформ, национальных восстаний против вражеских войск, наступавших на нашу родину. Этот древний город также был столицей первой демократической республики мусульманского Востока, и в XX веке сохранил свой статус центра национально-государственных ценностей. В Гяндже в 1918 году были приняты более 200 государственных документов, постановлений и решений о провозглашении родного языка, о создании национальной армии, об утверждении государственного флага и т.д.

Гянджа также считается одним из основных центров мультикультуральных традиций нашей родины. Одна из самых древних православных церквей в Западном регионе страны, которая была возведена в XIX веке, находится в Гяндже, и до сих пор верующие совершают здесь свои религиозные обряды, отмечают важные исторические даты и праздники. Этот храм охраняется как важный историко-архитектурный памятник, и жители города с уважением относятся к православным верующим.

Один из самых крупных и в тоже время древних немецких лютеранских храмов (1885 г.) также сохранился в нашем древнем городе и объявлен историко-архитектурным памятни-



**Албанский храм. VIII-IX вв.**



**Немецкая лютеранская церковь. (Ныне Гянджинский государственный кукольный театр). 1885 год.**

ком. Несмотря на то, что основная часть верующего населения города - мусульмане, жители города на протяжении веков с особым уважением охраняли древние албанские христианские храмы, а также грузинскую церковь и другие памятники.

Гянджа - один из немногих городов, где существовали такие жилые кварталы, как "Улица евреев", "Лезгинский квартал", "Квартал лагич (лахыдж)" и т.д., где представители других этносов жили в мире и покое.

Гянджа - уникальный город, где существует мемориальный комплекс захоронения испанских авиаторов-летчиков, воевавших в начале прошлого века в период гражданской войны в Испании. Нужно отметить, что в те годы в Гяндже действовало летное училище авиаторов, в котором получали квалификацию многочисленные зарубежные летчики.

В городе до сих пор сохранились древние албанские храмы раннего средневековья, которые, наряду с такими местными мусульманскими регилиозными памятниками, как мечети, "Имамзаде", гробница Джомард Гассаба и т.д., считаются священными местами и трепетно охраняются.

Комплекс "Имамзаде", который является одним из основных символов города, расположен на территории Государственного историко-культурного заповедника одного из древних центров науки и культуры - города Гянджи. Он был воздвигнут в 739 году над могилой Мовлана Ибрагима - сына пятого имама Мухаммеда Багира, правнука Гусейна ибн Али - внука пророка Мухаммеда.

Территория мавзолея, построенного в VIII веке, была расширена в XIV-XVI веках, а постройки вокруг него были воздвигнуты в основном в XVII-XVIII веках. Мавзолей - самый ценный исторический памятник комплекса "Имамзаде".

Кладбище Себзикар также имеет многовековую историю, и здесь наряду с мусульманскими могилами до сих пор сохранились гробницы-тюрбе и сердабе (саркофаги) доисламского периода.

Гянджинцы - гордые, но гуманные, простые люди. Против зла они боролись до конца, но всегда защищали слабых, нуждающихся в помощи людей. Сегодня эти духовные ценности сохраняются и соблюдаются, как и много веков назад. Гянджинцы за сохранение государственности, укрепление стратегии всестороннего развития страны, за целостность родины, освобождение оккупированных территорий и соблюдение стабильности в стране. Наш город всегда являлся и сегодня сохраняет статус важного культурного, научного и промышленного центра, имеющего многовековые традиции толерантности. К сожалению, с 4-го по 17-е октября 2020 года этот древний город и его мирные жители подверглись ракетным обстрелам со стороны Вооруженных сил Армении, в результате чего погибли более тридцати и были ранены свыше ста человек, среди которых были дети и женщины. Были повреждены и древние памятники города - гробница Имамзаде и Русская православная церковь.

Необходимо отметить, что освобождение наших исконных земель в Карабахе от армянской оккупации еще раз доказывает, что миролюбивая, мультикультуральная политика Азербайджана одержала победу над шовинистической и захватнической позицией Армении. С древних времен в Азербайджане проживали представители различных национальностей, Азербайджан всегда являлся и является многокультурной страной. Уникальная толерантность и межнациональный диалог являются основными аспектами развивающейся модели азербайджанского мультикультурализма.



**Pərvanə QARAXANİ**
*AMEA Botanika İnstitutunun şöbə müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent*

# Şuşanın simvolu - Xarıbülbül gülü

**Vətən bağı əl-əlvandır,**
**Yox içində Xarı-bülbül.**
**Nədən hər yerin əlvandır,**
**Köksün altı sarı, bülbül?!**



Azərbaycan gözəlliklər aləmidir. Bu gözəllikləri çiçəklərsiz təsəvvür etmək çox çətindir. Allah dünyanı yaradarkən ona bəzək vurmaq üçün sanki bitkiləri yaratmış, onları rəngarəng etmiş, xüsusi bir düzən vermişdir. Bitkilər şairlərin şeirini, bəstəkarların musiqisinin mövzusu olmuş, onlardan dastanlar söylənmişdir.

Bitkilərin içərisində bir çiçək də var. El arasında adına "Xarı bülbül "deyərlər. Əfsanəyə görə, bülbül gülə aşiq olur. Hər gün onu görmək üçün yanına gələr, onunla söhbət edərdi. Külək də eyni zamanda gülə aşiqmiş və bülbülün güllə şirin söhbətlərini qəbul edə bilmir, bərkdən əsməyə başlayır. Gülü sınmaqdan qoruyan bülbül onun üzərinə əyilərək qorumaq istədiyi anda gülün tikanları (xar) onun sinəsinə sancılır və o, məhv olur.

El arasında Xarı bülbül kimi tanınan, gözəl görünüşə malik olan bu bitki Qaş səhləbi (Ophrys) cinsinə aid olan Qafqaz qaş səhləbi (Ophrys caucasica hal-hazırda son nomenklatur dəyişikliklərə əsasən növün adı Ophrys sphegodes subsp. mammosa (Desf.) Soo ex E. Nelson) və Arı qaş səhləbi (Ophrys apifera) növlərinə verilən ümumiləşdirilmiş addır. Azərbaycan florasında hər iki növə dağlıq ərazilərdə aşağı və orta dağ qurşağında rast gəlinir. Müxtəlif yazarlar öz məqalələrində bu növlərin yalnız Şuşada bitməsi haqqında fikirlər söyləyirlər. İstərdim ki, bu fikrə bir açıqlama gətirək. İnsanlarda niyə belə bir fikir formalaşmışdır ki, Qaş səhləbi yalnız Şuşada bitir.

Hələ mən uşaqkən anam bizi tez-tez Şuşaya - doğulduğu torpağa gəzməyə, istirahətə aparardı. Şuşada "İstirahət evi" adlanan bir yer var idi. Müxtəlif millətlərin nümayəndələri buraya kütləvi istirahətə gələrdilər. Və yerli əhali qonaqlara "Xarı bülbül"dən dəstə bağlayardılar. Eyni cinsin morfoloji oxşar növlərini eyni adla Xarı bülbül adlandırardılar. İnsanlara elə gəlirdi ki, bu çiçək yalnız Şuşaya məxsusdur. Mən də uşaq olarkən belə anlayırdım. Sonralar elmin sirlərinə bələd olduqdan sonra Qaş səhləbinin yalnız Şuşada deyil, Abşeron, Qobustan rayonlarında, Samur-Dəvəçi, Xəzərsahili ovalıq, KQ cənubu, BQ şərqi, BQ Quba, Diabar ərazilərində yayıldığının şahidi oldum.

Allahın möcüzələri çoxdur. Bunlardan biri də dillər dastanı olan, Azərbaycan xalqının qəlbində Qarabağın, xüsusilə, Şuşanın simvolu olan Qaş səhləbi cinsinin "Xarı bülbül" növüdür. İnsanlar bu çiçəkləri sevdiyi üçün harda görsələr, kortəbii şəkildə onları toplayırlar. Bu da onların saylarının azalmasına səbəb olur. Bunun qarşısını almaq üçün hər iki növ Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na salınmış, nadir bitkilər və "nəsli kəsilməyə həssas olanlar" kateqoriyasına daxildir. Ümid edirəm ki, onların məhv olunmasının qarşısı alınacaqdır və Qarabağın simvolu olan Xarıbülbül özünə bütöv Azərbaycanda məskən salacaqdır.

Qarabağ Azərbaycandır!



**Kamal GÜLMALIYEV**
*"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin direktoru*

# "Xəmsə"də Naxçıvan izləri

**Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi (1141-1209) bəşər mədəniyyətinin yetişdirdiyi nadir şəxsiyyətlərdən biridir. Onun yaratdığı "Xəmsə" Azərbaycan ədəbiyyatının gizli xəzinəsi olmaqla yanaşı, bəşər mədəniyyətinin şah əsərləri sırasındadır. Dahi şair fenomen düşüncəsinin məhsulu olan "Xəmsə" ilə ümumtürk ədəbi mədəniyyətinin və ədəbiyyatının inkişafında dəmir qanunauyğunluq yaratmış, Şərq ədəbiyyatının nümayəndələri onun yolu ilə getməyi, ona bənzəməyi, onun davamçısı olmağı özlərinə fəxarət saymışlar.**

Nizami Gəncəvi Azərbaycan Atabəyləri dövründə fəaliyyət göstərmiş şair-mütəfəkkirlərdən biridir. O, iki poemasını ("Xosrov və Şirin", "İsgəndərnamə") Azərbaycan Atabəyləri - Eldənizlər dövlətinin hökmdarlarına ithaf etmişdir. Maraq doğuran budur ki, Nizami Gəncəvi Atabəylərin paytaxtının Naxçıvan olmasını, Atabəy Şəmsəddin Eldənizlə onun həyat yoldaşı Möminə xatunun ömrünün sonuna kimi burada yaşamasını və Naxçıvan torpağının Atabəylərin dövlətçilik tarixində mühüm yer tutmasını dərindən bilməsinə baxmayaraq, "Xəmsə" də "Gərşəsbnamə"yə işarə edən fikirdən başqa Naxçıvanı aydınlıqla ifadə edən məlumat verməmişdir. "Xəmsə" də Naxçıvan torpağı barədə açıq-aydın məlumatların olmaması Nizmai Gəncəvinin minilliklərlə yaşı olan bu qədim diyar barədə rəmzi ifadələrlə, işarələrlə məlumat verməsi fikirini düşünməyə əsas verir.

Maraq doğuran digər faktlardan biri də "Yeddi gözəl" poemasında "Şahnamə" və "Gərşəsbnamə" dən bəhs edən şairin öz yaradıcılığı barədə aşağıdakı fkirləri bildirməsidir:

*Bu yolda cəhd elə, bu yolda səy et,*
*Divlərin əlindən gəl onu gizlət.*
*Süleymandan özgə olmasın görən,*
*Məni onda ara zaman-zaman sən*

Buradan belə fikir yaranır ki, Nizami Gəncəvi "Xəmsə"də bəhs etdiyi hadisələrdən gizli mənalarla bəhs etmiş, əsərlərini "divlərdən qorumuş", müəyyən bir vaxta qədər bu sirlərin açılmaması üçün poemalarını yazarkən beytlər üzərində səylə çalışmışdır.

Dahi şairin əsərlərindəki rəmzi məna kəsb edən və Naxçıvan torpağına işarə edən bəzi fikirləri təhlil edərkən onun fenomen biliyinin, parlaq zəkasının, elmi potensialının zaman və məkanın ağlasığılmaz dərinliyində və yüksəkliyində olduğunu görmək mümkündür.

Nizami Gəncəvinin yaradıcılığında Naxçıvan torpağını ifadə edən işarə və rəmzi məna kəsb edən ifadələri tədqiqata cəlb edərək yeni tədqiqat mövzusu açmaqla yanaşı, elm aləmində üstü örtülü qalmış bir çox məsələlərə aydınlıq gətirmək mümkündür. Belə ki, Nizami Gəncəvi yaradıcılığında maraq doğuran fikirlərdən biri Nuh peyğəmbərin gəmisi barədə olan ifadələrdir. "Xosrov və Şirin" poemasında "Atabəy əbu Cəfər Şəmsəddin Eldənizin tərifi" başlıqlı məqalətdə deyilir:

*Ondan əta umsa göyün tağları,*
*Səxasında batar Cudi dağları*

Şairin Naxçıvanda hakimiyyət qurmuş Şəmsəddin Eldənizdən "Səxasında batar Cudi dağları" kimi fikirlə bəhs etməsi maraq doğuran faktlardan biridir. Şəmsəddin Eldənizin hakimiyyətindən bəhs edən şairin həm də Nuh peyğəmbərin gəmisinin dayandığı Cudi dağından bəhs etməsi, fikrimizcə heç

də təsadüfi deyildir. Bu dahi şairin Cudi dağından bəhs edərkən əslində Naxçıvan torpağına işarə etdiyini göstərir. Bəhs edilən beytlərin mənasından aydın olur ki, şair burada Naxçıvan dağlarını nəinki Cudi dağlarına bənzədir, hətta bu dağları Cudi dağlarından səxalı (səxavətli, Nuh barədə olan rəvayəti daha inandırıcı, daha doğru əks etdirən dağlar) hesab edir. Naxçıvan torpağını tədqiqatçılar Nuh tufanı ilə bağlayırlar. "1996-cı ildə keçirilmiş "Tarixi qaynaqlarda Naxçıvan" beynəlxalq smpoziumda A.Axundov Naxçıvanı Nuh tufanı ilə bağlamış... akademik İ.Həbibbəyli S.Zelinski, K.Nikitin, Y.Pasxalov, V.Devitski kimi tədqiqatçıların əsərlərindən maraqlı məqamlara toxunaraq mənbə və tədqiqatlara istinadən şəhərin Nuh tərəfindən salındığına dair tarixi faktlar göstərmişlər". N.Gəncəvinin "Xosrov və Şirin" poemasında Naxçıvanı paytaxt elan edərək buradan dövlət qurmuş Atabəy Şəmsəddin Eldənizdən "Cudi dağları" kimi işarə ilə bəhs etməsi Naxçıvan torpağını Nuh peyğəmbərlə bağlantılı təsvir etməsinin başqa bir ifadəsidir. Bu həm də onu göstərir ki, Nizami Gəncəvi "Xəmsə"də Naxçıvan torpağından rəmzi mənalı ifadə və işarələrlə bəhs edərək qədim tarixə malik bu torpaq barəsində müəyyən bir fikir formalaşdırmışdır.

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında Naxçıvan torpağını ifadə edən və "gəmi" sözü ilə işarə edilən məkanlardan biri də "Şətt çayı"dır.

*"Leyli və Məcnun" poemasında deyilir:*

*Fələk çərx üstündə tutmuşdu qərar,*
*Qütbün qələsinə çəkmişdi hasar.*
*Fərqəd öz atını çapırdı yenə,*
*Gəmisi çatmışdı Şətt sahilinə.*

Şətt çayının İraqda olması məlumdur. Belə ki, Dəclə və Fərat çaylarının birləşməsindən yaranan Şətt çayının Nizami Gəncəvi yaradıcılığında "gəmi" sözü ilə ifadə etməsi çox da təəccüb doğurmur. Lakin bu rəmzi məna kəsb edən ifadəni Oğuz dilləri əsasında araşdırarkən "Şətt" adının həm də başqa bir mənada ifadə edildiyini görürük. Belə ki, "Şətt"i ifadə edən "iki çayın birləşdiyi" yerin qədim türk dilində "erinc" adlanması və "Erinc//Arınc" adının Əlincəqalanın qədim adı olan "Erincak"ı ifadə etməsi belə bir fikir yaradır ki, Nizami Gəncəvi "Şətt" adı ilə Əlincəqalaya işarə etmiş, Əlincəqalanın olduğu Naxçıvan torpağına "gəmi" (Nuhun gəmisi) sözü ilə işarə edərək maraqlı məna çaları yaratmışdır.



"Fərqəd" isə məlum olduğu kimi Şimal qütbünə yaxın olan iki kiçik və parlaq ulduzdan biridir. Burada maraq doğuran başqa bir fakt budur ki, Əlincəqalanın şimalında ona olduqca yaxın olan bir dağı yerli əhali Gəncəhan (Gəncə xanı) adlandırır. Fikrimizcə, "Fərqədin öz atını çapması və gəmisinin şimaldan Şəttə yaxınlaşması" Nizami Gəncəvinin Əlincəqalaya şimaldan-"Şah taxtı" tərəfindən gəlməsini simvolizə edən olduqca gizli, rəmzi mənalı ifadədir. Bu Nizami Gəncəvinin atla Əlincəqalaya gəlməsini, burada Atabəylər hökmdarı ilə görüşməsini bildirən, Nizaminin özü barədə bəhs etdiyi olduqca gizli işarələrindən biridir. Fikrimizcə, Əlincəqalanın ətrafında olan yüzlərlə dağdan yalnız şimalda, yəni Əlincəqalanın "Şah taxtı" tərəfində olan dağa təsadüfən "Gəncəhan" (Gəncə xanı) adı verilməmişdir. Bu onu göstərir ki, Əlincəçay xanəgahında yaşayan və Nizami Gəncəvi yaradıcılığının bütün sirlərini bilən dərvişlər "Xəmsə"də olan gizli mənaları diqqətə çatdırmaq və bu işarələri qoruyub saxlamaq üçün bu dağa "Gəncəhan" adını vermiş, yerli əhali isə bu adı uzun illər nəsildən-nəslə ötürərək saxlamış, beləliklə "Xəmsə"də olan işarələrin izləri itməmişdir. Həm də "Gəncə xanı" sözü Nizami Gəncəvinin nə vaxtsa Əlincə qalasına gəlməsini rəsmiləşdirən söz mənasını daşıyır. Bu o deməkdir ki, Nizami sənətinin böyük pərəstişkarı olmuş Əlincə sufi dərvişləri və şeyxləri dahi şairimizi "Gəncə xanı" adlandırmış, Əlincə qalasındakı yerlərdən birini onun adı ilə adlandırmaqla böyük sənətkarın adını hələ öz sağlığında ikən əbədiləşdirmişlər.

Araşdırmalar zamanı məlum olur ki, Əlincəqalanın "Ərincək" adının kökə və şəkilçiyə ayrılması

xüsusiyyətlərindən Nizami Gəncəvi ustalıqla elə bir "söz caduları" yaratmışdır ki, bu "cadu"lar təsəvvüf əhli şairlərin dilindən düşməmiş, gizli ifadə və işarələr kimi uzun illər Azərbaycan ədəbiyyatında sirri açılmayan "sehirli söz" kimi istifadə olunmuşdur.

*"Sirlər xəzinəsi"ndə deyilir:*

*Təzə söz caduları, oyunlar göstərən mən,*
*Yeni heykəl yaratdım yeni qəlibli sözdən.*

Fikrimizcə, şairin yaratdığı "yeni heykəl"lərdən bir də Əlincəqalanı ifadə edən "Ərni dağı" adıdır ki, bu dağ adını ifadə edən mənalar uzun illər şairlər tərəfindən birmənalı qarşılanmamış, "Ərni" adı ilə Nizami Gəncəvi yaradıcılığına maraq doğuran işarələr edilmişdir.



*"Sirlər xəzinəsi"ndə deyilir:*

*Musa çatdımı kama,camdakı şadlığına,*
*Əlindəki şüşəni çirpdı Ərni dağına.*
*Məsiha bu qidaya tamah salmadı bəli,*
*Çünki xalqın önündə ləkəliydi, ləkəli.*

Qeyd etmək lazımdır ki, Nizami Gəncəvi orta əsrlərin saray dili olan fars dilində yazmağa məcbur olsada, doğma xalqının danışdığı türk dilinə sayqı duyan, bu mənada öz soy-kökünə bağlı bir şəxsiyyət olmuşdur. Linqivustik araşdırmadan məlum olur ki, o, Oğuz dillərinə məxsus metateza hadisəsindən istifadə edərək, "Qurani Kərim"də Musa peyğəmbərlə bağlı "Əraf" surəsində qeyd olunan bir rəvayəti Ərincək (Əlincə) qalasının adına uyğunlaşdırmaq və "ərni" sözünün Əlincəqalanı və Əlincəçay xanəgahını vəhdətdə göstərməsi üçün həmin ifadəni "Ərni dağı" şəklində ifadə etmişdir. Belə ki, Oğuz dilinə məxsus fonetik yerdəyişmə zamanı şəkilçidən əvvəl gələn iki hərfin güclü tələffüz üçün yer dəyişilməsi, şəkilçinin isə sabit qalması nəticəsində bəzi sözlərdə tarixən dəyişilmələr baş vermişdir ki, bu da Oğuz dillərinə aid qanunauyğunluqlardan biridir. Fikrimizcə, N.Gəncəvi "Ərincək" adında -in hissəsini -ni kimi yazmış, -cək şəkilçisini isə "ixtisar etmiş", beləliklə yeni dağ adı yaratmışdır.

Nizami Gəncəvi hakimiyyət məkanı olan Ərincək(Əlincə) dağını "Ərni dağı" adı ilə ifadə edərkən "söz cadu"larından istifadə edərək fikir yayındıran şair Əlincəqalanın əsas əlamətlərini müxtəlif işarələrlə "başa salmışdır".

Belə ki, "Musanın fironla mübarizəsini" "əlindəki şüşəni Ərni dağına çırpması" ilə ifadə edən şair İsa Məsihanın bu "qidaya tamah salmamasını", yəni taxt-taca yiyələnə bilməməsini onun "ləkəli" olması (atasının olmaması yəni nəsil səcərəsinin olmaması) ilə ifadə etmişdir. Nizami Gəncəvinin "Xəmsə"də "Fərincə" adı ilə bəhs etdiyi sərkərdənin adı da maraq doğuran işarələrdən biridir.

*Sarı kaftan geymiş pəhləvan,*
*Qılıncda, qədəhdə şöhrətli, şanlı.*
*Fərincə adında özü alanlı*

"İsgəndərnamə" poemasında alan tayfaları tərəfindən ruslara qarşı döyüşən bu sərkərdənin adını Oğuz dilləri qaydalarına uyğun təhlil etdikdə F+Ərincə adının yarandığını görürük. Fikrimizcə, burada "sarı kafdan geymiş" sözü Əlincəqalanın təbii sarı rənginə, "pəhləvan" sözü Əlincəqalanın tarixi əhəmiyyətinə, "Fərincə" adı "Ərincə" adına, "alanlı" isə Əlincənin "Alancik" adına işarədir.

Əlincəqalanın adı tarixi mənbələrdə həm də "Ərincə" kimi qeyd olunur. Akademik İsmayıl Hacıyev "Ərincə" adına aydınlıq gərirərək qeyd edir ki, "Ümumiyyətlə, Azərbaycan dilçiliyində Əlincəqalanın adı sadəcə yer adı kimi çəkilir. Əslində o türk boylarından biri olub, Həmdullah Qəzvini onun adını Alancık kimi ifadə etmişdir. 1225-ci il hadisələrindən bəhs edən Mirxond Əlincəqalanın adını Əlincək kimi qeyd etmişdir.

Əlincəqalanı ifadə edən adlarından da göründüyü kimi, Nizami Gəncəvi bu adların mənalarından ustalıqla istifadə edərək, Əlincəqalanı işarə edən ad, əlamət və işarələrlə böyük fikirlər ifadə etmişdir.

Nizami Gəncəvinin Atabəylərə ithaf etdiyi "Xosrov və Şirin" poemasında adı çəkilən "daş üstürlab"lar barədə verdiyi məlumat da, fikrimizcə, Nax-

çıvan torpağına, Əlincəqalaya edilən işarələrdən biri ola bilər. Poemada deyilir:

*Biri on arpanı eyləyib mehrab,*
*Biri iki daşa deyir üstürlab.*
*Bu iti fırlanan çərx də müxtəsər,*
*Arpa və daş kimi nəticələnər.*
*Sən demə rükndən yaranmış insan,*
*Ulduzdan yaranmış çünki bu ərkan.*

Əlincəqala bərpa olunarkən burada aşkarlanmış, üzərində səma cismlərini bildirən rəmzi işarəli dairəvi daşlar Nizami Gəncəvinin bu məlumatı ilə uyğun məna kəsb edir və "Xəmsə"də bu üstürlablardan bəhs edilməsi fikrindən yayınmaq olmur.

Üstürlablar orta əsrlərdə planetlərin, bürclərin yerini təyin etmək, gündüz və gecə saatlarını hesablamaq, müxtəlif şəhərlərin istiqamətini və qiblənin yerini müəyyənləşdirmək üçün istifadə edilən astronomik cihaz olmuşdur. Əsasən dəmir, yaxud ağac materialından hazırlanmışdır. Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında adı çəkilən üstürlabların daşdan hazırlanması Əlincəqalada bu üstürlablardan hələ daha öncəki yüzilliklərdən istifadə edilməsi fikrini yaradır.

"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində və Naxçıvan Muxtar Respublikasındakı digər tarix profilli muzeylərdə nümayiş olunan bu daşlar tədqiq olunarsa, daş üstürlabların və Nizami Gəncəvi yaradıcılığında səma cisimlərinin rəmzi mənalarının öyrənilməsində yeni səhifələrin açılmasına səbəb ola bilər.

Nizami Gəncəvinin fenomen biliyinin məhsulu olan "Xəmsə" dahi şairin gələcək nəsillərə miras qoyduğu zəngin fikirlər xəzinəsidir. Tədqiqatlardan aydın olur ki, onun fikir xəzinəsinin ən qiymətli gövhərlərindən biri isə Naxçıvan torpağının, Azərbaycan xalqının əyilməzlik rəmzi olan Əlincəqaladır.

Naxçıvan diyarı və Əlincəqala haqqında "Xəmsə"də yazılanlardan, edilmiş işarələrdən görünür ki, Nizami Gəncəvi yaşadığı dövrdə Gəncədən Naxçıvan şəhərinə səfər etmişdir. İndiyədək Nizaminin Naxçıvan səfərinin təxminən Batabat yaylağında Qızıl Arslanla görüşü ilə əlaqəli şəkildə təqdim etmişlər. Lakin ola bilməz ki, böyük şair Gəncədən Naxçıvana qədərki uzun yolu gəlib, buradan dərin ehtiram bəslədiyi hökmdar olan Qızıl Arslanın sarayını ziyarət etməmiş olsun. Bu, o dövrün saray qaydalarına da uyğun deyildi və yəqin ki, hörmətsizlik əlaməti hesab edilərdi. Nizami Gəncəvi kimi geniş dünyagörüşə və zəngin həyat təcrübəsinə malik olan, şahlardan və saraylardan epik dastanlar yaratmış böyük sənətkar belə bir yanlışlığa heç vaxt yol verməzdi.

Bizdən əvvəl akademik İsa Həbibbəyli Nizami Gəncəvinin Qızıl Arslanla Batabat ətrafındakı görüşü zamanı Naxçıvan şəhərinə gəlməsi və böyük memar Əcəmi ilə görüşməsi haqqında ehtimal irəli sürmüşdür. Nizami Gəncəvinin Əlincə qalasında olmasına dair fikirlər görkəmli sənətkarın Naxçıvan şəhərində olmasına dair ehtimalları daha da qüvvətləndirir. Bütün bunlar isə Nizami Gəncəvinin tərcümeyi-halını dəqiq yazmaq üçün əhəmiyyətlidir.


İstifadə edilmiş dəbiyyat

1. Babayev S.Y. "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri". Bakı, YENİ NƏŞRLƏR EVİ, 1999, 224 səh., şəkilli.
2. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007, 312 səh.
3. Əlincəqala. Naxçıvan, "Əcəmi" NPB, 2016, 304 səh.
4. Əsgərov İ.V. Morfoloji yolla söz yaradıcılığında qeyri-məhsuldar şəkilçilərin rolu. Bakı, "Elm və təhsil", 2004, 72 səh.
5. Gəncəvi N. Xosrov və Şirin. Bakı, "Lider nəşriyyatı", 2004, 432 səh.
6. Gəncəvi N. İsgəndərnamə. Bakı, "Lider nəşriyyatı", 2004, 467 səh.
7. Gəncəvi N. Leyli və Məcnun. Bakı, "Lider nəşriyyatı", 2004, 228 səh.
8. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı, "Lider nəşriyyatı", 2004, 264 səh.
9. Gəncəvi N. Yeddi gözəl. Bakı, "Lider nəşriyyatı", 2004, 432 səh.
10. Kitabi-Dədə Qorqud və sadələşmiş mətnlər. Bakı, "Öndər nəşriyyat" 2004, 376 səh.
11. Naxçıvan tarixi. 3 cilddə, 1-ci cild. Naxçıvan: "Əcəmi" NPB, 2013, 452 səh.
12. Nəsimi İ. Seçilmiş əsərləri. İki cilddə, 1-ci cild. Bakı, "Lider nəşriyyatı", 2004, 336 səh.; 2-ci cild. Bakı, "Lider nəşriyyatı", 2004, 376 səh.
14. Piriyev V. Azərbaycan 13-14-cü əsrlərdə. Bakı, "Nurlan", 2003, 458 səh.
15. Şıxıyeva S. Hürufiliyin tarixi: ənənəviləşmiş təhriflər, unudulmuş gerçəkliklər. Metafizika- Cild 1, Sayı 2, 2018, s 85-96.
16. Vəlixanlı N. Naxçıvanın 7-12-ci əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan, "Əcəmi" NPB, 2015, 179 səh.
17. https//az.m.wikipedia.org>wiki>Ş…
18. https//islamansklopedisi.org.tr>ust..
19. www/axiska.narod.ru>2.3..htm
20. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan", 2007, səh. 694



**Məmməd HƏŞİMOV**
*AMEA İnformasiya Texnologiyaları İnstitutunun böyük elmi işçisi, texnika üzrə fəlsəfə doktoru*

# Beyin-kompüter interfeysi

**Beyin-kompüter interfeysi müəyyən bir obyekt və ya cihazın insan beyni vasitəsilə birbaşa idarə edilməsi məqsədilə əlaqəni təmin edir. Beyində baş verən fiziki prosesləri dəqiq şəkildə izləyən sensorların köməyi ilə beyindən məlumatın əldə edilməsi və istənilən cihazın proqram təminatı vasitəsilə idarə olunması mümkündür.**

İnsan beyni çox maraqlı və mürəkkəb bir orqan olduğundan əsrlər boyu bu sahədə saysız-hesabsız elmi araşdırmalar aparılmışdır. Texnologiyanın erkən inkişaf dövründə neyron fəaliyyət insan üçün bir sirr olaraq qalırdı, lakin indi insan, nəinki neyron fəaliyyətləri geniş araşdırıb dərk etmiş, hətta ondan müxtəlif sistemlərin inteqrasiyası üçün istifadə etməyə başlamışdır. Bu tədqiqatlar beyin siqnalları vasitəsilə insan beyni ilə maşınlar arasındakı qarşılıqlı əlaqənin qurulması məqsədilə həyata keçirilmişdir. Məhz buradan "Beyin-kompüter interfeysi" (BKİ) termini meydana gəlmişdir.

BKİ bir-birini qarşılıqlı şəkildə tamamlayan beyin ilə kompüter arasında əlaqə sistemidir. Bu interfeys insan bədəninin sinir-əzələ sistemi ilə deyil, onun zehni fəaliyyətinin köməyi ilə əlaqənin qurulmasına imkan verir. BKİ, xüsusilə fiziki məhdudiyyətli insanların müəyyən hərəkətləri yerinə yetirə bilməsi üçün faydalı platforma təqdim edir. Bu platformada insan və maşın arasındakı kommunikasiya keyfiyyətinin artırılmasına yardım edən beyin təsviri texnologiyalarından istifadə olunur.

İnsan beyni təqribən 100 milyard neyrondan ibarət mürəkkəb bir şəbəkədən təşkil olunmuşdur. İnsan düşünərkən, hərəkət edərkən, nəyisə hiss edərkən və ya xatırlayarkən həmin neyronlar işləyir və elektrik siqnallarını göndərməklə beynə və ya beyindən məlumatın ötürülməsini həyata keçirir. Həmin elektrik siqnallarını müxtəlif texnologiyaların köməyi ilə aşkar edib cihazın, maşının, kompüterin idarə olunması məqsədilə istifadə etmək olar. Bunun üçün üç üsuldan istifadə olunur:

**İnvaziv.** Bu halda əməliyyat zamanı xəstənin beyninin boz maddəsinə elektrod oxu yerləşdirilir. Elektrodlar neyronlarla əlaqələnir və beləliklə, hər bir elektrod beyindən gələn elektrik siqnallarını birbaşa qeyd edir. Lakin invaziv BKİ insan sağlamlığı üçün narahatlığa səbəb olur.

**Qismən invaziv.** Burada implantlar beyni deşmədən kəllə sümüyünün altına yerləşdirilir. Bu zaman siqnalların keyfiyyəti aşağı olsa da beyindən gələn siqnalların qəbul edilməsi invaziv üsulla müqayisədə insan sağlamlığına ziyan vurmur.

**Qeyri-invaziv.** Qeyri-invaziv BKİ sistemləri xəstənin beynində heç bir implantasiya olmadan siqnalları yüksək keyfiyyətlə qeyd edir. Qeyri-invaziv BKİ-də sensorlar baş dərisinə yerləşdirildiyindən, invaziv üsulla müqayisədə onun istifadəsi daha asandır. Bunun üçün ən çox istifadə edilən metodlardan biri elektrodlardan istifadə edərək beyin fəaliyyətini qeyd edən "elektroensefaloqrafiya (EEG) texnologiyası" vasitəsilə həmin siqnalların aşkar edilməsidir. Belə elektrik siqnallarından cihazların idarə olunması məqsədilə istifadə edilir.

Beynin fəaliyyəti zamanı yaranan elektrik siqnalları yuxarıda qeyd olunduğu kimi beynin daxilində, kortikal səthdə və ya baş dərisində yerləşən

elektrodlar vasitəsilə qeydə alınmaqla aşkarlanır. Daha sonra siqnallar elektron emala uyğun səviyyələrə qədər gücləndirilir, rəqəmsallaşdırılır və kompüterə ötürülür. Burada xüsusiyyətlərin aşkarlanması, müvafiq siqnal xüsusiyyətlərinin (yəni şəxsin niyyəti ilə əlaqəli olan siqnallar) kənar məzmundan ayrılması üçün rəqəmsal siqnalların təhlili və onların yekun əmrlərə çevrilməsi məqsədilə uyğun kompakt formada təqdim olunması həyata keçirilir. Bu xüsusiyyətlər istifadəçinin məqsədi ilə əlaqəli olmalıdır. Yaranan siqnal xüsusiyyətləri daha sonra xüsusiyyətlərin çevirmə alqoritminə ötürülür və bu xüsusiyyətləri cihazın anlayacağı müvafiq əmrlərə (yəni istifadəçinin niyyətini yerinə yetirən əmrlərə) çevirir. Xüsusiyyətlərin çevrilmə alqoritmindən gələn əmrlər yekun cihazı işə salır, hərfin seçilməsi, kursora nəzarət, robot qolun istifadəsi və s. kimi funksiyaları təmin edir. Cihazın fəaliyyəti istifadəçi ilə əks əlaqə yaradır, beləliklə də idarəetmə dövrəsini tamamlayır (Şəkil 1).

**Beyin kompüter interyesinin inkişaf mərhələləri.** Bir çox ədəbiyyatlarda 1920-ci illər BKİ-nin inkişaf tarixi kimi göstərilmişdir. İnsan beyninin bioelektrik hərəkətlərini qeydə alan elektroensefaloqrafiya metodunun ixtiraçısı sayılan alman psixiatrı Hans Berqer 1924-cü ildə beyindən ötürülən 8-12 Hz tezliyindəki ALPHA dalğaları kəşf etməyə nail olmuşdur. Daha sonralar bu dalğalar onun şərəfinə Berqer dalğaları adlandırılmışdır.

1950-ci illərdə ispaniyalı professor Xose Delqado canlı heyvanların (daha sonra isə insanların) beyninə elektrodları implant etdiyinə və onları kəllə sümüyünün altında yerləşdirdiyi radioqəbuledicidən istifadə etməklə stimullaşdırdığına görə məşhurlaşmışdı. Delqado insan və heyvanlarda sakitləşmə və ya aqressivləşmə kimi əsas davranış effektlərinin yaradılmasına nail olmuşdur. Bu tədqiqat ilk beyin implantı olaraq beyinə siqnalların ötürülməsi imkanlarının olmasını bir daha sübut etdi.

1970-ci illərdən başlayaraq bir çox tədqiqat mərkəzlərində BKİ-nin tətbiqi ilə bağlı çoxlu layihələr həyata keçirilməyə başladı. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

Görmə qabiliyyətinin müalicəsi üçün hazırlanmış ilk BKİ prototipi amerikalı alim Vilyam Do Bel tərəfindən 1978-ci ildə yetkinlik yaşlarında görmə




**Şəkil 1. Beyin kompüter interfeysinin arxitekturası**



**Şəkil 2. Brain Gate layihəsi**

qabiliyyətini itirmiş Cerri adlı bir şəxsə implantasiya edilmişdir. Cerri asanlıqla gəzə və böyük hərfləri oxuya bilmişdi. Hazırlanmış süni görmə sistemi kiçik kamera vasitəsilə görüntü çəkməklə və hər biri günəş eynəyinin bir obyektivinə quraşdırılmış ultrasəs sensor vasitəsilə məsafədən məlumatları əldə etməklə fəaliyyət göstərirdi. Bu siqnallar 5 kq.-lıq portativ kompüter tərəfindən emal edilir, daha sonra isə insanın beyninə yerləşdirilmiş 68 platin elektroda yeni siqnal göndərilirdi. Elektrodlar beynin görmə qabığının səthində olub, əşyaların çıxıntılarını göstərən işıq ləkələrinin, yəni fosfenlərin (gözə işıq daxil olmadan işığın qəbul edilməsi) vizuallaşdırılmasına imkan verirdi. Bu layihə tədqiqatçı, neyrocərrah və CPU (Central Prosessor Unit - Mərkəzi Prosessor Modulu) istehsalçılarının birgə həyata keçirdiyi ilk tədqiqat işi idi. O zaman bu hələ çox gənc tədqiqat sahəsi hesab olunurdu. İndiyədək bu sahədə bir sıra tədqiqat işləri həyata keçirilmişdir.

"BrainGate" (beyin qapısı) adlanan digər bir ixtira ABŞ-ın Braun Universitetinin Neyroşünaslıq şöbəsində kiber kinetika sahəsində fəaliyyət göstərən biotexnologiya şirkəti tərəfindən yaradılan protezdir. Ümumiyyətlə, BrainGate onurğa beynin zədələnməsi nəticəsində hər hansı hərəkət qabiliyyətini itirmiş, beyin insultu keçirmiş və ya yan amiotrofik skleroz xəstələrinə yardım məqsədilə yaradılmışdır. İlk dəfə BrainGate BKİ-nin tətbiqi 9 aylıq sınaqlardan sonra 2005-ci ildə tetraplegik Matt Neyql üzərində sınaqdan keçirilmişdir. O zaman neyrotexnoloji BrainGate çip-implantını insanın beyninə yerləşdirməklə insan beynini idarə etməyə nail olmuşdular. Neyqlin sağ presentral nayihəsinə (sağ əlin hərəkətini icra edən beyin hissəsi) yerləşdirilmiş 96 elektrodlu BrainGate implantı təfəkkür vasitəsilə Neyqlin robot əlini hərəkət etdirməyə, kompüter kursorunu, televizor pultunu işlətməyə imkan vermişdir (Şəkil 2).

2008-ci ildə ABŞ-ın Pitsburq Universitetinin Neyrobiologiya fakültəsinin professoru Andryu Şvartzın rəhbərlik etdiyi qrup "Meymun beyni ilə idarə edilən robotik qol" tədqiqat işini təqdim etmişdir. Bu tədqiqat işində meymunun onun beyni ilə elektron şəkildə bağlanan robot qolun köməyi ilə qidalandığı nümayiş etdirilmişdir. Meymunun öz qolları isə plastik borularla saxlanılmışdır. Bu zaman robot qolun idarə edilməsi üçün beynin hərəkətə məsul olan bölgəsinə insan saçından da nazik 96 elektrod bağlanmışdır.

Yuxarıda qeyd olunan layihələr ilkin olaraq laboratoriya şəraitində həyata keçirilmişdir. Sistemin laboratoriyadan kənarda normal fəaliyyətini təmin etmək üçün texniki təminatların təkmilləşdirilməsi tələb olunur. Bu sistemlər müxtəlif mühitdə istifadə edilə bilməsi üçün kifayət qədər intellektual olmalıdırlar. Digər tərəfdən, istifadəçi sistemin asan istifadə edilməsi arzusunda olur. Lakin belə bir mürəkkəb sistemin asan istifadəsini təmin etmək böyük tədqiqatlar tələb edir.



**Şəkil 3. Meymun beyni ilə idarə edilən robotik qol**



**Kəmalə CƏFƏROVA**
*AMEA Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşı*

# Memuar ədəbiyyatında repressiyanın əksi

**Xatirə (memuar) janrı dünya ədəbiyyatında çox işlənən bir ədəbiyyat növüdür. Bu janr özünəməxsus xüsusiyyətləri ilə seçilir. Belə ki, burada sənədlilik, müəllifin şəxsən gördüyü, yaşadığı, yaxından ünsiyyətdə olduqlarının, bəzən özünün də iştirakçısı olduğu, bəzən isə sadəcə müşahidə etdiyi hadisələrin təsviri əsas yer tutur. Əsasən görkəmli şəxsiyyətlərin - yazıçıların, sənət adamlarının, siyasət, müharibə, elmi kəşflər sahəsində tanınan adamların öz ömür yolları - həyatları, şahidi olduqları haqqında yazdığı əsərlər memuar ədəbiyyatının əsasını təşkil edir. Bundan başqa, ayrı-ayrı müəlliflərin yazılarında da görkəmli sənətkarların xatirələrinə istinad edilə bilər.**

"Bu ədəbiyyatın ilk, ibtidai nümunəsi gündəliklər, yol qeydləridir. Gündəliklər, əlbəttə ki, bədii əsər deyil, gələcək əsər üçün bir material, fakt, tarixi qeydlərdir. Adından da göründüyü kimi, burada bir gündə müəllifin gördüyü, yaşadığı, şahidi olduğu faktlar qeyd olunur. Çox zaman bu qeydlərə aid heç bir şərh verilmir. Yol qeydlərində, səyahətnamələrdə isə müəllifin gördüyü yerlər, məskənlər, insanlar, hadisələr, onlar haqqında yeri gəldikcə mülahizələr verilir. Səyahətnamələr bitkin əsər olsa da, bədii keyfiyyət cəhətdən bəzən tam xarakterdə olmur, süjet etibarilə müəllifin keçdiyi yerlər, şahid olduğu hadisələr cərəyanına tabe tutulur" [3, s.164]. Göründüyü kimi, memuar ədəbiyyatı quruluşca müxtəlifliyi ilə seçilir.

Azərbaycan ədəbiyyatında memuar janrının tarixi və ənənəsi nisbətən zəif olmuşdur. Tədqiqatçılar XIX əsrin sonlarında Marağalı Zeynalabdinin (1838-1910) "İbrahimbəyin səyahətnaməsi"ni bu janrda yazılmış ilk əsər hesab edirlər. Fars dilində yazılmış bu əsərdə müəllif müsəlman aləmində baş verən hadisələri qələmə almış, cəhaləti, dini xurafatı, istibdadı kəskin satira atəşinə tutmuşdur. XX əsrin əvvəllərindən başlayaraq ədəbiyyatımızda "Xatiratım" tipli əsərlər meydana gəlir. Cəlil Məmmədquluzadə (1866-1932), Məmməd Səid Ordubadi (1872-1950), Seyid Hüseyn (1887-1938) öz xatirələrini - həyat yollarını, başlarına gələn əhvalatları qələmə almışlar. Bunların içərisində C.Məmmədquluzadənin "Xatiratım" memuarı öz bədii sanbalı ilə seçilir. "Gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq görmüşəm. Bu qaranlıqda ilk dəfə eşitdiklərim bunlardır: "Allahü əkbər! Allahü əkbər!" Həmin səda qonşuluqda müəzzinin azanıdır. Və sonralar adət eləmişdim ki, bu iki kəlmədən sonra azançımız Molla Kərim bu sözləri də deyir: "Əşhədü ən la ilahə illəllah". Və bundan sonra dəxi böyüdükcə hər gün və hər saat sağ və soldan eşitdiklərim sözlərin içində labüd gərək "Allahü əkbər olaydı" [2, s.95]. Bu əsər onun dünyaya göz açdığı mühitin təsviri ilə başlayır və daha sonra Naxçıvanda təhsil aldığı illər,

burada yaşayan insanların həyat və məişəti haqqında maraqlı əhvalatlar, bilgilərlə tanış oluruq. Müəllif "Molla Nəsrəddin" jurnalında çalışdığı illəri, bu zaman qarşıya çıxan çətinlikləri, əməl dostları ilə birgə mübarizəsini qələmə alır. Amma əsər bitməyib, çünki Mirzə Cəlilin həyatında, ədəbi fəaliyyətində daha önəmli hadisələr baş verir. Bu boşluğu müəyyən dərəcədə Həmidə xanım Cavanşir-Məmmədquluzadə (1873-1956) C.Məmmədquluzadəyə həsr etdiyi xatirəsində aradan qaldırır.

Memuar ədəbiyyatının parlaq nümunələrindən olan Abdulla Şaiqin (1881-1959) "Xatirələrim" əsərində maarifçi ziyalının uşaqlığı, böyüyüb formalaşdığı Tiflis mühiti, XX əsr Azərbaycan gerçəkliyi - əsrin əvvəllərində Azərbaycanda mövcud olan ziddiyyətli, təzadlı şərait, erməni-müsəlman hadisələri, xüsusilə Məhəmməd Hadi (1879-1920), Hüseyn Cavid (1882-1941) kimi görkəmli sənətkarlarla bağlı xatirələri şirin bir dillə oxucuya çatdırılır.

Hüseyn Cavid heç bir xatirə, gündəlik yazmasa da, amma onun şəxsiyyəti, insanlara münasibəti, müəllimlik fəaliyyəti haqqında çoxlu xatirə qələmə alınıb. Bu yazıların içərisində Mişkinaz Cavidin (1902-1976) xatirələri xüsusilə seçilir. Cavidin ömür-gün yoldaşı kimi o, böyük sənətkarın obrazını ayrı-ayrı hadisələr, ailədə, sənət aləmində, dostları arasında, hətta adi insanlarla münasibətində canlandırır. Cavidin Üzeyir bəy Hacıbəyli (1885-1948) və Abbas Mirzə Şərifzadə (1893-1938) ilə dostluğu barədə ən konkret detalları oxucuya çatdırır.

Keçən əsrin 50-ci illərindən başlayaraq memuar ədəbiyyatı əvvəlki illərlə müqayisədə çoxalır. Məlumdur ki, xatirə ədəbiyyatının müxtəlif formaları var. Bunların sırasında avtobioqrafik povest və romanları xüsusi qeyd etmək lazımdır. Xalq yazıçısı Əli Vəliyevin (1901-1983) "Budağın xatirələri" gündəlik və ya xatirə səpkisində yazılmış avtobioqrafik romandır. Bu romanın qəhrəmanı Budaq, demək olar ki, müəllif özüdür.

"Ən qorxulu səs nədir, görəsən?

Döyülən qapı səsi qorxuludurmu?

Onlar üçün bu səs - döyülən qapı səsi ürəklərini lərzəyə salan, içərilərini səksəkə ilə saran vahiməli bir uğultuya bənzəyirdi. Sanki əsəblərinin tellərini qapıya bənd etmişdilər. Qapı döyüləndə dartılırdı, gərilirdi o əsəb telləri, tükürpədici bir qorxu gəmirirdi içərilərini" [1, s.192].

Rafael Hüseynovun "Vaxtdan uca" kitabında Azərbaycanın iki görkəmli sənətkarı - Müslüm Maqomayev ("Yaşıl yarpaq") və Hüseyn Cavid ("Cavidlər") dünyası təsvir olunur. Müəllifin özünəməxsus fərdi üslubu, yazı tərzi var. O, oxucunu yormur, əksinə, oxuduqca həyəcanlanırsan, kövrəlirsən, bəzən qəhərdən boğulur, göz yaşlarını saxlaya bilmirsən, ürəyin ağrıyır, bəzən əsərin qəhrəmanlarıyla sevinir, acı günlərini də yaşayırsan, "sevinirsən, dərdlənirsən, bəzən də yanıb-yanıb yaxılırsan. Ancaq bütün bu hissləri keçirə-keçirə ən çox fikrə dalırsan. Vaxt haqqında, vaxtın içində ömür sürən İnsan haqqında, onun Baxtı haqqında düşünürsən" [1, s.3]. Hər iki yazıda nə adət etdiyimiz mənada geniş əhvalatlar var, nə də bir-birinin ardınca sıralanan yorucu məlumatlar. R.Hüseynov bu iki insanın ömür yolunu - onların şəxsiyyətini yaşadıqları zamanın çevrəsində arayır, vaxtın insan, sənətkar, yaradıcı taleyində həm də baxt olması fikrini aydınlaşdırmağa çalışır.. "Cavidlər" əsərində təkcə Cavidin deyil, onun ailəsinin Cavidli-Cavidsiz günləri, illəri təsvir olunur. Bu əsərləri, istisnasız olaraq, Müslüm Maqomayevin (1885-1937) və Hüseyn Cavid ailəsinin dilindən səslənən avtobioqrafik romanlar hesab etmək olar. R.Hüseynov "Cavidlər" əsərində belə bir fikri aşılayır ki, repressiya təkcə bir sənətkarın məhvi, öldürülməsi və ya həbs olunması ilə məhdudlaşmır. Repressiyanın ən ağır, düyünlü nöqtəsi həmin insanların, görkəmli sənətkarların ailə üzvlərinin də maddi və mənəvi əzablara düçar olması ilə bağlıdır. "Cavidlər"də "xalq düşməni"nin həyat yoldaşı Mişkinaz xanımla qızı Turanın yaşadıqlarının, oğlu Ərtoğrolun nakam taleyinin işıqlandırılması da bu məqsədə xidmət edir. Çox istedadlı bir gənc olan Ərtoğrol Cavid

həm də şahmatda, musiqidə, elmi yaradıcılıqda müstəsna qabiliyyətə malik idi. Əsərdə Ərtoğrol ölümünə qədər keçdiyi həyat yolu ilə təsvir olunur. Təkcə onu deyil, Mişkinaz xanımı da Cavidlər ocağının odunu söndürməyən əzabkeş bir qadın kimi dərk edirik.

Keçən əsrin 90-cı illərinin ictimai-siyasi hadisələrini əks etdirən bir əsər var ki, hər mənada memuar janrının bütün tələbləri ilə səsləşir. Bu əsəri "zindan ədəbiyyatı" nümunəsi də hesab etmək olar. Xalq şairi Xəlil Rza Uluturkün (1932-1994) "Lefortovo zindanında" əsəri ədəbiyyatımızda memuar janrının tamam yeni və orijinal bir səhifəsini açdı. 80-ci illərin sonlarından başlayan müstəqillik hərəkatına könüllü qoşulan X.R.Uluturkün bütün çıxışlarının, ictimai-siyasi fəaliyyətinin mahiyyətində Azərbaycanın dövlət müstəqilliyi və demokratiya yolu ilə inkişafı ideyası dururdu. Belə bir siyasi mövqe şairi sonda imperiyanın Lefortovo zindanına gətirib çıxarmışdı. X.Rza həbs olunmağını əsərində daha müfəssəl təsvir edir: "Gənclik" metrosuna çatanda dostlar siqaret almaq fikrinə düşürlər. Maşından enirik. Və bu halda bizi bircə qırpımdaca qamarlayırlar. Mülki paltar geyinmiş, əli tapançalı bir nəfər bizi yaxalayıb yaxındakı RAF maşınına yükləyir.

- Silahın varmı?

- Var!

- Hanı?

- Mən özüm silaham!

...Üstünə yalnız quru döşək atılmış çarpayıda, əllərimi başımın altında daraqlayıb uzanmışam. Ac, susuz və yorğunam. Məni müstəntiqin görüşünə aparırlar. Orta yaşlarında, mavi gözlü, qızılı saçlı bir rusdur. - Əyləşin. Siz SSRİ baş prokurorunun müavini Abramov yoldaşın əmri əsasında dustaq edilibsiniz. Azərbaycan SSR Cinayət Məcəlləsinin 67-ci maddəsilə ittiham olunursunuz!

- Nədir bu maddənin məğzi?

- Milli ədavəti qızışdırmaq!

- Gülüncdür və məndən milyon kilometr uzaqdır bu maddə. Mən böyük Azərbaycan Türk şairi Xəlil Rzayam və bütün ömrüm boyu bəşəriyyətin, planetin, günəşin vahidliyini nişan vermişəm. Dünyanın 300-dən çox şairini Azərbaycan türkcəsinə tərcümə etmişəm. Milli ədavəti qızışdıran mən deyiləm, ağ və qırmızı imperiyanı yaşadanlardır. Birinci Pyotrun, quduz Pyotrun, yırtıcı Pyotrun vəsiyyətini yerinə yetirənlərdir, velikorus şovinizmini təmsil edən Abramovlar və onların nökərləridi. Bizim böyük sərkərdəmiz və şairimiz Şah İsmayıl Xətai dövründə Azərbaycanın sahəsi olub iki milyon 888 min kvadrat kilometr. Bu gün isə Azərbaycanın sahəsi vur-tut 86,7 min kvadrat kilometrdən ibarətdir. Bu o deməkdir ki, son iki yüz ildə Azərbaycanın sahəsi 32 dəfə kiçildilib. Bəs deyilmi? Ayıb deyilmi? Siz dövlət DTK dediyiniz bu qanlı mağarada heç bilsəniz bəşəriyyətin Hüseyn Cavid, Mikayıl Müşfiq, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad kimi nə qədər ən dəyərli, ən istedadlı, ən cəsur oğullarını məhv etmisiniz, qırmızı imperiya adlanan cütbaşlı əjdahanın ağzına atmısınız! 70 ildən çoxdur ki, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi və ölkədə onun 15 filialı felən bəşəriyyət, planet üçün ən böyük təhlükədir. Yalnız təhlükə yox, cinayətlər mağarası!" [4, s.132]

Bütün yaradıcılığı boyu azadlığı, azərbaycançılığı, türkçülüyü tərənnüm edən X.Rza sovet rejimi dövründə də bu ideyalarla yaşayıb-yaradırdı. Azərbaycanı azad və müstəqil görmək istəyən X.Rza başqalarının çox ehtiyatla, qorxaraq, çəkinərək müraciət etdikləri, mətnaltı ifadə etdikləri fikirləri şeirlərində ucadan deyirdi. ●

**Ədəbiyyat:**

1. *Hüseynov Rafael. Vaxtdan uca (portret əsərlər). Bakı: "İşıq", 1987*
2. *Məmmədquluzadə Cəlil. Əsərləri. Altı cilddə, VI cild, Bakı: Azərnəşr, 1985*
3. *Paşayev Mir Cəlal, Xəlilov Pənah. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı: "Maarif", 1988*
4. *Rza Xəlil Ulutürk. Lefortovo zindanında. Bakı: "Çinar-Çap", 2006*



**Раджиб СУЛЕЙМАНОВ**
*исследователь*

# Особенности культуры Республики Дагестан на современном этапе

**В современном мире культура является не только ресурсом духовного формирования личности и общества, но и важным фактором в развитии экономики, обеспечении социальной стабильности и национальной безопасности. Это крайне важно в условиях России, учитывая масштабы её территории, культурно-цивилизационную специфику и различный уровень экономического развития регионов. Актуальной задачей современности является формирование субъектно-ориентированной культурной политики, учитывающей особенности регионов и являющейся оптимальной в их конкретных условиях.**

Республика Дагестан – уникальный полиэтнический регион на юге России, представляющий особый интерес в свете данной проблемы. На ее территории исторически проживают более 30-ти этносов, говорящих на 30-ти языках и 70-ти диалектах, и в основе явления, определяемого как "дагестанская культура", лежит многообразие и общность их традиций.

Современная инфраструктура культуры Дагестана имеет свои особенности, поскольку изначально складывалась не только с учётом социальных нормативов, но и исходя из специфики этнического представительства. В республике действуют 11 государственных театров, в числе которых – Театр оперы и балета, Театр кукол, Русский драматический театр и 8 национальных музыкально-драматических театров. Даргинский музыкально-драматический театр расположен в г. Избербаш с населением 51 тыс. человек (при нормативе – 1 театр на 100 тыс. человек); в г. Дербент с численностью 109 тыс. человек функционируют Лезгинский, Табасаранский и Азербайджанский театры; в Ногайском районе при населении 23 тыс. человек действует Ногайский театр, а также государственные коллективы ногайской культуры – Ногайский оркестр народных инструментов и фольклорно-этнографический ансамбль "Айланай". Традиционная культура казачества в системе государственных учреждений представлена Кизлярским терским ансамблем казачьей песни. Эти театры и коллективы являются очагами сохранения языка, литературного и традиционного наследия и, собственно, современного сценического искусства, и значительную долю их деятельности составляют гастроли в районах традиционного проживания этнического населения.

Также в системе государственных учреждений культуры республики функционируют 4 хореографических ансамбля, в числе которых – коллективы "Молодость Дагестана", "Каспий", Академический ансамбль танца "Лезгинка" и вокально-хореографический ансамбль "Дагестан", концертные организации – Дагестанская государственная филармония,

оркестр дагестанских народных инструментов, хор и симфонический оркестр.

О том, какими поэтами была богата дагестанская земля в стародавние времена, известно очень мало. Как правило, это были народные певцы-ашуги, которые исполняли свои песни и былины по селениям и аулам. В старину фольклор практически не отражался в летописях и хрониках. Поэтому сегодня нам не узнать, кто же был первым народным дагестанским поэтом. Записи об ашугах начали появляться лишь в XVIII столетии.

Одним из таких "запротоколированных" поэтов был Саид из Кочхюра (Саид Кочхюрский). Лезгин по происхождению, он писал свои произведения не только на родном языке, но и на азербайджанском. Известность ему принесли стихи, в которых он отражал труд простых горцев, вынужденных работать на ханов. Саид, родившийся в 1767 году, сам всю жизнь был вынужден работать батраком и отлично знал, что такое добровольное рабство. Он протестовал против тех бесчинств, которые творились богатеями, был очень популярным ашугом. Как-то Сурхай-хан II пригласил ашуга к себе, чтобы тот развлек его песнями. Все шло неплохо, и песни Саида нравились гостям, пока кто-то из богачей не сообщил хану, что этот нищий певец ведет себя дерзко и непочтительно смотрит на самого властителя. Обозленный хан приказал ослепить Саида. Но, даже оставшись без глаз, ашуг продолжал сочинять песни, в которых говорил крестьянам правду об их жизни. Умер Саид Кочхюрский в 1812 году.

В XIX веке были известны такие поэты Дагестана, как Эльдарилав, Омарла Батырай, Ирчи Казак, Етим Эмин. Все они подарили своему горному краю яркие стихи и песни, в которых рассказывали о своей любви к родине, о той борьбе, которую вели горцы за свою свободу. Уделялось место в этом творчестве и простой любви к женщине, семье, детям.

Социалистическая революция 1917 года дала новый толчок развитию литературы и поэзии дагестанских талантов. Местные поэты смогли, наконец, не только читать стихи своим слушателям, но и переносить их на бумагу. Поэтому, если раньше многих кавказских литераторов знали только самые узкие круги, то теперь у них появились поклонники в масштабах целой страны.



**Саид Кочхюрский**

Самым известным дагестанским поэтом, чьи стихи переводились на многие языки мира, был Расул Гамзатов. Великий Расул Гамзатов – самый известный в мире дагестанский литератор, воспевающий любовь к Родине, глашатай добра и человечности.

Аварец по национальности, Расул Гамзатов родился в 1923 году в семье Народного поэта Дагестана. Его отец Гамзат Цадаса поощрял увлечение сына поэзией. В 1943 году появился первый сборник стихов Гамзатова, опубликованный на аварском языке. Интересно и то, что Расула Гамзатовича Гамзатова в возрасте 20-ти лет приняли в Союз писателей СССР.

Гамзатов писал не только стихи, но и прозу, занимался переводами и публицистикой. За свои заслуги поэт был удостоен Сталинской и Ленинской премий, а в 1974 году ему было присвоено звание Героя Социалистического труда. Кроме того, Гамзатов был лауреатом многих литературных премий, как советских, так и зарубежных.

Всесоюзную известность Расул Гамзатов получил благодаря своим стихам, многие из которых были положены на музыку. Не было человека, который не слышал бы знаменитых "Журавлей". Композиция посвящена героям Великой Отечественной войны, павшим в боях и не вернувшимся домой. Но не все знают, что эти стихи в первоначальном варианте звучали так:

Мне кажется порою, что джигиты,
С кровавых не пришедшие полей,
В могилах братских не были зарыты,
А превратились в белых журавлей.



**Северная Осетия, село Дзуарикау. Памятник в честь братьев Газдановых, героически павших в боях за Родину в Великой Отечественной войне.**

Позже, когда поступило предложение написать на это стихотворение мелодию, Гамзатов решил изменить несколько слов, чтобы произведение приобрело более широкое социальное значение и посвящалось всем воинам огромной страны.

Гамзатов, как и многие другие поэты Дагестана, сотрудничал с республиканскими и всесоюзными газетами и журналами. Его песни пели такие известные советские исполнители, как Галина Вишневская, Иосиф Кобзон, Анна Герман, Марк Бернес, София Ротару, Валерий Леонтьев, Вахтанг Кикабидзе, Муслим Магомаев. По мотивам его поэмы "Горянка" был написан балет и снят художественный фильм.

Умер Расул Гамзатов в 2003 году. Всю свою жизнь он любил Кавказ, свой родной край, который воспел в своих произведениях, в том числе и в стихотворении "Мой Дагестан":

И после, когда затихали бои,
Тебе, Дагестан мой, в любви настоящей
Клялись молчаливые дети твои
Стучащей киркой и косою звенящей.
Веками учил ты и всех, и меня
Трудиться и жить не шумливо, но смело,
Учил ты, что слово дороже коня,
А горцы коней не седлают без дела.

Сегодня памятники Гамзатову можно увидеть в Махачкале, Москве, Санкт-Петербурге и даже в Ялове (Турция).

Дагестан по-прежнему славится своими поэтами. Кавказская литература остается важным звеном общероссийской литературы. При этом местная поэзия сохраняет свою самобытность. Поэты пишут как на своих родных языках, так и на русском: у каждого из них есть свое представление об окружающем мире, кто-то воспевает земную любовь, кого-то вдохновляет природа Кавказа. Но все они – поэты, воспевающие Дагестан в самых разных его проявлениях, его горы, историю, людей.

В 1995 году было законодательно учреждено почетное звание, которое присваивается литературоведам или драматургам, создавшим произведения, ставшие известными и значимыми для общества. На сегодняшний день звания "Народный поэт (писатель) Дагестана" были удостоены Муталиб Митаров, Расул Гамзатов, Фазу Алиева, Магомед Абасов.

Это вовсе не значит, что в горном крае есть всего несколько имен, составивших славу кавказской литературы. Многие из поэтов в свое время прошли войну, принимали участие в жизни страны, ездили по городам Советского Союза с творческими вечерами. В список прославленных поэтов Дагестана можно включить такие имена аварских, даргинских, кумыкских, лезгинских стихотворцев, как Сулейман Стальский, Раджаб Динмагомедов, Загид Гаджиев, Муса Магомедов, Абу-Бакар Ахмедхан, Аткай Аджаматов, Алимпаша Салаватов, Шах-Эмир Мурадов, Хизгил Авшалумов. Этот список можно продолжать долго, поскольку имен очень много. Поэты Дагестана всегда говорят с читателями искренне и делятся с ними своими чувствами, мыслями и тревогой о будущем Кавказа.

Культурную деятельность на местах осуществляют почти 5 тысяч любительских творческих объединений, в том числе 120 семейных ансамблей, 150 детских и хореографических коллективов, 9 ансамблей народных инструментов, 7 цирковых и 19 хоровых коллективов, представляющих культуру всех дагестанских народов. Практически повсеместно сохранены традиционные фольклорные коллективы, индивидуально и в центрах народных художественных промыслов работают мастера декоративно-прикладного искусства.

Образовательные учреждения системы культуры республики включают 94 муниципальных и 3 республиканских школ художественного образования, 4 средних специальных учебных заведений, где, наряду с обучением основам

академических видов искусства, действуют отделения народных музыкальных инструментов и хореографии, цирковых традиций (канатоходство), различных видов национального декоративно-прикладного искусства.

Об истории и художественной культуре Дагестана наглядно рассказывают экспозиции Национального музея Республики Дагестан имени А.Тахо-Годи (до 2017 года – Объединенный историко-архитектурный музей им. А.Тахо-Годи) с 37 филиалами в городах и районах республики, Дагестанского музея изобразительных искусств имени П.Гамзатовой, Дербентского историко-архитектурного музея-заповедника, на территории которого находится архитектурный комплекс "Цитадель Нарын-Кала", включенный в список Всемирного культурного и природного наследия ЮНЕСКО.

Характерной составляющей культурной среды республики является историко-архитектурное наследие, представляющее самобытный пласт традиционной культуры региона. Среди памятников различных эпох, официально взятых на учёт государства, – объекты архитектуры и градостроительства, а также археологические памятники.

Примечательным событием в жизни современного Дагестана является появление и развитие частных инициатив в сфере культуры. Предпринимательство реализуется в области развлекательной индустрии, организации гастролей, создания информационно-рекламных услуг (сайт "Искусство Кавказа"), печатной, кино- и видеопродукции. Есть удачный прецедент – частная художественная галерея ("Первая галерея"), которая уже приобрела известность, заняв своё место в культурной жизни столицы Дагестана. Очевидным фактом стал рост индивидуальной творческой деятельности, которая наглядно проявляется во время проведения конкурсов на получение грантов Президента Республики Дагестан. Данная форма государственной поддержки действует в республике с 2007 года, она доказала свою востребованность и динамичность: если на первый конкурс были представлены 18 проектов на 11 номинаций, то в минувшем году было подано 67 заявок.

В области творческой деятельности в республике значительное место занимает изобразительное искусство. Второй по численности на Северном Кавказе Союз художников Дагестана объединяет 158 живописцев, скульпторов и мастеров декоративно-прикладного искусства (26 отмечены почётными званиями РФ). Ещё более широк круг молодых художников (более 200), получивших профильное образование в Дагестанском художественном училище имени М.А.Джемала и на Художественно-графическом факультете ДГПУ. Творчество дагестанских мастеров изобразительного искусства развивается в самых различных направлениях и жанрах, в том числе абстрактной живописи. Этот стиль живописи позволяет выражать знаковую эстетику народной художественной традиции в таких современных формах, как инсталляция, видео-арт, перформанс и т.д. Творчество дагестанских художников стало заметным явлением в общероссийском масштабе. Многие из них являются участниками международных проектов, выставляются на площадках Москвы и Санкт-Петербурга, работают в арт-резиденциях. Суммарно в год проходит более 30-ти персональных и коллективных выставок дагестанских мастеров, в том числе за рубежом. Данная среда и профессиональные связи в этой области позволяют предполагать возможность развития арт-рынка.

Также в республике функционируют 5 частных благотворительных фондов, которые реализуют проекты по поддержке талантливой молодёжи, осуществляют благотворительные мероприятия и вносят свой вклад в повышение общественного внимания к роли и значению культуры.

Доходным сегментом экономики на основе культурной деятельности в Республике Дагестан может стать культурно-познавательный туризм, этнотуризм, который сегодня является одним из самых активно развивающихся направлений туриндустрии, способной задействовать сферу частного предпринимательства и одновременно внести свой вклад в дело сохранения культурной идентичности народов и территорий.



**Könül TAPDIQOVA**
*AMEA Zoologiya İnstitutunun Tətbiqi Zoologiya mərkəzi, böyük elmi işçi, biologiya üzrə fəlsəfə doktoru*



**Adil ƏLİYEV**
*AMEA Zoologiya İnstitutunun Hidrobiologiya laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru*

# HİRUDOTERAPİYA

**Zəlilərin təbabətdə müxtəlif xəstəliklərin müalicəsində istifadə olunması çox qədim vaxtlardan məlumdur. Daş kitabələrdə də bu barədə məlumatlara rast gəlinir. İlk dəfə Qədim Misirdə zəlilərdən istifadə etməklə bəzi xəstəliklərin müalicəsi müəyyənləşdirilmişdi. Qədim yunan əlyazmaları və tarixi şəkillər zəli terapiyasından keçmiş zamanlarda da müalicə məqsədilə istifadə edildiyini sübut edir.**

XVII- XIX əsrlərdə hirudoterapiya öz çiçəklənmə dövrünü yaşayırdı. XIX əsrdən sonra isə zəli ilə müalicə üsulu tədricən unudulur, XX əsrin ortalarına qədər hirudoterapiyaya müraciət edən, demək olar ki, olmur. Bunun səbəbi tibbdə daha müasir metodlardan, kimyəvi dərman preparatlarından istifadə olunması idi. Müasir dövrdə isə kimyəvi pereparatlarla müalicənin əlavə təsirlərinin olduğu artıq sirr deyil, təbii müalicə üsullarının daha faydalı olduğu artıq hamıya məlumdur.

Hazırda hipertoniya, varikoz, bir sıra ginekoloji və dəri xəstəlikləri zamanı zəli ilə müalicə çox yaxşı nəticələr verir. Belə müalicə üsulu hirudoterapiya (latın dilində - "zəli ilə müalicə") adlanır. Zəlinin ağız suyunun tərkibində olan 100-dən artıq bioloji aktiv maddənin ancaq 20%-ni elm öyrənə bilib. Bu canlının ağız suyunda hirudin deyilən maddə var. Hirudin qana daxil olan zaman qanda aşağıdakı dəyişikliklər baş verir: qanın laxtalanma qabiliyyəti azalır, qan durulur, qan oksigenlə zənginləşir, tromblar əriyir, orqanizmdəki iltihabi proseslər aradan qalxır, immun sistemi möhkəmlənir, infeksiya törədicilərin qarşısı alınır. Hirudin, eyni zamanda, qan damarlarında yüksək təzyiqi azaldır, xoralaşma prosesini, eroziv sahələri bərpa edir və sağalma sürətlə gedir. Xroniki iltihab proseslərində, ürək qüsurlarında, ürəyin işemik və qan dövranı xəstəliklərində, stenokardiya, maddələr mübadiləsi pozulduqda, osteoxondroz (duzlaşma), uroloji, ağ ciyər və qara ciyər, mədə-bağırsaq, ginekoloji, revmatizm, dəri xəstəliklərində zəli ilə müalicə müsbət effekt verir. Başqa bir ferment - destibilaza, kataraktanın (mirvari suyu) qarşısını alır, qlaukoma (qara su) xəstəliyinin inkişafını ləngidir, oliqoraza fermenti varikoz xəstəliyi zamanı trombla tutulmuş venoz damarları divarlarını təmizləyir, keçiriciliyini artırır, kiçik damarların mənfəzini açır və qan durğunluğunun qarşısını alır. Zəli bu qədər faydalı olsa da, zəli ilə müalicə zamanı ehtiyatlı olmaq lazımdır. Hirudoterapiya ilə bu işdə təcrübəsi olan mütəxəssis məşğul ola bilər. Heç bir zaman ara "həkimlərinə" və "mütəxəssislərə" müraciət etməyin! Zəli bütün xəstələrə tətbiq oluna bilməz. Hamilə qadınlara, anemiyalı, hemofiliyalı, onkoloji xəstələrə zəli qoymaq olmaz. Zəli qanı durultduğundan qan təzyiqi aşağı olanlar üçün təhlükə yarada bilər. Zəli qoydurmaq istəyən şəxsin qanının reoloji göstəriciləri haqqında bilgi olmalıdır. Bu, həm həkim üçün, həm də xəstə üçün vacibdir. Xəstə ilə təmasda olan həkimin pasientinin sağlamlığı haqqında tam məlumatı olmalıdır. Çünki xəstədə olan hər hansı qan xəstəliyi həkimə asanlıqla keçə bilər. Eyni zamanda, xəstə AİDS-ə, sifilisə və hepatitə qarşı yoxlanmalıdır. Hirudoterpiya 70-75 yaşı keşmiş insanlara məsləhət görülmür.

12-13 yaşına qədər uşaqlara isə zəli qoymaq qətiyyən olmaz. Çünki zəli uşaqların qan dövranında problem yarada bilər. Terapiyadan sonra yaranın yerini yod və ya brilliant yaşılı (zelyonka) ilə silmək olmaz, əks halda, yara kəskinləşəcək və yanıqlar yaranacaq. Yara üzərinə təmiz tənzif-tampon və ya pambıq qoyub 2-3 gün müddətində bağlı saxlamaq lazımdır. Yaranı açıq saxlamaq olmaz. Yarada cüzi qanaxma yarana bilər və belə qanaxma insanın səhhəti üçün heç bir təhlükə yaratmır və qısa müddət ərzində kəsilir.

Məhşur rus yazıçısı Lev Tolstoy da hirudoterapiyadan istifadə edirmiş. Bəzi mənbələrdəki məlumatlara görə o, bədəninə bir dəfəyə 20-yə yaxın zəli qoydururmuş. Amma hirudioloqlar zəlini hər dəfə 2-dən 4-ə qədər və fasilələrlə 7-10 seans qoymağı məsləhət görürlər. İstifadə etdiyiniz zəlini təkrar istifadə etməyin! Onu da qeyd edək ki, zəli çox həssas canlıdır. Bu canlı otaqda hay-küy olanda, siqaret çəkiləndə narahat olur. Hətta parfüm və ya kəskin ətirli maddənin qoxusunu hiss edir, onlardan istifadə etmiş şəxsə yapışmır. Zəlini xlorlu suda, həddən artıq isti və ya soyuq yerdə də saxlamaq olmaz.

Tibb zəlisi haqqında zəli dişləyəcək, dəridən qopmayacaq, sağalmaz yara əmələ gətirəcək, zəli ilə müalicə anemiyaya səbəb olacaq və s. kimi yanlış düşüncələr də vardır, buna görə də bəzi insanlar hirudoterapiadan imtina edirlər. Tibb zəlisi dəridə cəmi 1,5 mm dərinlikdə kəsik "açır", bədəndə bioloji aktiv nöqtələri axtarıb tapır, o yerlərə yapışır. Proses ağrısızdır. Çünki zəli qana həm ağrıkəsici maddə buraxır, həm də dişlək yerinin ətrafını qanın laxtalanmasına mane olan maddələrlə isladır. Zəli bir dəfəyə 15 ml-dən artıq qan sovura bilmir. İstifadə edilən zəli orta ölçüdə olmalıdır. Çünki iri ölçüdə olan zəli qanı daha çox sorub tətbiq olunduğu nahiyədə qan damarını zədələyə və qanaxmaya səbəb ola bilər.

Zəlilərin dünya miqyasında 500-ə yaxın növü məlumdur. Respublikamızın sututarlarında isə cəmi 15 növü qeydə alınmışdır. Zəlinin yalnız bir növü Hirudo cinsinə aid - tibb zəlisi (Hirudo medicinalis L, 1758) müalicə məqsədi ilə istifadə edilir. Bu növün 3 forması vardır - aptek tibb zəlisi (H.medicinalis officinalis), müalicəvi tibb zəlisi (H.medicinalis medicinalis), Şərq tibb zəlisi (H. medicinalis orientalis). Respublikamızın su hövzələrində H.medicinalis orientalis yayılmışdır.

Tibb zəlisi qara, tünd boz, tünd yaşıl, qırmızımtıl-qonur rənglərdə olur. Bel hissəsində qırmızı, əlvan-qəhvəyi, sarı və ya qara zolaqlar olur. Yan tərəfləri yaşılımtıl-sarı və ya zeytuni rəngdə olur. Uzunluğu 3-13 sm, bədəninin eni isə 1 sm-ə qədər olur. Ömrü 20 ilə qədərdir. Zəlilərin bədəni 33 seqmentdən ibarətdir. Onlardan öndə yerləşən 4-ü birləşərək ön sormacı, 7-si isə arxa sormacı əmələ gətirir. Bədən xaricdən kifayət qədər möhkəm kutikula ilə örtülmüşdür. Ön sormacın dərinliyində ağız yerləşir. Ağız boşluğunda 3 əzələvi yastıqcıq -



**Tibb zəlisi - Hirudo medicinalis officinalis**

1 bel və 2 yan yastıqcıqlar vardır. Hər yastıqcığının sərbəst kənarında cərgə ilə xitin dişlər yerləşir. Qida qəbul edən zaman zəlinin çənələri sahibin dərisini kəsir və dəridə 3 şüalı yara yaranır. Zəli buradan qanı sorur. Zəlilərin sorduğu qan onun ağız suyundakı hirudin maddəsinin hesabına onun bağırsağında heç bir dəyişikliyə uğramadan, konservləşdirilmiş halda uzun müddət qalır. Buna görə də zəlilər uzun müddət ac qala bilirlər.

Zəlilər şirin sularda (göllərdə, axmazlarda), su hövzələrinin ətrafındakı nəm sahələrdə (gil, nəm mamır) məskunlaşırlar. Zəlilər təmiz və axar suları çox xoşlayırlar. Əgər su hövzəsində qurumaq təhlükəsi yaranarsa zəlilər su hövzəsinin dibindəki nəm torpağa daxil olurlar, orada gizlənirlər. Zəlilərin təbii düşmənləri balıqlar və su quşlarıdır.

## Redaksiyaya göndərilən məqalələrə dair tələblər

1. Məqalələr redaksiyaya həm kağız, həm də elektron formada təqdim olunmalıdır;

2. Məqalələrin əvvəlində müəlliflərin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi rütbəsi, iş yeri, vəzifəsi, telefon nömrəsi, elektron ünvanı göstərilməlidir;

3. Material və ona aid şəkillər (şəkillər ayrıca fayl olaraq, böyük ölçüdə) redaksiyanın elektron ünvanına göndərilməli, yaxud da disk və ya yaddaş kartı ilə təqdim edilməlidir;

4. Məqalələr elmi-populyar janrda, Azərbaycan, rus və ingilis dillərindən birində təqdim olunmalıdır;

5. Məqalələr Microsoft Word mətn redaktorunda A4 formatında, TimesNew Roman şrifti ilə 14 pt ölçüdə, 1.5 intervalda işlənilməli, həcmi 4 səhifədən artıq olmamalıdır (məqaləyə aid şəkillər və müəllifin şəkli əlavə edilməlidir);

6. Təqdim olunmuş materiallarda səhifələr, cədvəl və şəkillər nömrələnməlidir;

7. Ədəbiyyat siyahısı verildikdə hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnməlidir;

8. Məqalələrdə göstərilən məlumat və faktlara görə redaksiya məsuliyyət daşımır;

9. Redaksiyaya daxil olan məqalələr rəyə təqdim olunur və müsbət rəy almış yazılar çapa tövsiyə olunur. Əlyazmalar geri qaytarılmır.

**Ünvan: AZ 1073, Bakı şəhəri, Hüseyn Cavid prospekti. 115,**
**"Elm və həyat" jurnalının redaksiyası.**
**Tel: ( + 994 12) 538-71-33; 050-353-05-21**
**E-mail: elm.heyat.jurnal@gmail.com**

**Çapa imzalanmışdır: 29 dekabr 2020-ci il**

**Tiraj: 300**

Jurnal **“Elm”** nəşriyyatında çap olunmuşdur.